# Gürzəçöl yazıları

(pritçalar)

VAQİF SƏMƏDOĞLU

Tərtibçi-redaktor,
ön sözün müəllifi:
Nüşabə Babayeva-Vəkilova

*"ATV Kitab"ın redaksiya heyəti:*

Vüqar Qaradağlı *(sədr)*

Məsiağa Məhəmmədi

Cavanşir Yusifli

İlqar Fəhmi

Etibar Babayev

Səlim Babullaoğlu *(layihə rəhbəri)*

Seyfəddin Hüseynli

Dilman Şahmərdanlı

Rəşid Çulaqov

Bəxtiyar Əlirzayev

*Nəşrlərin buraxılışına məsul:*

Nurman Tariq

*Tərtibçi-redaktor:*

Nüşabə Babayeva-Vəkilova

*Redaktor:*

Toğrul Musayev

*Korrektor:*

Turac Eldarqızı

*Yekun oxunuş:*

Amin Sükut

*Bədii və texniki tərtibat:*

İsmayıl Süleymanlı

*Üz qabığı:*

İsmayıl Süleymanlı

Vaqif Səmədoğlu. Gürzəçöl yazıları.
Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2016, 160 səh.

ATV Kitab – Parlaq İmzalar | 7

ISBN 978-9952-4940-3-7

**© Vaqif Səmədoğlu / 2016**
**© Parlaq İmzalar / © ATV Kitab / 2016**

Bütün hüquqları qorunur. İcazəsiz olaraq
hər hansı şəkildə yayımlanması qadağandır.

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
0552595972 / 0552597259

İnformasiya dəstəyi:
www.news.atv.az

# Mündəricat


Ön söz 9

Öküz yolu 13

Ballıca 17

Tut ağacında şinəbub yuvası 21

Tülkü yuvası 25

Maral 34

Qartal kölgəsi 44

İsti 50

Ölüm ayağında 53

Qara qoç 61

Su 78

Cehiz 82

Qərar 89

Quru arx 93

Darvaza 98

Kaş ki, o gün olaydı... 104

Öpüş 108

Oğul məzarı 111

Muğamat konserti ____________________ 114
Qış yuxusu ____________________ 119
İz ____________________ 128
Dua ____________________ 141
Menuet ____________________ 145
Ayaqyolu ____________________ 149

*Vaqif Səmədoğlunun*
*1985-ci il gündəliyindən:*

*İndicə "Gürzəçöl yazılarının" konspektlərini gözdən keçirdim. Onları yaxşıca işləyib, üzə çıxarmaq olar. Əsl ürək sözü olan yazılardı hamısı. Ancaq nəsr, proza deyil. Böyük dialoqları olan şeirlərdi. Yəni poemalardı. Nəsr kimi yazılmış. Qulaqlarım poemalarımın yaxın uğultusuyla, ürəyim, sinəm bu uğultunun bu gün-sabah sözlərə dönəcək yetim həsrətiylə, intizarıyla dolub. Ömürmü başlayır bu işi, ya bu işi başıma ölüm açır, bilmirəm. Ancaq poemalar gəlir, yaman gəlir yazılmağa. İkicə ay bəsimdir, Tanrıdan ikicə ölümsüz-itimsiz ay diləyirəm. Yola çıxmamışdan yarı yolda qoymasın məni. Bu yükü çiynimə qoyub, bu yol boyu aparmalıyam. Mənzil başına yetirməliyəm... Çətin işdi, ağır yükdü. Ancaq qaça bilməyəcəyəm bu mövzulardan. Heç harda gizlənə bilmərəm...*

*1997-ci il gündəliyindən:*

*"Gürzəçöl yazıları"nın uğultusu, ətri beynimdə hazırdır. Konspektlərini çoxdan yazmışam. 80-ci ilin əvvəllərində. Hər yazı iki səhifədən uzun olmamalıdır. Maksimum yığcam yazılmalı və ən sadə danışıq dilində olmalıdır bu yazılar. 120-200 əhvalatı pritçasayağı qələmə ala bilərəm.*

# Ön söz

Bir gün təsadüfən üzərində "Gürzəçöl yazıları" yazılmış dəftər əlimə keçdi. Adını eşitsəm də, əsərin özünü görməmişdim. "Tapıntı"ma sevindim. Dəftəri, cırılmasın deyə, ehmalla vərəqlədim. Mürəkkəbli qələmlə yazılmış pritçalar idi. Üstündə çox əl gəzdirilmiş, nəsə pozulumuş, nəsə yazılmışdı. Bu, qaralama idi. Sənə: "Gəl, bunu makinada yığım, çap edək" – dedim. Və indiyəcən dəftəri görmədiyimə görə təəccübümü gizlətmədim. Sən çox ciddi tərzdə dəftəri əlimdən alaraq: "Üzərində işləməliyəm" – dedin. (Bu zaman, düzü,  bir az incidim də) Və dəftəri gözdən uzaq bir yerə qoydun. Belə ki, daha heç gözümə də dəymədi. Sonralar o yazıların taleyi ilə bağlı bir-iki dəfə maraq göstərsəm də, Sənin susmağın mənimçün də bu mövzunu bağladı. O gündən nə az, nə çox 15 il vaxt ötdü... "Gürzəçöl yazıları"nı bu gün tapdım. Yox, bu "tapıntı"ma daha se-

vinmirəm. İçimdə bir üşütmə var. Dəftər də əlimə ağır gəlir. Daş kimi ağır... Sənin yoxluğun yazılarının çəkisini də ağır edib...

Yazıları oxumağa başlayıram. Sənin böyük həvəslə, ruhla yazmağa başladığın müxtəlif mövzulu hekayələrdən ibarət əsərini. Onları ürəkağrısıyla oxuyuram. Birnəfəsə oxuyuram. Canlı, dadlı-duzlu əsərini. Qulağımda Sənin səsin. Sanki Sən özün mənə bu əhvalatları bir-bir danışırsan. Real həyatda gördüklərini, duyduqlarını və Sənin zəngin təxəyyülündən doğanları. Heyif, min heyif, Sən yaradıcılığının yeni cəhətini özün istədiyin kimi tanıtdıra bilmədin. Öz niyyətini, düşüncələrini istədiyin səviyyədə deyə bilmədin. Xəyalında olanları, yazmaq istədiklərini bu mətnə əlavə etsəydin, təsəvvür edirəm necə böyük, bütöv, qeyri-adi bir əsər yaranacaqdı. İndi mən başa düşürəm, dəftəri əlimdən aldıqda Sənin ciddiliyinin arxasında hansı hisslər dururmuş. Yuxusuz gecələrin zəhməti bahasına yazılmış əsərini hansısa səbəblərdən zamanında özün dediyin kimi, "yaxşıca işləyib", üzə çıxara bilməməyin. Və "Gürzəçöl..." Sənin ürəyinin bir küncünə sığınmış yaralı yerin oldu. Hər dəfə onun "uğultusunu" eşidəndə, "ətrini" duyanda yeri göynədirdi...

"Gürzəçöl yazıları" Sən dünyanı dəyişəndən sonra işıq üzü görəcək ilk kitabın olcaq. Mənsə üzərimə ikiqat məsuliyyət götürürəm. Sənin yaradıcılığına olan tələbkarlığını bilə-bilə, əsəri yazdığın ilk va-

riantda çap etdirmək və ən əsası, bunu Sənin xeyir-duanı almadan edirəm. Bununçün gərək məni bağışlayasan... Sən Allah bağışla...

*Nüşabə Babayeva-Vəkilova*

# Öküz yolu

Günlərin bir günündə Səlim kişi axşamdan yatıb sabah yerindən qalxa bilmədi. Rəhmətliyin beş-on-iyirmi qoyunu, iki illik buğası, bir də bircə var-yox oğlu qaldı. Kəndin camaatı meyitin burnundan qan açılmadığını, sətəlcəm yuxusuna getmədiyini görüb, Səlim kişini mafəyə qoyub apardırlar. Basdırdılar Bincə təpəsinin böyründə. Məzarın üstündə çıraq yandırıb döndülər kəndə ehsan yeməyə.

Oğul qaldı dədəsini basdırdığı təpənin üstündə. Yevlaxdan Xaldana gedən yola baxırdı. Fikirləşirdi ki, buğanı axtalayıb arabaya qoşacaq, ya Yevlaxdan Xaldana, ya da ki, Xaldandan Yevlaxa odun aparıb satacaq, özünü də, ata evini də düzəldəcək.

Kişinin qırxını verən kimi oğul buğanı həyətdən eşiyə hoylayıb qabağına saldı. Üz tutdu buğa, keçi, at axtalayan bir erməninin evinə sarı. Buğanın gönü qalın olsa da, ürəyi nəzik idi. Nəsə damdı o nəzik ürəyinə.

– Ə, atası ölmüş oğul, məni bu sabahın gözü açılmamış haraya aparırsan belə? Olmaya ermənilərə satmaq istəyirsən, qibləsiz?

– Düz tapmısan, o buynuzlu kəllən haqqı, ermənilərin yanına aparıram səni, di gəl satmağa yox.

Oğul bic-bic içində gülürdü. Buğa da yaş burnunu dağlardan gələn keşniş ətrinə tuta-tuta onun qabağında gedirdi. Yolun qırağında bir göyçək ala inək göründü. Buğa bir az ayaq saxlayıb sinəsini gəbərə-gəbərə ona baxdı.

– Bax, bax, hələ baxan günündü, – dedi oğul.

– Niyə "hələ", a atası ölmüş? – soruşdu buğa.

– Ermənilərin yanından gələndə bilərsən.

– Niyə aparırsan məni ora?

– Burdurmağa.

– O nə deməkdir?

– Axtalayacağam səni. İndi buğasan, geri öküz dönəcəksən.

– Niyə axtalamaq istəyirsən məni?

– Qüvvən birə on artacaq.

– O qüvvə mənim nəyimə gərəkdir axtalanandan sonra?

– Sənə yox, işə gərəkdir. Səni arabaya qoşub odun daşıyacağam Yevlaxdan Xaldana.

– Bə niyə Yevlaxdan Xaldana?

– Nə bilim, bəlkə, Xaldandan Yevlaxa. Yeri, gün qalxır, istiyə düşməyək.

Buğa susdu, amma yerişini dəyişə bilmədi. Nəsə fikirləşirdi öz aləminə gedib.

– Bəri bax, a atası ölmüş, beləcə qoşa bilməzsənmi məni o araba dediyin zəhrimara?

– Qoşaram, di gəl araba hər gün yolundan çıxar. Bayaq o ala inəyi görəndə bu gendə yoldan çıxmışdın.

– Nədi, axtalanandan sonra kormu olacağam?

– Niyə kor olursan, ə? Di gəl, gözün ala inəyi görməyəcək.

– Bəs nə görəcəyəm mən, a atası ölmüş yetim?

– Yol, – dedi oğul.

Atası ölmüş oğulla kitabı bağlanan buğa az gedib, çox gedib yetdilər erməninin evinə. Qapısına girdilər. Bir stəkan çay içib hal-əhval tutandan sonra erməni buğanı böyürtdü, nə böyürtdü. Haqq da almadı.

– Sənin rəhmətlik atanla biz duz-çörək kəsmişik, – dedi.

Atası rəhmətlik olmuş oğul, öküz olmuş buğasını qabağına salıb yola çıxdı. Gün dəri yandıran yerində idi. Nə oğlan dillənirdi, nə heyvan. Qarasunun böyründən ötüb kəndə burulan yola dönəndə oğul hirsli-hirsli bağırdı:

– Ə, niyə dillənmirsən, dilini ha kəsdirmədik!

– Yola baxıram, a atası ölmüş yetim. Ömrümüz öküz yoluymuş, yol qırağında duran bir inəyə baş qaldırıb baxammayacam. Çünkü öküzük, buğalığımızı burub, əlimizdən alıblar. Axtalanıb, axta yaşayı-

rıq. Axta yeyirik, axta gəzirik, axta düşünürük. Axta-axta yol gedirik axtalanmış yuxuların tozunu qoşulduğumuz arabanın təkəriylə qaldıra-qaldıra, – dedi öküz.

## Ballıca

Ballıca o boyda sürünün içində çaşıb qalmışdı. Nə ağız-ağıza verib mələşməyə, nə də sazaqda, ayazda burun-buruna girib isişməyə özünə tay tapa bilmirdi. Yataqda da, günün altında da , bulut kölgəsində də tək-tənha idi. Neçə dəfə dərdini açıb çobanın özünə də demişdi, di gəl o yekəlikdə çomaqlı insan da Ballıcanın sözlərinə qulaq asıb, beşillik qoyunu ongünlük quzu kimi oxşayıb, üstündən ağzına bir tikə şəkər soxub varıb getmişdi öz işgücünə...

– Az, mənimlə niyə mələşmirsən, ağız ağıza verib? – soruşurdu Ballıca bir qoyundan.

– Sən qoyun deyilsən.

– Necə yəni qoyun deyiləm? Qoyun deyiləmsə, niyə sizinlə bir qışda arana, yayda dağa gedirəm? Niyə siz otlayanı mən də otlayıram, siz köpən yoncadan mən də köpürəm?

– Qoyunun adı olmaz. İtin, atın, inəyin adı olar. Sənin də adın var, –dedi qoyun.

– Bu adı mən otların arasından tapmışammı? Yoxsa itdən, atdan, inəkdən əl borcu almışam? Bu

adı mənə o çoban qoyub. Əgər mən qoyun deyiləmsə, niyə o çobanın özü məni də sizə qatıb otarır?

Qoyun bir az fikrə gedib Ballıcaya dedi:

– Yaxşı, qoyunsansa bu sürüdən bir quzu çağır, görək səsinə səs verib yanına gəlirmi?

– Mənim quzum yoxdur, – dedi Ballıca.

– Niyə?

– Qoçlar məni minmir.

– Qoyun olsaydın minərdilər, – deyib qoyun Ballıcadan aralandı.

Ballıcanın bu söhbəti də kəsildi. Yenə qaldı təkbaşına. Kənarda dayanıb qabaq ayağını yerə vura-vura nədənsə xuylanıb uzağa baxan qoçu gördü. Görəsən, kim dəymişdi qoçun gözünə, ya nəm burnu kimin iyini uzaqdan çəkib gətirmişdi?

Ballıcanın nə burnuna, nə gözünə bir şey dəymədi. Çünkü bütün fikri-zikri ancaq adında idi. Gözü nə məsafə görürdü, nə də qorxu.

İldə iki-üç dəfə, quyruğunun altı yağlananda, ayaqları özü Ballıcanı qoçlara sarı çəkib aparırdı. Yanaşdığı qoçun burnuna onun qoxusu dəyən kimi qoçun gözləri bərəlirdi, üst dodağı qalxıb tarım çəkilirdi, dişləri açılırdı. Ancaq qoç gələnin Ballıca olduğunu görüb, boşalırdı, bərkdən fınxırıb heç bir şey olmamış kimi təzədən otlamağa başlayırdı. Ballıca yenə də qalırdı təkbaşına. Gözləri sürünün tapdığı otlarda, beli qoç ağırlığı həsrətində. Belə

vaxtlarda Ballıca dünyaya gələn gününü söyürdü. Anasının onu doğarkən bağırdığı gecəni söyürdü. Tərs gəlirdi Ballıca. Dal ayaqları ilə qabağa. Ancaq anasının içinə ağzından tünd araq iyi gələn çobanın qatı sabunlanmış əli girdi, Ballıcanı birtəhər çevirib gecəyə çıxardı. Atdı tapdanıb bulanmış samanın, otun qoxusuna. Sonra səhər çobanlar, uşaqlar yatağa girib quzuları saymağa başladılar.

– Ayə, gecə tərs gələn quzu bu idi. Vaxtında yetməsəydik, murdar olacaqdı.

– Nə göyçək dərisi var, baxsan. Lap bal rəngindədi.

Ballıcanın adı belə qoyulmuşdu. Bəlkə də, beli elə əvvəldən belə qırılmışdı.

Ömrünün altıncı ili gələndə Ballıca günlərin bir günündə təpənin üstünə qalxdı. Gördü ki, uzaqda başqa bir qoyun sürüsü otlayır. Fağırın ürəyi döyünməyə başladı. Yan-yövrəsinə baxdı. Öz sürüsünün itləri hərəsi özünü bir yulğun altına verib mürgü vururdular. Ballıca itlərdən qorxmurdu. Çünkü onlar da Ballıcanın adı olduğunu bilirdilər, onu sürüdən aralananda hürə-hürə yox, pəsdən mırıldaya-mırıldaya geri qaytarırdılar.

Ballıca əvvəlcə yavaş-yavaş, sonra yeyin-yeyin o biri sürüyə tərəf ayaq açdı. Gedə-gedə fikirləşirdi ki, o sürüyə yetib özünü yad quzuların arasında itirib batıracaq. Əmin idi ki, o sürüdə onun adlı qoyun olduğunu bilən olmaz.

Ballıcanın ürəyi həm sevincdən, həm də qorxudan döyünürdü. O, bir-iki təpə aşıb yad sürünün saldığı cığıra düşdü. Bir az getmişdi ki, gördü üstünə it gəlir. Ballıca dayanıb mələdi. Bu it də hürmürdü. Ancaq mırıldamırdı da. O, Ballıcaya əlli-altmış addım qalmış ayaq saxladı, sonra birdən-birə ona tərəf şığıdı. Yanaşıb sinəsini gərdi, ayaqlarını yerdən üzüb Ballıcanın üstünə sıçradı. Vurub yerə yıxdı.

– Şükür Allaha, bu it mənim adlı olduğumu bilmir. Düşünə-düşünə Ballıca birtəhər ayaqları üstə qalxdı. Elə o an bir zərbə də dəydi ona. Və bu ikinci zərbə ona dəyən anda Ballıca itin dişlərini gördü. Aman Allah, itə yaman oxşasa da, bu, it ağzı, it dişləri deyildi. Qabaq iri dişləri görünürdü ancaq, xırda dişləri elə bil damağına batmışdı. Ballıca sürüdə hər gün qurd haqqında düşən söhbətləri xatırladı. Ayağa qalxıb qurdamı, itəmi adını demək istədi, ancaq boğazına nə isə oldu birdən-birə. Bu, ağrı idi.

# Tut ağacında şinəbub yuvası

Bu tut ağacını unutmayıb yadından çıxartmayanlar araq içəndə dəliyə dönürlər. Çünkü bu tut ağacı camaatı iki dünya savaşının, iki erməni-müsəlman davasının, bir də ən azı qırx-əlli quraqlığın aclığından qurtarıb. Bahar sonu yay əvvəli ətli-şirəli meyvəsiylə, payızda-qışda qurusu, bəhməzi ilə. Bir də bu dağlarda bitmiş (Allah bilir, kim əkib onu) tut ağacı arandan erməni çörəyi, buğda gətirib həmişə. Yayda taxıla dəyişiblər tutun varını-yoxunu, qışda qurusunu, bəhməzini. Erməni yayın axırında da gəlib tutun hüzuruna. Bir kisə un verib ağac yiyəsinə, ağacdan yerə tökülüb, torpaq üstə çürüyən tutları bir-bir yığıb, arana aparıb. Orada araq çəkib tutdan – tut arağı. Qış gələndə, qar kəsəndə gedib-gələn yolları, şaxta qapıya hər iki tərəfdən qıfıl vuranda, erməni çıraq yandırıb evində, tut arağı içə-içə ağlayıb, ağlaya-ağlaya da bir nəğmə deyib erməni dilində. Nəğmənin sözlərini bilmirəm, erməni dilini bilmədiyimçin. Bilsəydim, mən də oxuyardım qar düşsəydi Bakıya bu qış. Və araq içərdim. Bilə-bilə

ki, dəliyə dönür o tut ağacını unutmayanlar araq içəndə...

Amma bir gün gəldi ki, bir şinəbub gəlib yuva saldı özünə o tut ağacında.

– Ay uşaqlar, bu dimdiyindən pox daman, murdarlayacaq tut ağacını. Neyləyək?– dedi tut ağacının yiyəsi, altı oğul iki qız atası.

– Ay dədə, onun yuvasına əl vursaq, iyi keçər bizə. Sonra nə mehrəkəyə, nə bazara çıxa bilərik, – dedi oğul balalar.

– Ay dədə, şinəbub yuvasına ilişsək, bizi alan olmaz. Qız qarıyarıq sənin evində qalıb, – dedi qız balalar.

Ev yiyəsi arvadını hayladı:

– Az, nərdivan qoy, qalx o murdarın yuvasını dağıt.

Arvad dilləndi:

– Quşu tüfənglə vur öldür. Yuvası quruyub-quruyub özü düşər yerə.

– Şinəbub öldürmək günahdır, – dedi ev yiyəsi.

– Mən də yuvaya əl vura bilmərəm, – dedi arvad.

– Niyə, ay cehizi bir ələk, bir aşsüzən olan?

– Onun yuvasına əl vurub, sənə təndirdə çörək yapsam yeyərsənmi?

– Yox, it qızı, – dedi ev yiyəsi.

– Onun yuvasına əl vurandan sonra qoyarsanmı dalınnan su atım sən səfərə çıxanda?

– Yox, it qızı, – dedi ev yiyəsi.

– Onun yuvası ilə iylənmiş əllərimlə qoyarsanmı axşamlar ayaqlarını yuyum?

–Yox, it qızı, it, – dedi tut yiyəsi.

– Şinəbub qoxuyan əllərimlə razı olarsanmı belindən qucaqlayıb sənə oğul-qız doğum?

– Yox, it qızı, it, – dedi ev yiyəsi.

Hamı kiridi.

– Murdar oldu tut ağacı. Hayıf. Arvad, neyləmişdi ulu babalar ağacından əli üzüləndə?

– Köçüb qürbətə gedərdi ulu babalar, – cavab verdi arvad.

– Qürbətin qapısı bağlı, açarı səndə olmayanda necə, arvad? – soruşdu tut yiyəsi.

Arvad bir söz deməyib evə keçdi. Sonra eşiyə çıxıb, ərinin ayaqlarının altına balta atdı. Sonra başından kəlağayını götürdü, ləçəyini açdı. Sonra saçlarını yaxasına tökdü. Torpağa oturub, əvvəlcə sinəsinə, sonra dizinə vurdu. Və ağlamağa başladı. Tut yiyəsi baltanı qaldırıb, tut ağacının üstünə getdi. Və cəmi iki saatdan sonra tut ağacının yerində tut ağacından qalmış kötük qaldı.

İki saat da keçəndən sonra tutdan qalmış kötük yiyəsinin qapısına qonşusu gəldi.

– Qonşu, bircə günlük mənə ver baltanı – dedi qonşu.

– Xeyir ola? – soruşdu kötük yiyəsi.

– Oduna gedəcəyəm sabah erkən, – dedi qonşu.

Kötük yiyəsi baltanı qonşuya verdi. Və fikirləşdi ki, özünün bu qışa odunu var.

# Tülkü yuvası

Tülkünün bu təzə yuvasının yatağı təxminən iki metrə yaxın dərinlikdə idi. Yer üzünə çıxmağa səkkiz yol açmışdı. Birini lap insan izlərinin iyi ilə dolu olan yolun qırağından. Hər ehtimala qarşı. Çünkü hər canlının yaşamağa, yəni qaçmağa bir neçə yolu olmalıdır. Ölməyə yolsuz, cığırsız da getmək olar.

Tülkü gen, rahat yatağına xeyli siçan, siçovul, hətta bir yaralı dovşan da boğub tədarük yığmışdı. Bu dəfə işini ehtiyatlı tutmuşdu. Öz hesabıyla bir aya yaxın yuvasından işığa çıxmayıb. Gözləri açılana qədər balalarının yanında qala bilərdi. Bilirdi ki, onların gözü bir həftəyə, on günə açılacaq. Bir ay-ay yarımdan sonra daha balalarını yuvada saxlaya bilməyəcəkdi. Onlar eşiyə çıxmağa can atacaqdılar.

Çünkü birinci dəfə boş yuvada doğmuşdu. Gecələr eşiyə çıxıb ovunu eləyir, qarnını birtəhər doyuzdurub geri dönürdü. Uzanıb balalarını əmizdirirdi. Ancaq günlərin bir günü onu güdüb belindən yaraladılar. Xoşbaxtlıqdan ovçunun tüfəngin mizili uzaq, qırması xırda idi. Ancaq yaralı tülkü yuvasına girib balalarını əmizdirməkçin yataqda uzananda

balalarından biri də məmələrə yaxın durmadı. Hamısı daraşdı ananın yarasından daman qanı əmməyə. Tülkü balalarını bir-bir boğub, eşiyə çıxdı.

Tülkü bu gün-sabah doğacağı balalarının atasıyla fevralın əvvəlində görüşmüşdü. İndi o gündən təxminən iki ay keçirdi. Odur, tülkü yataqda uzanıb balalarının dünyaya gəlməsini gözləyirdi. Rahat nəfəs ala-ala. Ürəyi onunçun sakit idi ki, axırıncı dəfə yuvaya girəndə göydən sel kimi yağırdı. O da indi bilirdi ki, yağış onun bütün yer üzündə qalan izlərini yuyub aparıb, qoxusunu öldürüb. Nəfəs almağa hava da bol idi. Tülkünün qazıb açdığı səkkiz yuva yolunun səkkizindən də yataq yeri yel çəkirdi. Özü də əməlli-başlı. Bundan qabaq tülkünün heç belə yaxşı yuvası olmamışdı.

Sözümü yaman uzadıram, deyəsən. Axır ki, vaxtı çatanda, insan əzabımı deyim, heyvan əzabımı deyim, xülasə, min bir əzab, min bir zülmlə, gözündən yaş tökə-tökə tülkü dünyaya altı bala gətirdi. Altısı da dişsiz, gözləri bağlı, tünd qəhvəyi dəriylə örtülü, quyruqları hələlik nazik. Tülkü balalarını da, məmələrini də saydı. İki məməsi artıq idi. Ancaq iki üst məməsi südlə dolmamışdı, bomboş idi. Kor balaları bu qaranlıq yuvada elə bil analarından min qat yaxşı görürdülər. Birinin də burnu südsüz məməyə dəymədi. Hər bala özünə bir dolu məmə seçib, dünyaya "gəlmişik" dedilər. Başladılar analarını əmməyə.

Bir həftə iki gün keçən kimi balacaların gözü açıldı. Açıldı deyəndə hələlik elə belə, görmək üçün yox, yuvanın qaranlığına açıldı tülkü balalarının gözü. Gün işığına çıxmalarına hələ bir aya yaxın vaxt qalırdı.

Gün gəldi, ana tülkü bir dəfə balalarını əmizdirəndə altı məməsinin altısı da sancıdı.

– Balaların dişi çıxır, – dedi ana tülkü.

Sonra doğduğu bəndələri doyuzdurub kənara itələdi, ayaqları üstə qalxıb, yatağın küncünə yanaşdı. Gördü ki, irəlidən yığdığı ruzu da sona yetir.

Tam qaranlıqda olsa da, bilirdi ki, indi eşiyə çıxmaq olmaz, çünkü yuvanın üstü indi gündüz idi. Odur, ana tülkü olanından-qalanından bir az yeyib, elə yediyi yerdəcə uzandı. Mürgü vura-vura düşündü ki, balalarını bu gün-sabah yuvadan çıxarıb, yavaş-yavaş ov eləməyə, öldürməyə və ovlanmayıb, ölməməyə öyrətməlidir. Sonra yuxuya getdi və yuxuda heç bir şey görmədi. Üç-dörd saatdan sonra oyanıb ayağa qalxdı, ehmallıca bir-birinə qarışıb yatan balalarının üstündən keçib, çıxış yolundan birinə girdi. Eşiyə tərəf sürünməyə başladı. Arada dayanıb təəccüblə irəli baxdı. Gecənin nə iyi gəlirdi, nə tutqun işığı, nə qarışıq səsi. Heç bir şey anlamayıb təzədən irəlilədi. Axır ki, burnu daş kimi bir şeyə dirəndi. Yuvanın bu ağzı nə iləsə möhkəmcə tutulmuşdu. Tülkü irəli pəncə atdı. Dırnaqlarının yeri ağrıdan göynədi. Bildi ki, yolunu kəsən şeyi qaza bil-

məyəcək. Daldalı sürünə-sürünə geri qayıtdı. Balaları sakitcə yatırdılar. Ana tülkü nəfəsini gərib, azacıq dincini aldı. Sonra başqa çıxış yoluna soxdu özünü. Onun da axırında nə səs var idi, nə işıq. Bu səfər tülkü qabağını kəsən daşı qazımağa başladı. Dırnaqları qanayana qədər. Bir şey çıxmadı. O, geri dönüb yataqda uzandı, qana bulaşmış pəncələrini yaladı.

Altı çıxış yolu qalırdı. Tülkü onların hamısını bir-bir yoxladı. Yuvası hər tərəfdən tutulmuşdu. Dünyadan xəbərsiz balaları özləri üçün yatırdılar. Yatağın küncündə bir az ət qalmışdı. Tülkü onu yeyib, yuvanın yollarından birinə girdi. Torpağı yuxarıya sarı qazımağa başladı. Üz-gözünə narın, yumşaq qum töküldü. Tülkü elə təzəcə sevinməyə başlamışdı ki, dırnağı yenə daşa dəydi. Və tülkü başa düşdü ki, yuvanın təkcə yolları yox, başdan-başa bütün üstü tutulub.

Tülkü geri dönüb yuxudan oyanmış balalarının qabağında uzandı. Məmələrinin ağrısına fikir verməyə-verməyə, fikirləşməyə başladı. Fikirləşirdi ki, yuvadan çıxa bilməsə, özü də, balaları da burada qalıb öləcəklər. Dəri dəyişməyin vaxtı da gəlirdi. Həm yuvada tük töküb çılpaq qalmaq da ölüm deməkdi. Ana tülkünü dərd götürdü. Balalarını doyuzdurub yolların birinə şığıdı. Burnu daşa dəyən kimi, dırnaq ağrısına fikir verməyib, dəli kimi qarşısındakı qaranlığı qazımağa başladı. Və bu zil qaranlıqda da

hiss eləyirdi ki, gözlərinə qan çöküb, bəbəkləri qıpqırmızıdır. Tülkü yorulub əldən-ayaqdan düşüb uzandı. Dincini almaq istədi. Ancaq burada nəfəs almağa hava lap az idi. Odur, tülkü geri, yatağa döndü. Uzandı. Yatdı. Yuxuda qaya üstünə uzanıb özünü günə verən bir koramal gördü. Yavaş-yavaş qarnı yerə dəyə-dəyə dünyadan xəbərsiz koramala sarı sürünürdü ki, məmələrinin ağrısından oyandı. Təngnəfəs idi. Onu əmən balalarının səs-küyünə qulaq asa-asa özünü sakitləşdirməyə çalışdı. Ürəyi rahat oldu, ancaq təngnəfəsliyi keçib getmədi. Tülkü başa düşdü ki, bu gen yataqda da hava azalır. Odur, balalarını yarımçıq əmizdirib, yaxasından kənara atıb, özünü yuvanın bayaqkı yoluna soxdu. Daşa yetib qazımağa başladı.

Ana tülkü dünyada hər bir şeyi unutmuşdu. Hər pəncəsində cəmi iki-üç dırnaq qalmışdı. Dərisi də ayrılmışdı. Ancaq bilmirdi ki, tük dəyişir, yoxsa aclıqdan tük tökür, yoxsa dərisini qazıdığı daş didir?

– Bu nə iş idi gəldi mənim başıma? – deyirdi öz-özünə tülkü.

Neçə gün yataq yerinə də qayıtmırdı. Gözləyirdi ki, balalarından biri, ən zəifi ölsün, gedib onu qalan balalarına yedirtsin, özü də canına bir az qüvvə yığsın.

Hava saat-saat azalırdı. Ana tülkü qan-tər içində yatağa döndü, ayaqlarını aralayıb uzandı. Gözlərini

yumub balalarını səslədi. Ancaq biri də, səsləri gəlsə də, ona yaxın durmadı.

– Yəqin, zəifləyiblər. Bəlkə, aralarında ölən də var, – düşündü tülkü.

Və ayağa qalxıb balalarının səsinə getdi. Hamısını bir-bir iylədi. Balaları sağ-salamat idi. Tülkü onların ayaq üstə durub, dura bilmədiklərini yoxlamaq üçün birinə pəncə atdı. Bala tülkü o an ona pəncə vurdu. Ana tülkü ayaq üstə özünü güclə saxladı. Gözlərinə inana bilmədi. Fikrə getdi. Sonra ağzını açıb balalarından birinin ehtiyatla belindən dişlədi. O an sağ ayağına dörd sümük dişi sancıldı. Ana tülkü ağrıdan zingildəyib geri sıçradı. Yatağın küncündə uzanıb, diliylə sağ ayağının yarasını yoxladı. Balası onu əməlli-başlı dişləmişdi. Tülkü öz qanını yalaya-yalaya köksünü ötürdü. Necə olub, görəsən, balaları əldən-ayaqdan düşüb zəifləməyiblər? Əksinə, əməlli-başlı güc yığıblar? Amma ana tülkü bu haqda çox da fikirləşmədi, çünkü bilirdi ki, onun da, gələcək nəslinin də azadlığı elə bu möcüzədədir, balalarının qola-gücə yetməsində. İndi balaları ona kömək eləsə, yuvanın ağzını tutan o daşı növbəylə qazsalar, hamısı bu qaranlıq, havasız tələdən çıxa bilərlər. Ana tülkü bu ümüdlə gözlərini yumub yuxuya getdi və yuxuda gündüz gördü. Gördü ki, hansısa bir iti iziylə azdırıb, sıx böyürtkənlərin bürkü kölgəsində uzanıb. Yaş, zil qara burnu bir-iki lələyi qalmış dadlı

qırqovul yerinin üstündədir. Xumarlandı ana tülkü. Ancaq gördü ki, qırqovul iyi nə qədər dadlı olsa da, tikanlı böyürtkən kölgəsi bir o qədər isti, bürküdür. Ayağa qalxıb, açıq havaya çıxmaq istədi. Və o saat yuxudan oyandı. Gözləri yatağın havasız qaranlığına açıldı. İndi balalarını başına yığıb, onların köməyiylə buradan çıxmaq arzusuyla döyünürdü ana tülkünün üzülmüş ürəyi.

– Balalarım! – bağırdı ana.

– Nədi, ana? – bir ağızdan dilləndi balalar.

Onların qıvraq səsi sərin su, ılıq qan, təmiz hava kimi yayıldı ana tülkünün canına.

– Gücünüz bundan artıq, dırnaqlarınız, dişləriniz bundan iti olsun, balalarım! – dedi ana tülkü.

– Çox sağ ol, ana! – dedi balalar.

Ana tülkü ara verib, ayağa qalxdı.

– İndi mənim də, özünüzün də taleyi sizdən asılıdır, balalarım. Qulaq asın mənə. Mənim sizi doğub dünyaya gətirməkçin qazdığım bu yuvanın yer üzünə çıxan bütün yolları daşla tutulub. Üstünə də daş döşənib, balalarım. Mən təkbaşına neçə gün, gecənigündüzə, gündüzü-gecəyə qatıb daşı qazdım, ancaq qazıb qurtara bilmədim. Dırnaqlarım sındı, dişlərim töküldü, dərim didildi. İndi sizin növbənizdir. İndi siz o daşı bir-bir, növbəylə, o güclü cavan pəncələrinizin iti dırnaqlarıyla qazmalısınız! – dedi ana tülkü.

– Niyə, ana? – soruşdu balalar bir ağızdan.

– İşığa, yer üzünə çıxmaq üçün, balalarım, – dedi ana.

– İşıq, yer üzü nədi, ana? – soruşdu balalar.

– Mən onları sizə göstərməliyəm. Belə başa sala bilmərəm, balalarım.

– İşığa , yer üzünə bizi niyə çıxarmaq istəyirsən, ana? – soruşdu balalar.

– Yaşamaq üçün, balalarım, – cavab verdi ana.

– Yaşamaq nədi, ana?

– Nəfəs almaq!

– Biz nəfəs alırıq, ana.

Ana tülkü qulaq verdi. Və balalarının rahat nəfəsi dəydi qulaqlarına.

– Yemək üçün! – bağırdı ana tülkü. – Burada qalsaq, acından öləcəyik!

– Biz yeyirik, ana! – dedi balalar.

– Nə yeyirsiniz? – soruşdu ana tülkü.

– Bax bunu, – dedi balalar.

– Nəyi?

Balalardan biri onun qabağına ağzından nə isə atdı. Ana tülkü balasının gətirdiyini iyləyib geri sıçradı!

– Bunu yemək olmaz! – qışqırdı.

– Niyə, ana?

– Bu, torpaqdı! Canlı torpaq yeyirik, ana.

– Siz qan içməlisiniz, ət yeməlisiniz, sümük gəmirməlisiniz, balalarım! –bağırdı ana.

– Niyə, ana? – soruşdu balalar.

– Yaşamaq üçün, – dedi ağlaya-ağlaya ana.

– Biz yaşayırıq, ana, – dedi balalar.

# Maral

O gün maral gözlərini açıb ayağa qalxanda hiss elədi ki, nə isə birtəhərdir. Ayaqlarının altı da, ətraf da qarla dolu olsa da, havada bir dəyişiklik var. Bundan başqa, maralın sinəsi daşa dönmüşdü, bütün bədənində bir küt ağrı varıydı. Bir də nəfəsi həmişəkindən qat-qat istiydi. Bir də maral özünə gendən baxa bilsəydi, görərdi ki, gözləri qanla dolub.

Maral qarşısındakı vələsə yaxınlaşıb boynunu aşağı əydi, buynuzlarını ağacın gövdəsinə dirəyib, güc gəldi. Başını yuxarı qaldırıb, geri çəkildi. Başa düşdü ki, tarıma çəkilmiş canını buynuz itiləməklə boşalda bilməyəcək. Qanrılıb arxasına baxdı. Gözünə bir şey dəymədi. Həmişəki kimi bir boğuq səslə böyürmək istədi, ancaq ağzını açan kimi boğazından zil şeypur səsi çıxdı. Maral başa düşdü ki, bahar gəlib. O, bir də zildən böyürdü. Səsinə hay verən olmadı. Maral qulaqlarını şəklədi, yaş, qara burnunu qaldırıb, xəfif bir yel tutdu və onu yara-yara yeriməyə başladı. Top palıdlığa girəndə dayandı. Burnuna iy dəydi. O, birbaşa gövdəli bir palıdın üstünə getdi. Üst dodağı qalxdı, burun deşikləri genəlib ta-

rıma çəkildi. Dişi maral bu palıda sürtmüşdü özünü. Maral durduğu yerdəcə yorğaladı. Sonra top palıdlıqdan keçib, qarla örtülü düzənliyə çıxdı. Yayda meşəbəyi öz inəyini, qoyunlarını burada otarardı. Sonra buranın son otunu biçib iki taya qoyardı.

Maral düzü örtmüş qarın üstündə gecə ayazından donmuş təzə canavar izləri gördü. Sağ qabaq ayağı qeyri-ixtiyari beş-on dəfə qalxıb yeri döysə də, maralın canına qorxu dolmadı, sinə dərisi əsmədi, belinə üşütmə gəlmədi. Maral başını yuxarı qaldırıb, burnunu yelə tuta-tuta zoğallığa sarı getməyə başladı. O, ehtiyatını tamam itirmişdi, heç nədən qorxmurdu. Gözünə bir qaraltı da dəymirdi. Burnu ancaq dişi maralın iyini çəkə bilirdi. O, özünü baharın ixtiyarına vermişdi. Maral həyatın yeganə həqiqətini – ölümü yadından çıxarmışdı. Özü də dik yuxarı gedirdi maral. Meşənin indiki çağında isə yem aşağıda, dağ ətəklərində idi. Yuxarıların qarı hələ altdan əriyirdi, keçən ilin çürümüş xəzəlinin üstündən. Maralın dırnaqları arabir sürüşürdü də...

Ləzgi Sədrəddin kişiylə şəhərdən gələn qonaq tüfənglərini ayağa verib marığda durmuşdular. Maralı vaxtaşırı meşəni bürüyən şeypur səsi yavaş-yavaş onlara yaxınlaşdırırdı.

– Müəllim, qüzüva hayla, temiz hayvan gələvar, – dedi Sədrəddin kişi.

– Eşidirəm, – dedi qonaq.

– Müəllim, belindən vur, murdar olmasın hayvan.

– Oldu, – dedi qonaq.

Və ağacların arasından çıxan maralın sinəsinə qıydı gözlərini, tüfəngin ucunu da elə marıtladığı nöqtəyə yönəltdi. Nəfəsini saxlayıb, yavaş-yavaş tətiyi çəkməyə başladı. Meşənin qulağına elə bil ki, sillə dəydi. Aləm cingildədi. Maral ayaq üstə qalsa da, qonaq ikinci lülənin tətiyinə barmağını qoymadı.

– Ut köki üstə bitər! Halal ulsun sənə! – bağırdı Sədrəddin kişi.

Ovçular ayağa qalxanda yıxıldı maral yerə ancaq. Əvvəlcə qabaq ayaqları boşaldı sonra bütün bədəni taqətdən düşdü. Sağ böyrü üstə yıxıldı. Azacıq yerində yırğalandı.

Ancaq şəhərdən gələn qonaqla Sədrəddin kişi marala yaxınlaşmadılar. Çünkü qulaqları hələ başına sıxılmışdı. Belə anda yaralı heyvana yaxın durmaq xatadır.

– Müəllim, birini də at, – dedi Sədrəddin kişi.

– Yox, qoy qanı axsın, sonra başını kəsərsən, – dedi qonaq.

– Rəhmətlik atan da elə deyərdi. Allah rəhmət eləsin una. Başını gərək özün kəsəsən.

– Bilirəm. Allah ölənlərinə rəhmət eləsin, Sədrəddin kişi.

– Allah bu təmiz hayvana da rəhmət eləsin! – gülümsündü Sədrəddin kişi.

– Təmiz hayvan hələ ölməyib, – dedi qonaq.

– Diriyə də rəhmət var, – dedi ləzgi.

Tüfəngin səsinə aşağıda qalanlar qalxıb gəldilər.

– Kim vurdu? – soruşdu Bilal əmi.

– Qardaşoğlun, yoldaş Madatov, – dedi Sədrəddin kişi.

Bilal əmi qonağın başını əlləri arasına alıb, alnından öpdü.

– Halal olsun sənə atanın adı, – dedi.

Sonra yaşaran gözlərini sildi. Yadına, yəqin ki, dostu, qonağın atası düşdü. Maral ölməmişdi. Ağır, ancaq nədənsə rahat nəfəs alırdı. Gözlərində də nə heyrət görünürdü, nə qorxu. Heyvan sakit idi. Açıq yarasından daha qan gəlmirdi. Yarası laxtalanmış qara və qanla boyanmış torpaqla bağlanmışdı.

Sədrəddin kişi belindən yaşı bilinməyən, di gəl illər uzunu köhnəlməyən, işləndikcə koruşlanmayan Amuzqa xancalını çıxarıb qonağa uzatdı.

– Müəllim, biz buynuzlarından, ayaqlarından tutaq, sən başını kəs, – dedi Sədrəddin kişi.

Qonaq xancalı götürdü.

– Oğul, bu maralı mənə halal elə. Sağ qalsa, sənin yadigarın olar mənə, – dedi Bilal əmi.

Qonağın çiynindən elə bil dağ düşdü.

– Qurbandı, Bilal əmi, – dedi qonaq.

Maralın ilməylə əl-ayağını bağlayıb, arabaya yüklədilər, kəndə gətirib, həyətə atdılar. Dövrəsinə çə-

pər hördülər, qabağına ot, su qoyub, ilmənin düyünlərini açdılar. Sonra çəpəri möhkəm bağlayıb evə keçdilər. Bilal əmi qonaqlıq verdi.

Axşamüstü qonağı yola salanda onun maşınına Qazaxda toxunmuş bir Karvansara gəvəsi qoydu Bilal əmi.

Qonaq yolunu Bakıya Şəkidən saldı. Şəkidə sərxoş olub gəvəni bir dostu diş həkiminə bağışladı. Dostu da onun cibinə bir qızıl onluq qoydu. Bakıya gələnə kimi qızıl onluq sərxoş qonağın cibindən düşüb, Allah bilir, hansı yolqırağı yeməkxananın bufetinə daraşan adamlardan birinə qismət oldu...

Maral kəfənini yırtdı. Beş-on gündən sonra ayağa qalxdı. Bilal kişi ağıllı tərpənib, yaralı heyvanın üstünə kolxozun baytarını yaxın qoymamışdı. Maralı tapşırmışdı öz dilinin əlacına. Heyvan yarasını yalaya-yalaya özünü ölümdən qurtarmışdı. İndi başını aşağı salıb yüz ilin inəyi kimi ot yeyib kövşəyirdi. Ancaq Bilal əmi qoymurdu ki, bir adam da çəpərdən aşıb marala yaxın dursun. Dünyagörmüş adam idi, bilirdi ki, insan böyründə dünyaya göz açıb böyüsə də, çöl heyvanı heç bir vaxt ev heyvanına dönmür, əvvəl-axır yadına kim olduğu düşür. Geci-tezi var. O ki qaldı buna, meşədə böyüyüb, neçə dəfə buynuz salıb, buynuz çıxarmış canlı, gücü yerə-göyə sığmayan bir heyvana. Bilal əmi maralın gözəlliyinə vurğun idi, ancaq ona bir damcı da etibarı yox idi. Düz də eləyirdi.

– Ay Bilal əmi, vallah, sən bunu səhər naxıra qat, inəklə, camışla bir gedib, bir qayıdacaq. Niyə yazıq heyvanı dustaq eləmisən? – deyirdi camaat.

– Belə buynuzlar mal sürüsündə qalmaz. Çoban qabağında səndəlməz bu dırnaqlar, – deyirdi Bilal əmi.

Maralın tamaşasına rayon mərkəzindən də gəlirdi adamlar. Bir dəfə Macarıstandan gələn qonaqları da gətirmişdi buraya rayonun birinci katibi. Bilal əmi evinin qonaq otağının divarından, sallanan xovlu xalının üstündəki dostunun şəklinin böyründən dostunun oğlunun da şəklini vurmuşdu. Və maraldan söhbət düşəndə fəxrlə həmin fotoşəkli göstərirdi ağır-ağır, amma sinə dolusu danışa-danışa. Deməsə də, Bilal əmini bircə məsələ dilxor eləyirdi, o da dostunun oğlunun gözü eynəkli olmağı idi. Bilal kişi içində bir az buna görə qonaqlardan utanırdı da. Odur, sözarası qonaqlarına deyirdi:

– Nə qədər deyirəm bu qardaşoğluna az kitab oxu, az oxu, gözlərini lap korlayarsan.Sözümə qulaq asmır. Asmır ki, asmır. Amma tüfəng atmağına söz yoxdu! Ot kökü üstə bitər.

Sonra cibindən dəsmal çıxarıb, Bilal əmi gözlərinə dolan yaşı silərdi.

– Allah rəhmət eləsin, hamımızın fəxri idi. Allah rəhmət eləsin, – deyərdi qonaqlar.

Bir dəfə raykomun birinci katibi Bilal əminin yanına xəlvəti adam göndərmişdi.

– Bilal əmi, katibi Bakıya, Mərkəzi Komitəyə çağırıblar, əliboş getmək istəmir. Dağlara ovçu salmışdıq, sürüdən heyvan çıxmadı. Maralın ətini istəyir, – demişdi birinci katibin adamı.

– Get u uğraşa de ki, mənim həyətimdəki maral, maral əti deyil, dustumun ruhudur, uğlu bağışlayıb mənə. Mənim dustumun ruhunu bir Bakı uğraşı yeyə bilməz! – demişdi Bilal əmi.

Və iti qovan kimi qovmuşdu qapısından katibin adamını. Sonra maralın qabağına bir ovuc tumu çıxarılmış İran xurması atmışdı. Və o gecə Bilal əmi yuxusunda görmüşdü ki, Şeyx Şamil bir ac ayının belində oturub gümüş camdan bulaq suyu içir. Qoca ləzgi arvadları da ona baxıb ağlayırlar.

– Aydınlığadır. Su aydınlığadır, – düşünmüşdü Bilal əmi yuxudan qalxıb geyinəndə. Amma düz yozmamışdı yuxusunu kişi...

Üstündən bir neçə gün sonra yerdə ikigünlük qar qalanda, maralın çəpəri böyründə dayanıb, burnunda donmuş fırtığını üst dodağından yalaya-yalaya Bilal əminin yeganə oğul nəvəsi Şamil yenə də fikrə dalmışdı. Bu heyvan çəpərə salınan gündən uşağın gecəsi də, gündüzü də bir sonsuz ılıq yuxuya dönmüşdü. Nə görürdü uşaq? Görürdü ki, cibini arpayla doldurub, gecə hamı yatandan sonra həyətə çıxır, gəlib yavaş-yavaş çəpəri aralayır. Marala yaxınlaşır. Ovcundan ona arpa verir, sonra maralın boynunu oxşayır. Maral da onun üzünü yalayır. Sonra

ikisi də çəpərdən kəndin içinə çıxırlar. Aram-aram, ehtiyatla addım ata-ata uzaqda qaralan meşəyə sarı gedirlər. Xoşbaxtlıqdan kəndin bir iti də ayıq düşüb hürmür. Oğlan maralı meşənin ağzına kimi gətirir, burada da ona bir ovuc cibində isinmiş arpa verir. Maral arpanı yeyib meşənin içinə girir, ağacların arasında yox olur. Sonra günlərin bir günündə oğlan məktəbdə oturub imla yazanda kimsə sinfin pəncərəsini döyür. Hamı baxıb görür ki, pəncərənin qabağında maral dayanıb. Başıyla oğlanı çağırır. Oğlan həyətə çıxıb maralla görüşür, ona arpa verir, boynunu oxşayır, heyvan da onu yalayır. Bütün uşaqların və müəllimlərin gözləri kəlləsinə çıxır. Maral çıxıb gedəndən sonra qabaq partada oturan Aynur adında hörüklü qız oğlana yanaşır deyir:

– Mən sənin arvadın olacağam, Şamil.

Oğlan fikrində-zikrində hər gün, hər dəqiqə bu səhnələri görürdü...

Və günlərin bir günündə Şamil fikirlərindən təngə gəlib bezikdi. Özü də elə bir gündə ki, kənddə toy idi. Evin arvadı da, kişisi də toyxanada idilər. Maralsa həyətdə uzanıb, yediyi otu gövşəyirdi.

Şamil özünə evin dalındakı ambarda əli torbadan arpa götürəndə gəldi. Ürəyi sevincdən titrəyə-titrəyə cibinə arpa doldurub həyətə çıxdı. Çəpərə yanaşdı. Maral iri, qara məxmər gözləri ilə ona baxa-baxa sakitcə gövşəyirdi.

– Maral, maral! – çağırdı onu oğlan astadan.

Maral qabaq ayaqlarına dirsəklənib, qalxmaq istədi, amma nədənsə fikrindən döndü. Təzədən uzanıb gövşəməyə başladı. Gözlərini Şamildən çəkdi. Oğlan çəpərin bağlanan yerindəki kəndirin düyününü açmağa başladı. Birtəhər Sədrəddin kişinin var-yoxunu söyə-söyə kəndiri çəpərin payasından ayırdı. Maral öz yerindən tərpənmirdi. Oğlan onun yarpağın tökmüş payız ağaclarına bənzəyən buynuzlarına baxa-baxa çəpəri araladı. Aralıqda dayanıb marala baxdı. Əlini cibinə salıb bir ovuc arpa çıxardı, marala sarı uzatdı.

– Maral, gəl, gəl ye, – dedi.

Maral ayağa qalxıb dayandı. Qabaq ayağını beş-altı dəfə yerə vurdu. Sonra xoylanmış kimi arxaya sıçradı. Dayandı. Burnunun pərələri aralandı. Şamil ovcundakı arpanı ehtiyatla tuta-tuta bir addım irəli atdı. Və bu anda maral onun üstünə şığıyıb başın aşağı əydi. Uşaq havada bircə an görünüb çəpərin payalarının üstünə düşdü. Üzüquylu. Maral yerində fırlanıb, kənddən yuxarı, meşəyə sarı şığıdı.

Uşaq son anda da bilmədi ki, maral kimi belə bir qüvvəni tutmaq təhlükəli olduğu kimi, ona azadlıq vermək ondan ikiqat təhlükəlidir.

Yeganə oğul nəvənin meyiti üstə qonan ağlaşmanı kaş qulaq eşitməyəydi. Müsibət idi.

Uşaq basdırıldı. Camaat dağlışandan sonra, dərddən beli qırılmış Bilal əmini birtəhər yorğan-döşəyə uzatdılar. Və gözlərini yumanda Bilal əminin yadına

o gecə gördüyü yuxu düşdü. Suyu haqlı olaraq aydınlığa yozmuşdu. At da ki, muraddır.

– Bəs bu nə müsibət idi gəldi mənim başıma? – soruşurdu otağın qaranlığından Bilal əmi. Və birdən yadına düşdü ki, Şeyx Şamil ağ ayğır belində oturub, gümüş camdan bulaq suyu içəndə gendə dayanan qoca ləzgi arvadları ona baxıb ağlayırdılar.

# Qartal kölgəsi

Məhəmməd Alıdan soruşdu:

– Ayə, gördünmü?

– Gördün də, sözdümü? – cavab verdi Alı.

Sonra başını yuxarı qaldırıb tərtəmiz, bir-iki seyrək ağ bulutlu açıq göy üzünə baxıb yerə tüpürdü.

– Nə deməkdi bu, ay Məhəmməd? – soruşdu Alı.

– Allah bilir, – dedi Məhəmməd.

– Özümüz cəhənnəm, qoyuna bir şey olmasın, – dedi Məhəmməd.

Sürü dəstələrə dağılıb, beş-beş, on-on seyrək yulğunların qotur, etibarsız kölgəsində guya günorta istisindən yaxa qurtarırdılar. Qoyunların hamısı qırxılmışdı, odur, yun itirib indi çılpaq canları ilə qızmar günəşin altında yanırdılar. Allah onlara qışın sazağından da, yayın odundan da qorunmaq üçün yun vermişdi. Xoşbaxtlıqdan qoyunlar bunu bilmirdilər. Bilsəydilər, neyləyəcəkdilər? Kökləri yer üzündən kəsilən günə kimi qırxılacaqdılar.

– Mənim adım nədi, a Məhəmməd? – soruşdu birdən-birə Alı.

– Alı, – dedi Məhəmməd.

– Yenə yadımdan çıxmışdı, – dedi Alı, başını bulaya-bulaya.

– İstidəndi. Bir də sən o “moskviçi” hökmən al. Bax o qara qoçu da, doğuzdursan, sana “Volqa” verməyəcəklər. İspolkom bilir “Volqa”nı kimə, neçəyə vermək lazımdır, – dedi Məhəmməd.

Alı yerə tüpürdü. Sonra ayağa qalxıb, kəmərini belindən aça-aça simpilliyə[1] girdi.

Məhəmməd gözünü ucsuz-bucaqsız şoranlığın tozdan rəngi bozarmış yovşanına zilləmişdi. Bilmirdi qoyunların ciyərinə yara-xora salan buranın yovşanıdı, ya şor suyu.

– Ay Alı, heyvanın ciyərinə yaranı yovşan salır, ya buranın suyu? – bağırdı Məhəmməd.

– Ə, adam balasısan, – dilləndi simpillikdən Alı.

– Nədi, orda namazmı qılırsan? – soruşdu Məhəmməd.

– Canına dua eləyirəm, – dedi Alı, sonra, deyəsən, qabağına tüpürdü.

Qoyunlar yulğunların altından bir-bir çıxıb, düzə dağılırdılar, otlaya-otlaya.

– Ə, heyvan axşamın gəlməyini adamdan tez duyur. İsti çəkilməsə də, –dedi Alı, kəmərini bağlaya-bağlaya simpillikdən çıxıb.

---

[1] Kol-kos olan yer – Red.

– Neynirdin orda, a Alı? – gülümsünüb, soruşdu Məhəmməd.

– Dədənə heykəl qoyurdum. Get, bax, – dedi Alı.

– Və öz sözünə, hazırcavablığına gülmək istəyirdi ki, düz boyu sürünən kölgəni gördü.

– Ayə, yenə gəlir, a Məhəmməd, – dedi Alı.

– Sən göyə bax, mən yerə! – bağırdı Məhəmməd.

Alı gözlərini açıq, gömgöy səmaya zillədi. Başının üstə Allahın sərçəsi də, iynədoğanı da uçmurdu. Üfüqdən-üfüqə kimi göy üzü bomboş, bulutsuz, qanadsız, açıq idi.

Məhəmməd iri, aydın qartal kölgəsini itib, yox olana qədər gözləriylə izlədi. Sonra üzünü Alıya tutdu.

– Bu nədi, ay Alı? – soruşdu Məhəmməd.

– Ayə, adam dəli ola bilər, dədənin goru haqqı! – dedi Alı, sonra yerə tüpürdü.

– Ə, belə şey heç eşitməmişdik, sən öl! Hər gün başının üstündən qartal kölgəsi keçsin, özü göydə görünməsin. Bə haradan düşür bunun kölgəsi? – dedi Məhəmməd.

– Ata min, ə, qoyunu qaytaraq. Axşam düşür, – dedi Alı öz qırmızı maydanına sarı gedə-gedə.

Çobanlar atlanan kimi itlər də ayağa qalxıb dirçəldilər. Sürü yatağa sarı üz tutdu.

Alı qulaqlı papağını başından götürüb, daz yerinin tərini sildi əliylə.

– Mənim adım Alıdımı, ayə? – soruşdu sonra.

– Hə, – dedi Məhəmməd.

Çobanlar yataqda oturub ət yeyəndə sürünün şoran düzdə qaldırdığı toz təzə-təzə yatırdı. Alı ikinci stəkan arağı içib bir yağlı qabırğanı dişinə çəkəndən sonra ayağa qalxıb damın küncünə keçdi, papağını başının altına qoyub, yüz yerdən didilmiş ala kilimin üstünə uzandı. Qarnı ancaq doymamışdı. Onunçün uzandı ki, əlindən xata çıxmasın. Çünkü ikinci stəkandan sonra nədənsə həmişə köpəkoğlu Tapdığın nazik burnunun üstündən bir yumruq tutuzdurmaq istəyirdi. Bu axşam da Tapdıq tərs kimi bardaş qurub onun qabağında oturmuşdu. Odur, Alı kürəyini yerə verdi ki, araya qanqaraltılıq düşməsin. Gözlərini damın üst dirəyindən sallanan neft lampasının hisli işığına zillədi. Gördü ki, Allahın lampa işığından da divara ət yeyib, araq içən çobanların kölgələri düşüb.

– Ayə, a uşaqlar bəs o qartal kölgəsinin özü hardadı? – soruşdu çobanlardan biri.

– Necə yəni özü? – dilləndi kimsə.

– Qartalın özünü deyirəm, dana, – dedi soruşan çoban.

– Bu gün bizim də üstümüzdən iki dəfə keçdi andıra qalmış, – dedi Məhəmməd.

– Mən sabah tüfəng götürəcəm özümlə çölə. Görərsiniz, – dedi biri.

– Götürdüyün nə olacaq? Kölgəyəmi atacaqsan, a başı batmış?

Çobanlar gülüşdülər.

Alı qaşlarını çatıb fikrə dalmışdı. Gözlərini də yummuşdu ki, onu yatan bilib dilləndirməsinlər.

– Ayə, siz öləsiz "Elm və həyat" jurnalına yazmaq lazımdır, – dedi biri.

– Fotoqraf Friq burda olsaydı, şəklini də çəkərdi, – dedi o biri.

– Rəhmətliyin oğlu, o daz Friq yeri də, göyü də bir yerdə həncirə çəkəcəkdi? – soruşdu Məhəmməd.

Hamı yenə gülüşdü. Alı yerində uzanıb, elə hey fikirləşirdi.

– Bəlkə, buranın katibinə deyək? Hər halda hökumət adamıdı, – dedi Tapdıq.

– Dimdiyinəki a, Tapdıq, katib qartal kölgəsindən nə ala biləcək ki, ona baş da qoşsun? – dedi Məhəmməd. Və hamını ürəkdən güldürdü.

Alı gözlərini yenə də lampanın hisli işığına açdı. Qəhqəhəylə gülən çobanların divarda yırğalanan kölgələrinə baxdı. Yenə gözlərini yumdu. Hiss elədi ki, bədəninin səhərdən tarıma çəkilən əzələləri yavaş-yavaş boşalır. Bir də düşündü ki, iyirmi günə, bir aya yataqda bit əmələ gələr. Arana hələ təzə enmişdilər.

– Nədi, a qağa, yatırsanmı? – soruşdu Məhəmməd.

– Yox. Fikirləşirəm, – dedi Alı, gözlərini açmayıb.

– Olmaya, yenə adın çıxıb yadından? – soruşdu Məhəmməd, ətrafdakılara göz vurub.

– Elədi. Amma demə, özüm tapacağam sabaha kimi yatmasam da, – dedi Alı.

Amma yalan dedi. Çünkü adı yadında idi. Sonra ayağa qalxıb öz yerinə keçdi. Boş stəkanını ağzına kimi araqla doldurub içdi. Stəkanı əlində tutub, bir şey yemədi.

– Nədi, a qağa, gözlərin qanla dolub. Olmaya, səni də qartalın kölgəsi özündən çıxarıb? – soruşdu Məhəmməd.

– Ə, onun özünə də kölgəsinə də... Sən mana qulaq as. Bax hamının yanında deyirəm: O "Volqanı" mən almasam a... qoy, onda urus məndə sağ yer qoymasın...! Babam da çoban olub, atam da. Partiyanın üzvüyəm, ötən il qırmızı əmək bayrağı ordeni almışam, peredavik deyirsən, peredavikəm! – bağırdı Alı. Və qabağına tüpürdü.

– Süfrəyə niyə tüpürürsən, ə? – qışqırdı Tapdıq.

Alı stəkanı yerə qoyub, var gücü ilə Tapdığın nazik burnundan bir yumruq tutuzdurdu. Və yumruğu qana bulaşanda çiynindən elə bil dağ düşdü.

# İsti

Nə yaman isti idi, ay Allah! Elə qızmar gün idi ki, bir quşcuğaz uçub gəlib bir ağaca qonsaydı, quşcuğazın qonduğu budağın cırıltısı Ayıdağın ətəyindəki, döşündəki kəndlərin hamısında eşidilərdi. At qoşulmamış, öküz qoşulmamış, həyətdə duran arabaların hərlənməyən təkərləri altından toz qalxan bir isti gün idi...

Alı ilə Məhəmməd bir ağacın yoğun gövdəsinə söykənib, bu isti günün içində oturmuşdular.

– Ay Alı, əvvəllər bu ağacdan yerə nə düşərdi? – soruşdu Məhəmməd.

– Kölgə, – cavab verdi Alı.

Di gəl kölgə sözü istinin içindən keçə bilmədi. Alının ağzından çıxan kimi külə döndü. Eşitmədi Məhəmməd Alının cavabını. İkisi də susub, başlarına səhəng qoyub, kəhrizə gedən iki gəlinə baxdılar.

Gəlinlər kəhrizin başında səhəngləri yerə qoyub bir ağızdan köksləri̇ni ötürdülər. Qupquru idi kəhrizin dibi.

– Ay qız, bu kəhrizdə əvvəllər nə olardı? – soruşdu biri.

– Su, – cavab verdi o biri.

– Nə? Olmaya səsin batıb? – dedi birinci.

– Su! – qışqırdı ikinci.

Ancaq cavab verən qızın sözünü soruşan qız eşitmədi. Çünkü buxarlanıb qupquru qurumuşdu “su” sözü. Və bu an boş səhəngləri çiyinlərinə qoyub kəhrizdən dönən qızları Aşıq Saleh gördü. Gördü nə gördü!

Sazı aşırıb odlu sinəsinə basdı:

Aman, dağlar, yar gəzirəm,
Bağçalarda bar gəzirəm,
Aranda yandı ciyərim,
Zirvənizdə...

“Qar gəzirəm”, deyə bilmədi Aşıq Saleh.

Bilmədi “qar” sözü necə oldu, bilmədi beli sınmışlar sözü hara getdi. Qan vurdu Aşıq Salehin beyninə. Qan doldu gözəl görüb, ilk dəfə gözələ yer üzündə söz tapa bilməyən gözlərinə. Badı kəndində, Usta Avakın bağladığı sazı başı üstünə qaldırıb yerə çırpdı. Saz dığırlana-dığırlana kəndin içiylə keçib düz kəndin biçənəyinə gəldi. Orada qanqala ilişib dayandı.

Gördü ki, biçənəyi dizə kimi qalxmış yamyaşıl üzündə almas kimi şeh dənələri parlayan ot basıb. Və bu otu rəhmətlik Səlim kişi biçir. Ancaq Usta Avakın bağladığı sazın birdən-birə doqquz siminin, doqquzu da partladı. Və bu səs qızmar istiyə qarışıb aləmə yayıldı.

Saz gördü ki, rəhmətlik Səlim kişi kərtini yamyaşıl otların dibinə çəkə-çəkə gedir. Ancaq onun biçdiyi yamyaşıl, şehli otlar yerə sapsarı, qupquru, tozlu düşür. Səlim kişi də bir an ayaq saxlayıb arxasına, biçdiyi otlara baxmır.

Və saz birdən hiss elədi ki, sinəsi od tutub yanır. Yadına düşdü ki, simlərinin doqquzu da qırılıb, sinəsi bu qızmar günəşin altında, bu isti günün içində açıq qalıb.

# Ölüm ayağında

– Bu qoca haçaqdan yorğan-döşəyə düşüb?

– Allah bilir, mən gözümü dünyaya açan gündən bəri onu canverən görmüşəm.

– Yaşı neçə olar görən?

Bunu bir kəs bilmirdi. Nə kəndin ağsaqqalları, nə də oxuyub dünya görmüşləri. Özündən də soruşanda qəribə sayıqlamadan savayı bir şey eşitmək olmurdu qocadan. Bilmək olmurdu dastan deyir, yoxsa başı-ayağı kəsilmiş əhvalat danışır. Kolxozun sədri Bakıdan sərxoş, ayaq üstə dayana bilməyən bir dambat adam gətirmişdi.

– Bu həm həkimdi, həm alim, – demişdi sədr.

Gələn qonaq qocanın yanında beş-on dəqiqə oturub eşiyə çıxmışdı.

– Amerikada qanun icazə verir ki, belə xəstələrə iynə vurub onun da, qohum-əqrəbasının da canını biryolluq qurtarasan əzab-əziyyətdən. İndi kişisən sən buna iynə vurub öldür, görüm necə öldürürsən! Dalına hökumət rəndələnməmiş taxta soxar, – demişdi alim-həkim.

– Niyə? Arxalı, pullu həkim olsa, taxtanı rəndələyərlər, – demişdi sədr gülə-gülə.

Ancaq sədrin sözünə bir kəs gülməmişdi. Həkimin sözünə isə qulaq asandan sonra səksən üç yaşlı Anaxanım qarı:

– Bunu da doğan deyir oğlum var? Kül səni doğanın başına! – demişdi.

Düz də demişdi. Sərxoş, ayaq üstə sədrin zor biləyi hesabına dayana bilən qonaq bir axşam kənddə qalıb, yeyib-içib it gününə düşəndən sonra Bakıya, öz xarabasına getmişdi.Və yenə də kəndin sözü-söhbəti dönmüşdü köhnə axarına. Hamı bir ağızdan deyirdi ki, qonağı ölümdən qurtaran, ölüm ayağında saxlayan sədrin puludur. Deyirdilər ki, güya sədrin dədə-babadan qalan saysız-hesabsız ərəb mirvarilərini qocanın nəcisində saxlayır. Güya mirvari onun nəcisində ölmür. Beylə söhbətlərin də arxası ona bərkilmişdi ki, qocanın qulluğunda duran, onun altını yuyub-təmizləyən sədrin dul baldızı idi. Adamaoxşamaz Səkinə. Camaat hətta belə bir şey danışırdı ki, güya sədr raykomittifaqın sədrinə də zarafata salıb təzə pulla iki min manata qocanın nəcisindən satmışdı. Bəziləri də deyirdilər ki, sədr raykomittifaqın sədrinə kələk gəlib, ona öz nəcisini dürtüb. Amma bu söhbətlərə inanan da var idi, inanmayan da. Anaxanım qarı isə bir dəfə demişdi:

– A bala, vallah, bilmirəm! Bizim əslimiz Qazaxdandı. Biz buraya köçüb burda yurd salanda mən o

uşaq boyda cunquş şey idim. Bu kişi də eləcə indiki təkin yatıb ölürdü. Kəndin camaatını da taun biçib qırmışdı. Biz gələndə bu yekəlikdə kənddə sağ qalan elə o ciğazıydı, o can verib ölə bilməyən. Sonra bizim öyü burdan sürdülər Qazaxıztana. Qazağa yox, a bala, Qazaxstana. Çox ev sürdülər. Çoxu da damda, sürgündə çürüdü. Neçəsi də nemsəylə davadan geri dönmədi. Biz buraya sürgündən qayıdıb gələndə kənd yenə də bomboşuydu. Fağır Tapdığın evində yurd saldıq.

– Qoca dururdumu , a qarı? – soruşmuşdu biri.

– Dururdu deyəndə, başı batmış elə yerində uzanıb can verirdi, – cavab vermişdi Anaxanım qarı.

– Bəs təkbaşına burda necə dolandınız, Anaxanım qarı? – soruşmuşdu bir müxbir.

– Can verən qoca buğda yeri dedi dədəmə. Dədəm gedib bir kisə yaxşı toxumluq buğda gətirdi o canıölməyən dediyi yerdən. Torpağı şumlayıb səpdi. Yaxşı taxılımız oldu o ilisi. Sonra millət yığıldı. Ev-eşik saldı camaat. İndi kolxozdu. Şükür Allaha, dolanış da yaxşıdı, – demişdi müxbirə Anaxanım qarı.

– Onun heç düz-əməlli söz danışdığını eşitmisənmi, qarı? – soruşmuşdu kəndin dəlləyi.

– Yox. Elə indiki təkin sayıqlayırdı. Mən onu gördüyüm gündən sayıqlayır. Di gəl, qocanın sayıqlamağı qəribə sayıqlama idi. Qızdırmalı, azara tutul-

muş adamlar tək qalanda da, adam yanında da ağızlarına gələni danışırlar. Bu qoca isə dilinə ancaq yanında adam olanda söz gətirirdi. Özü də ondan biri söz soruşmasaydı, heç vaxt dillənməzdi.

– A qoca, nə vaxtdan yorğan-döşəyə düşmüsən? – soruşmuşdu bir dəfə sədr.

– O, fil öldürmüşdü. Onun əti zəhərlədi məni. O vaxtdan, – demişdi qoca.

Sədrin oğlu "Zoologiya" dərsliyini fil şəkli olan səhifədə açıb, kitabı qocanın gözləri qabağında tutmuşdu.

– O bundanmı vurmuşdu, qoca? – soruşmuşdu sədr.

– Bundan. Ancaq bu qırxılıb, onun yunu üstündəydi, – sayıqlamışdı qoca ölüm ayağında.

Və qocanın bu sözlərinə hamıdan çox kəndin dəlləyi gülmüşdü. Sonra camaat dağılmışdı. Hər kəs öz ocağının başına çəkilmişdi. Bircə qoca qalmışdı ağır nəfəsi ilə təkbaşına.

Səhər açılanda sədrin baldızı, adamaoxşamaz Səkinə yenə qocanın komasına girib, fağırın dalını, başını təmizləmişdi.

– Ay qoca, bu kəndin camaatı çoxmu qırılıb? – soruşmuşdu adamaoxşamaz Səkinə.

– Həmişə, a bala, camaat həmişə qırılır. Geci var, tezi var, – cavab vermişdi qoca.

– Azardan, ya davadan?

– Azar da qırıb, dava da, taun da, zəlzələ də, sel də, soyuq da.Yaman sazaq olub buralarda, qızım. Bir dəfə hər yanı buz bağlamışdı, – cavab vermişdi qoca.

– Qışmı gəlmişdi, a qoca?

– Qış getmədi, qaldı bu yerlərdə, yaman çox qaldı. Yazı yaxın qoymadı buralara beş-on il...

– Bəs sən neyləmisən camaat qırılıb özün təkcə qalanda? – soruşmuşdu adamaoxşamaz Səkinə.

– Ayağa qalxmışam, qızım.

– Niyə, qoca?

– Yerə düşən buğdaları yığmağa, qızım, – cavab vermişdi qoca.

– Niyə, a qoca? – soruşmuşdu adamaoxşamaz Səkinə.

– Camaat gələndə torpağa səpməyə bir şey olsun, – demişdi qoca.

Adamaoxşamaz Səkinə bir əlində vedrə pıqqıldaya-pıqqıldaya qardaşının evinə gəlmişdi. Ambarın altındakı zirzəmiyə enib, eşiyə qocanın qurumuş nəcisiylə dolu gül dibçəyi ilə çıxmışdı. Dibçəyin içini bıçaqla yerə qazıb sarımtıl, qiyməti olmayan ərəb mirvarilərini bir-bir yığmışdı, sonra qocanın təzə nəcisinə qatıb yenidən dibçəyə doldurmuşdu. Mirvarilər bir iynə ucu qədər də kiçilmirdilər qocanın bağırsaqlarından çıxan bu möcüzənin içində. Neçə evin mirvarisi kiçilib ölmüşdü, camaat onları tor-

paqda, duzlu suda, gilabi içində, uşaq nəcisində saxlasa da. Ancaq sədrə qismət olmuş sarımtıl mirvarilərə elə bil ölümsüz ömür payı kəsmişdi Tanrı. O da ölüm ayağında xırıldayan qocanın hesabına.

Qocanın yediyi bir südə qatılmış çörək idi, bir də yarma sıyığı. Ət boğazından keçmirdi. Adamaoxşamaz Səkinə bir kərə yarmanı ət suyunda bulayıb ona yedirtmək istəyəndə, qoca qusub, sonra uşaq kimi ağlamışdı.

– Niyə qusub ağladın, qoca? – soruşmuşdu adamaoxşamaz Səkinə.

– Bu yarmadan o filin qanının dadı gəldi, qızım, – demişdi qoca. Və o gün daha dillənməmişdi.

Elə həmin gün kəndin dəlləyi əlində qayçı oynada-oynada dükandan çıxıb divarın dibində çömbəlib növbə gözləyənlərə demişdi:

– Siz öləsiz, ay camaat, ermənilərin belə can verib ölməyən adamı olsaydı, Məkkədə quranı erməni dilində oxudardılar. Kül bizim başımıza. Deyib, dükana girmişdi.

Ertəsi günün səhəri kəndin camaatı bir-birinə dəymişdi. Çünkü sədrin baldızı, adamaoxşamaz Səkinə qocanın komasına girib yorğan-döşəyi boş görmüşdü. Qışqırıb eşiyə çıxmışdı.

Üstündən iki gün sonra qonşu rayonun katibi kəndə zəng eləyib sədrlə danışmışdı.

– Ə, sizin qocanı tapmışıq, – demişdi.

– Harada? – soruşmuşdu sədr.

– Əşşi, taxıl yerində. Yerə düşən buğdaları yığırmış.

Sədrin fikri-zikri ancaq mirvarilərində idi.Özünü itirmişdi.

– Bu saat maşın göndərirəm onun dalınca, – demişdi sədr.

– Göndərmə, qoca yatır, – demişdi katib.

– Necə yatır? – soruşmuşdu sədr.

– Can verir, – demişdi katib.

– Bir şey yeyirmi? – soruşmuşdu sədr.

– Nə bilək yediyi nədir? – demişdi katib.

Və ertəsi gün qonşu rayonun rayon mərkəzində, rayon partiya komitəsinin ikimərtəbəli binasının qabağında toza batmış bir Qaz-69 maşını gəlib dayanmışdı. Maşından sədrin baldızı, adamaoxşamaz Səkinə düşmüşdü. Əlində gül dibçəyi.

– O qocaya qulluq eləyən mənəm, – demişdi Səkinə aşağı düşən katibə.

– Aparın bunu qocanın yanına, – demişdi katib öz maşınına minə-minə.

Adamaoxşamaz Səkinə gül dibçəyini əlindən yerə qoymayıb, qocanı yedirdəndən sonra eşiyə çıxanda, qonşu rayonun camaatı ondan soruşmuşdu:

– Qoca bir şey yedimi, bacı?

– Yedi, şükür Allaha, – demişdi Səkinə.

– Savab iş görürsən, bacı, Allah ölənlərinə rəhmət eləsin! – demişdi qonşu rayonun camaatı və dağılmışdı. Adamaoxşamaz Səkinə tək qalıb, tələsik qocanın yanına atmışdı özünü.

– Ay qoca, niyə yerdən buğda yığırdın? Ay qoca, dillən, nə olub, nə olub ki, buğda yığırdın? – soruşmuşdu nəfəsi töyşüyə-töyşüyə.

Və ancaq qocanın sinəsindən çıxan xırıltını eşitmişdi adamaoxşamaz Səkinə, gül dibçəyini öz sinəsinə sıxa-sıxa. Sonra qocadan aralanıb qapıya sarı getmişdi. Sonra qapının aşırımında dayanıb, fikrə getmişdi. Sonra birdən əlindəki dibçəyi yerə vurub, döşəməyə dağılmış nəcislə sarımtıl ərəb mirvarilərini tapdıya-tapdıya qocanın üstünə şığıyıb yaxasından yapışmışdı. Və bağırmışdı:

– Yığdığın buğda hardadı, qoca! Buğdanı hara qoymusan, qoca!

Və yenə də ancaq ölüm ayağında yatan qocanın xırıltısını eşitmişdi adamaoxşamaz Səkinə.

## Qara qoç

Məhəllənin iyirmi yaşlı oğlanları, qızları gözlərini dünyaya açan gündən bəri elə bu kişini doqqazın qabağında oturub süd, qatıq, bəzən də kərə yağı satan görmüşdülər. Satdığı saf mal idi, qazancı halal idi. Bir də kişi köhnə qayda ilə alver eləyirdi. Səhər bazarının bir qiyməti, günortasının bir haqqı var idi. Axşam bazarı da ki, axşam bazarı idi. Bu günün ağartısını sabaha qoymurdu qalsın. Günün axırını qiyməti aşağı salıb, malını xırıd eləyir, əlini boşaldırdı. Ancaq bu kişi bircə inəyini (cins mal idi) əzab-əziyyətlə saxlayırdı. Kolxozdan bir maşın nədi, bir ovuc da yem ala bilmirdi. Jmıx, kombikorm zad cins inəyin yuxusuna da girmirdi. Heyvanın yaz, yay, payız başı yemi poçt yolunun qırağında çıxan qarışıq ot idi. Qış yemi də elə bu ot idi. Bu yerlərdə naxırın səsi də, kökü də kəsilmişdi. Kişi pişpişə çıxmamış əlinə kərənti alıb gedib yolun hər iki qırağındakı otu biçib ipə yığıb həyətinə gətirirdi. Öz belinə yükləyib. Yaxşıdı ki, sonsuz arvadının üstünə aldığı ikinci arvadı iki oğul doğmuşdu. Son iki ili inəyi yolun qırağında böyük oğlu otarırdı. Heyvanı başlı ba-

şına buraxa bilmirdi kişi. Çünkü yolun bir qırağı "Ayud kətəməni" kolxozunun pambığı idi, o birisi "Yeni Dırmıx" sovxozunun üzümü. İkisi də çəpərsiz. İnək pambığa, üzümə girsəydi, kişini ya məhkəməyə verəcəkdilər, ya da başqa yolla dolaşdıracaqdılar.

Kişi dolanışından razı idi. Doğulduğu gündən bu günə kimi dilinə ən çox gətirdiyi söz "şükür" sözü idi. Kişinin ikicə şeydən narazılığı var idi bu dünyada. Biri sonsuz arvadı. Ancaq onun üstünə ikinci arvad alıb, iki uşaq əkəndən sonra bu narazılığından yaxasını qurtarmışdı. İkinci narazılığı inəkdən idi. Çünkü Zoykası dünyaya ancaq buzov gətirirdi. Kişi isə dana arzusu ilə yaşayırdı. Odur, buzov, cöngə olan kimi məhəllədə ya toy olurdu, ya kiminsə ölüsü düşürdü. Kişi də malını xeyirə, şərə satırdı. Bir-iki dəfə istəmişdi Zoykanın özünü satıb gedib Rusiyadan bir başqa damazlıq cins inək gətirsin. Ancaq fikrinin sərfəsizliyini görüb vaz keçmişdi. Çünkü Azərbaycan inəklərinin uzaqdan, adla tanınan bir dövrünü yaşayırdı yer üzündə. Odur, kişi hər axşam evinə qayıdıb, hovuzun qırağında oturanda və birinci arvadı onun ayaqlarını yuyanda otaqdan gələn və körpə oğlunu yatırdan nənninin səsinə qulaq asa-asa deyirdi:

– Şükür. Allaha min şükür.

– Allah deyən dilinə nənəm qurban, a kişi, – deyirdi birinci arvadı.

– Uşaq necədi, az? – soruşurdu kişi.

– Gözünə döndüyüm, balta parçasıdır, ayə, – deyirdi birinci arvadı.

Uşaqları ikinci arvad doğsa da, kişi onları birinci arvadına tapşırmışdı. Çünkü birinci arvadını evinə qız gətirmişdi, ikinci arvadı isə dul gəlmişdi. Odur, birincinin qabağında ikinci dillənə bilmirdi.

Bir dəfə ikinci arvad birinci arvada demişdi:

– A bacı, istəyirsən inəyi mən sağım, sən dincini al.

Və o an ağzının üstündən bir tərs sillə yemişdi.

– Əlin var olsun, – demişdi kişi gendən birinci arvadına.

Və bu evin bərəkəti, xeyri qurtarmamışdı məhəlləyə çalpapaq kişi gələnə qədər.

– Bizim məhləyə çalpapaq kişi köçüb. Şofer Hüsünün evini alıb yurd salıb özünə, – demişdilər kişiyə.

– Xoş gələn günü olsun, – demişdi kişi.

– Bir damazlıq inək də gətirib özüylə, – demişdilər.

Və kişi barmağını dişləyib öz evinə keçmişdi. Papağını qabağına qoyub, xeyli fikirləşəndən sonra ayağa qalxıb:

– Allah ona da, mana da bazar versin, – demişdi hovuzun üstə Karvansara gəvəsi yuyan yüz üç yaşlı anasına.

– Təki o sənin şəkərinə zəhər qatmaya, – demişdi anası.

Və düz demişdi.Çünkü elə bir həftə keçməmiş qapısına çalpapaq kişi gəlmişdi. Salam verib, hal-əhval tutandan sonra demişdi:

– Otu kimdən, neçəyə alırsan?

– Yol qırağından biçirəm, – demişdi kişi.

– Yolun sağından, ya solundan? – soruşmuşdu çalpapaq kişi.

– O yandan da, bu yandan da, – cavab vermişdi kişi.

– A kişi, mənim də inəyim var. İndi neyləyək? – soruşmuşdu çalpapaq kişi.

– Sən yolun sağını biç, mən solunu. Sənin də heyvanın yesin, mənim də, – demişdi kişi.

Və ertəsi gün ikisi də kərənti götürüb poçt yoluna çıxmışdılar. Çalpapaq kişi yolun sağına düşüb, kərəntisinə daş çəkmişdi, ağzını ülgüc kimi itiləyib:

– Ya Allah! – demişdi.

Sonra kərəntini solaxay olduğu üçün soldan sağa vurmuşdu. Bircə ot da düşməmişdi.

– Buranın otu biçilmir. Mana kələk gəldin, kişi, – demişdi.

– Gəl bu yanı biç, – demişdi kişi.

Sonra çalpapaq kişinin kərəntisinə baxıb soruşmuşdu:

– A qonşu, kərəntini sapına tərs niyə bağlayıbsan?

– Solaxayam, – cavab vermişdi çalpapaq.

Və çalpapaq yolun soluna düşəndə, yolun sağına keçən kişi dərin fikrə getmişdi, öz kərəntisinə baxa-baxa. Görmüşdü ki, kərəntini heç cür sapına tərs bağlamaq olmur. Otu soldan sağa biçmək üçün onda gərək yerdə başı üstə durasan, ya da qabağına güzgü qoyasan. Və bu an onu fikirdən çalpapağın səsi ayırmışdı:

– Sağın da otu biçilmir, – demişdi çalpapaq kişi.

Və səssiz-səmirsiz, kərəntisini çiyninə qoyub getmişdi. Evə gəlib üç stəkan çay içəndən sonra hər ayağını on mollanın saqqalı yoğunluqda tük basmış qızını çağırıb, Zoykanın yiyəsinin qapısına göndərmişdi. Kişi çalpapağın qızına bir qucaq ot verib demişdi:

– Dədənə de ki, pişpişə hələ cavandı. Qorxmasın, heyvana versin. Bir də de ki, yoxlamışam, cavan pişpişə heyvanı köpməyə qoymur. Qız otu öz həyətlərinə gətirmişdi.

– Bu ki ot deyil! – bağırmışdı çalpapaq.

– Əmi deyir ki, cavan pişpişə köpün birinci dərmanıdır, – demişdi qıllı qız.

– Mən indi bu pişpişəni əminin dalına soxum, baxaq görək necə çıxardır, – demişdi çalpapaq kişi.

Və üç stəkan da çay içib otağa keçmişdi. Qabağına kağız qoyub, əlinə qələm götürüb məktub yazmışdı. Sonra qızını çağırıb məktubu ona oxutdurmuşdu.

– “Sovet xalqının rifahı naminə” nə deməkdir, ay dədə? – soruşmuşdu qız.

– Mən nə bilim, az! Bütün millət belə yazer! Dalını oxu! – bağırmışdı çalpapaq.

Qız məktubu axıra qədər oxuyub, sonra aparıb poçt yeşiyinə atmışdı.

Zoyka səhər tezdən sağılandan sonra kişi həmişəki kimi qapının ağzında oturub alverə başlamışdı.

– Allah bazar versin, – demişdi halal mal alan müştərilər.

– Allah bazar versin, – demişdi gəlib çalpapaq kişi.

– Sən niyə alver eləmirsən? Olmaya arvadın qatıq tutmayıb? – soruşmuşdu kişi.

– Ac heyvanı alverə sağmaq olmaz. Südü özümüzə ancaq yetər. Qonşu, oğluna de, mənim də inəyimi səninkinə qatıb otlamağa aparsın.

– Gözüm üstə. Amma, qonşu, bizim Zoyka bu yolun qırağındakı otu həzm eləyib südə verə bilir. Sən, bəlkə, gedib kolxozdan yem alasan?

– Ə, kolxozdan Allah verən canını ala bilmir, mən necə yem alacağam?

– Onu düz deyirsən, qonşu, – demişdi kişi.

Və o gün kişinin böyük oğlu iki inəyi qabağına salıb yol qırağında otarmışdı. Axşam heyvanları geri qaytarmışdı. Zoykanı məhəllənin başında buraxıb, çalpapağın inəyini qapılarına qədər gətirmişdi ki, heyvan təzə yurdunu tanıyıb, burnunu onun bunun

həyatinə soxmasın, ya da arada qalıb molaya-molaya yiyəsini səsləməsin.

Çalpapağın qıllı qızı eşiyə çıxıb inəyin başını həyətə döndərmişdi. Oğlan uşağı yerində mıxlanıb qızın ayaqlarına baxmışdı mat-mat. Sonra axşam atasına demişdi:

– Ay dədə, çalpapağın qızının hər ayağında bir yorğanlıq yun var.

Və o gün dədəsi uşağı birinci arvadına döydürmüşdü.

Gecə hamı şirin yuxuya dalmışdı, çalpapaq kişinin qızından başqa. Qız qıllı ayaqlarının yun yumşaqlığına Mirzə İbrahimovun “Pərvanə” romanını qoyub, şirin-şirin oxuyurdu ki, birdən qulağına tövlədən gələn qəribə bir hənirti dəydi. Gül kimi romanı ayaqlarından yerə atıb, qız tövləyə qaçdı. Gördü ki, inəkləri böyrü üstə düşüb, qarnı da şişib, az qalır tavana dəysin. Evə keçib tez atasını yuxudan qaldırdı:

– Ay dədə, ay dədə, inəyi gürzə çalıb. Heyvan şişib ölür!

Çalpapaq inəyə baxıb dedi:

– Gürzə çalmayıb. Heyvan zəhərlənib köpür. Bıçaq gətir bura.

Çalpapaq inəyi murdar olmağa qoymadı. Tez başını kəsdi.Və səhərə kimi tövlədə dalı üstə oturub, seyrək neft lampasının işığında dərisini soydu.

Hava işıqlananda evə keçdi ancaq. Təzə məktub yazıb qızına oxutdu.

– “Sovet xalqının rifahı naminə” nə deməkdir, dədə? – soruşdu qız.

Çalpapaq qızına bir sillə vurub, getdi inəyin cəmdəyini doğramağa. Ancaq səhər açılanda, camaat eşiyə çıxanda öz məhəllələrinin adamlarına ət sata bilmədi. Camaata çalpapağın damazlıq inəyi kəsib satmağı şübhəli göründü. Hamı belə qərara gəldi ki, ət murdardır. Odur, çalpapaq əti aparıb uzaq bir məhəllədə satdı. Geri dönüb Zoykanın yiyəsinə bir-iki söz demək istədi. Ancaq fikrindən dönüb öz evinə gəldi. Qızına dedi:

– Heç kəsə demə ki, bizim inəyə Zoykanın yiyəsinin oğlu bilə-bilə zəhərli ot yedirdib.

– Baş üstə, dədə, – dedi qız.

Sonra atasının yazdığı üçüncü məktubu oxuyub, apardı poçt yeşiyinə atdı. Bu dəfə sual vermədi.

Fevral ayı keçdi, mart ayı getdi, və nəhayət, aprel ayı gəldi. İndi məhəllədə kimdən soruşsan, hamı bir ağızdan deyəcək ki, aprelin o günündə Zoykanın yiyəsinin qapısı ağzında maşın gəlib dayandı. Hamı gördüyünü danacaq. Ancaq kişinin qapısına maşın yox, uçan xalı gəlmişdi o gün. Və xalıdan iki mələk düşüb, həyətə girmişdilər.

– Gəl, ay kişi, gəl bizimlə xalıya otur, bir az göy üzünə qalxaq, – demişdilər.

Kişi mələklərlə xalının üstündə bardaş qurub oturmuşdu.

Xalı göyə qalxıb yavaş-yavaş uçmağa başlamışdı.

– Aşağı bax, kişi, de nə görürsən, – demişdi mələklər.

– Yer, – demişdi kişi.

– Yerdə nə görürsən? – soruşmuşdu mələklər.

– Pampıq tarlaları, üzümlük, – cavab verdi kişi.

– Cənnətə oxşayırmı torpaq? – soruşmuşdu mələklər.

– Oxşayır, – demişdi kişi torpağı göy üzündən ilk dəfə gördüyü üçün.

– Bəs niyə orda-burda deyirsən cəhənnəmə döndəriblər torpağı? – soruşdu mələklər.

– Belə söz deməmişəm mən, iki balam ölsün! – bağırdı kişi.

– Dayan. Danışma. O uca dağı görürsənmi?

– Görürəm.

– Zirvəsində nə var?

– Qar.

– Düzdü.Amma yaxşı bax.

Kişi diqqətlə, gözlərini qıyıb baxanda gördü ki, uca, qarla örtülü zirvəsi bulutların arasından çıxan dağın iynə kimi ucunda nəhəng bir ot tayası qoyulub.

– Nə görürsən? – soruşdu mələklər.

– Ot tayası, – cavab verdi kişi.

– Bəs niyə orda-burda deyirsən ki, bir ovuc ot qalmayıb?

Kişi başını aşağı salıb bir söz demədi.

– Niyə susursan? – soruşdu mələklər.

– Bura soyuqdur, – dedi kişi.

Uçan xalı yavaş-yavaş aşağı enib, ağacsız, kölgəsiz isti bir həyətə qondu.

Hər yandan mələklər gəlib kişini dövrəyə aldılar.

– Bu hansı pəncərə qabağında oturacaq? – soruşdu mələklərdən biri.

– On yeddinci pəncərənin qabağında, – cavab verdi o biri.

– Onun qabağındakı şəkli axı yağış yumuşdu, – dedi mələk.

– Rəssam təzəsini çəkib, – dedilər onda.

– Aparın.

Kişini aparıb on bir nömrəli pəncərənin qabağında oturtdular. Sonra o biri tərəfdən gətirib pəncərəni şəkillə tutdular. Və kişi gördü ki, şəkildə ucsuz-bucaqsız, yamyaşıl bir çəmənlik çəkilib. Saysız-hesabsız, kök, əmcəkləri südlə dolu inəklər rahat-rahat otlayırlar. Başında motal papaq, çiynində yapıncı, sinəsi orden-medalla dolu bir çoban qarşısındakı mənzərəyə baxa-baxa tütək çalır. Çobanın cibindən səliqəylə bükülmüş Çalpapaq bir qəzetin ucu çıxıb. Kişi diqqətlə baxıb, qəzetin adını oxumaq istədi. An-

caq gözləri hərfləri yaxşı seçə bilmədi. Odur, ayağa qalxıb şəklə yaxınlaşmaq istədi. Ancaq o saat çiyninə bir əl qondu.

– Niyə qalxırsan? – soruşdu mələk.

– İstəyirdim baxım görüm çoban qardaşın cibindəki hansı qəzetdi, – cavab verdi kişi.

– Buradan qaçmaq istəyənlərin hamısı belə deyir, – dedi mələk.

Və kişini oturduğu yerə kəndirlə bağladılar. Kişi əlacsız qalıb yenə də üzünü şəklə tutdu. Darıxdı yaman. Bilmədi neyləsin, nədən fikirləşsin. Başladı çəmənliyə səpələnmiş inəkləri saymağa. Əlli altı inək sayıb, gözləri əlli yeddincidə dayananda kişi təəccübdən qışqırdı. Əlli yeddinci inək Zoyka idi.

Kişinin səsinə mələk gəldi:

– Niyə səs-küy salmısan, ay qancıq! – bağırdı.

– Bu inək mənim Zoykamdı, – dedi kişi.

– Düzələn işdi, – dedi mələk.

Və gedib rəssamı gətirdi. Rəssam fırçasın əlinə alıb şəklin qabağında dayandı. Dalını kişiyə çevirib işləməyə başladı.

– Hazırdı, – deyib getdi.

Kişi gördü ki, bayaq Zoyka dayanan yerdə indi bir nəhəng, gözləri qanla dolu bir qumral buğa dayanıb. Kişi gözlərini yumub yatdı.

Günlərin bir günündə iki mələk gəlib kişini baş mələyin yanına apardılar.

– Şəkildə nə qədər mal-qara var, kişi? – soruşdu baş mələk.

– Səksən dörd inək, bir qumral buğa. Ancaq buğa əvvəlcə inək idi, – dedi kişi.

– Cəhənnəmə ki, inək idi, – dedi baş mələk və soruşdu: – Çobanın neçə ordeni var?

– Üç ordendi, səkkiz medal. Və iki kənd təsərrüfatı nailiyyətləri sərgisinin nişanı. Sağ döşündə.

– Neçə ot var çəməndə?

– Altı milyon yeddi yüz min təzətər yoncadı.

– Düzdü.

– Amma bəzilərini rəssam düz çəkməyib. Yonca üç yarpaq olur. O, dörd yarpaq yonca da çəkib.

Baş mələk o biri mələklərə baxıb dedi:

– Mən sizə demirdim o rəssama dövlət mükafatı verənin ağlı yoxdur.

Sonra üzünü kişiyə tutub dedi:

– Ay kişi, sənin haqq-hesabınnan bizimki düz gəlir. Yeddi il altı ay sən o şəklə baxmısan. Altı ay da gərək baxaydın. Ancaq o rəssamın səhvini tutduğun üçün bu altı aydan keçərəm. Azadsan.

– Allah balalarını xoşbəxt eləsin, naçalnik, – bağırdı kişi və ağladı.

– Ancaq səni bir şərtlə buraxacağıq. Bir həftədən sonra...

– Çox sağ ol, sənə qurban olum, – dedi kişi.

– Bu bir həftədə sənə bir tikə çörək, bir qurtum su verməyəcəyik. Sonra azadsan. Evə gedə bilərsən. Ancaq bil: kim sənə birinci su versə, çörək versə onun başı kəsiləcək. O qılıncı buna göstərin.

Mələklər kişiyə gecə yalquzaq gözü kimi parlayan nəhəng bir qılınc göstərdilər. Və kişi fikirləşdi ki, bununla adam yox, bir dəfəyə cöngə boynu vurmaq olar.

– Aparın bunu birinci pəncərənin qabağına.

Kişini gətirib birinci pəncərənin qabağında oturtdular. Yerə bağlayıb getdilər. Kişi gördü ki, gözünün qabağındakı şəkildə manqalda bişən yeddi şiş kabab çəkilib. Təptəzə qoyun ətindən. Manqaldan o yanda üst-üstə yığılıb, isti ətir qoxuyan təndir çörəkləri qoyulub. Bir az böyürdə də bulaq çəkilib, göz yaşı kimi təmiz su axır gözündən. Kişi ac-susuz düz bir həftə bu şəklin qabağında oturub yandı nə yandı.

Nəhayət, mələklər gəlib onu apardılar. Xalıya minib göyə qalxdılar. Uca dağın böyründən uçanda kişi gördü ki, zirvəyə qoyulmuş ot tayası od tutub yanır. Məşəl kimi. Ancaq dillənmədi. Çünkü bütün fikri ancaq suda idi. Yeməkdən də çox su içmək istəyirdi.

– Bir aşağı bax, gör nə görürsən? – soruşdu mələklər.

– Dindən-imandan savayı hər şey, – cavab verdi kişi.

Və bir azdan sehrli xalı göydən yavaş-yavaş aşağı enməyə başladı. Böyük, səsli-küylü bazarın yanında yerə qondu.

– Di get, – dedilər ona.

– Hara? – soruşdu kişi.

– Bazarın içindən keçib evinə üz tut. Amma şərtimizi unutma. Kim sənə birinci su, ya çörək versə, ayaqlarının altında öləcək, – dedi mələklər.

– Bilirəm, hər şey yadımdadı, – dedi kişi.

Və onlardan ayrılıb ayaqlarını güclə çəkə-çəkə bazarın içinə girdi. Gördü bir oğlan uşağı atasının qarpız satdığı yerin ətrafına su səpir. Ancaq uşağa yaxınlaşıb ondan su istəmədi.

Gəlib bir yemiş satan yekəpər adamın qabağında durdu.

– Buyur, xalaoğlu, dadına bax, könlünə yatsa al, – dedi yekəpər.

Kişi onun uzatdığı yemiş dilimini əlinə alan anda gördü ki, mələklər qılıncı sıyırıb yekəpərin başı üstə durdular. Dilimi qaytarıb dedi:

– Turşuyub, xalaoğlu.

– Sən özün turşumusan, dılğır! – bağırdı yekəpər.

Kişi başını aşağı salıb o yana getdi. Bazarın ətri, gözünün qabağına tökülmüş nemətlər kişinin ağlını başından almışdılar. O, birdən gördü ki, bir qız uşağı əlində tutduğu almanı bazarda veyillənən pişiyə atdı. Pişik almanı iyləyib, hirsli-hirsli qıza baxandan

sonra o yana getdi. Kişi əyilib almanı qaldırdı. Tozunu-torpağını yaxasına çəkib, ağzına aparmaq istəyirdi ki, mələklər peyda oldular. Biri qılıncı sıyırdı, o biri qız uşağını saçlarından tutub göyə qaldırdı. Kişi tez almanı yerə atdı. Mələklər qızdan əl çəkib yox oldular. Kişi bazardan çıxıb yerə oturdu. Ağlaya-ağlaya fikirləşdi. Və belə qərara gəldi ki, buradan birbaş çalpapağın evinə gedəcək. Ondan su istəyəcək. Əmin idi ki, düşməni ona bir oymaq da su qıymaz.

Yerdən daş qaldırıb darvazanı döydü. Çalpapaq qapını açdı.

– Qonşu, mən elə bu gün pəncərə qabağından çıxmışam. Mümkünsə mənə bir fincan su və bir tikə çörək ver. Boyat olsa da olar, – dedi kişi çalpapağa.

– Su nədi? Çörək nədi? Özü də boyat deyirsən. Ayıb deyilmi, qonşu? Mən sənə pislik eləmişəm. İndi sən mənim qapıma gəlmisən. Bir üç ilmək qara qoçum var, cöngə boydadı. Onu sənin ayaqlarının altında kəsəcəyəm. Ətini şişə çəkib, qardaş kimi üzbəüz oturub yeyəcəyik. Olan oldu, keçən keçdi, qonşu, – dedi çalpapaq və içəri keçib bir nəhəng qara qoçu buynuzundan çəkə-çəkə gətirdi. Gətirib kişinin ayaqlarının altına yıxdı. Kişinin heyrətdən dili tutulmuşdu. Bilmirdi neyləsin, nə desin. Çalpapaq cibindən bıçaq çıxarıb qoçun boğazına çəkmək istəyəndə mələklər gəlib onun arxasında durdular.

– Ya Allah! – dedi mələklərdən biri.

O biri mələk qılıncı sıyırıb bir göz qırpımında çalpapağın başını vurdu.

Sonra qara qoçun buynuzuna ip bağlayıb kişiyə uzatdı.

– Apar kişi, halal malındı. Evdə yolunu gözləyirlər. Apar bu heyvanı, kəsib uşaqlarına yedirt, – dedi mələk.

Və birdən kişi gördü ki, mələklərin kürəklərindəki qanadlar yox olub. Və gördü ki, mələklər ağ libaslarını birdən-birə adi kişi kostyumuna dəyişdilər, və sehrli xalıya yox, onları küçədə gözləyən bir uzun qara avtomobilə minib getdilər.

Kişi qara qoçu çəkə-çəkə aparanda qulağına çalpapağın evindən qopan ağlaşmanın səsi dəydi. Bütün məhəllənin camaatı indicə başı vurulmuş çalpapağın qapısına tərəf qaçırdı.

– Çalpapaq kişi piyan olub quyuya düşüb. O saat da ölüb! – bağırırdı məhəllənin uşaqları.

Kişi gəlib öz həyətinə girdi. Arvadları onun ayağına yıxılıb sevincdən ağlamağa başladılar, qoca anası eyvanda dayanıb ağlayırdı.

– Allaha inanmayan haramzadadı! Gördün, a kişi! Sən azad olan günü o pyanıska köpəkoğlu quyuya düşüb öldü! – dedi birinci arvad kişinin ayaqlarını yuya-yuya.

– Böyük oğlum hanı?

– Zoykanı otarır.

– Bəs gətirdiyim qara qoç hanı? – soruşdu kişi.

– Yəqin, evin dalına keçib, – cavab verdi arvad.

Evin içindən tavanın orta dirəyini cırıldadan nənninin səsi gəlirdi.

– Niyə uşaq bu vaxta kimi nənnidə yatır? – soruşdu kişi.

– Sən pəncərə qabağına aparılan gündən bəri uşaq böyüməyib. Elə çağa qalıb, – cavab verdi ikinci arvad arxadan.

Və kişi qanrılıb geri baxdı, sonra irəli. Gördü anası eyvanda dayanıb ağlayır, birinci arvadı onun ayaqlarını yuyur, ikinci arvadı da arxada dayanıb, amma otaqdan nənni səsi gəlir. Kişi yerindən sıçrayıb özünü evin içinə atdı. Və gördü ki, nənnidə bir göyçək, ana südü qoxuyan körpə uşaq yatıb mışılmışıl. Nənnini də qara qoç yırğalayır, ehtiyatla buynuz vura-vura...

# Su

Su əsr, il, ay, gün haqq-hesabı bilmirdi. Amma bilirdi ki, çoxdan, lap çoxdan laya yığılıb və yer üzünə çıxmaq vaxtı, allah bilir nə vaxtdan çatıb. Ancaq quyu qazıb onu üzə çıxaran yox idi.

Və günlərin bir günündə su gözləməkdən təngə gəldi.

– Atalar deyib, ağlamayan bəbəyə məmə verən olmaz, – dedi su.

Və "ya Allah" deyib, yerin altından yerin üzünə çıxdı. Bulaq oldu. Bulaq gözünü dünyaya açdı. Gördü ki, uzaqda əlində bir tikə çörək tutub, qışqıra-qışqıra bir oğlan uşağı qaçır. Onun dalınca da yekə bir kişi. "Dayan, dayan!", bağıra-bağıra. Uşaq birdən büdrəyib yerə yıxılır. Kişi özünü ona yetirib çörəyi əlindən alır. Yeyəndən sonra gəlib, yer üzünə yenicə çıxmış bulaq suyunun gözündən doyunca su içir.

– Okhəng! – deyir xoşhallana-xoşhallana.

– Qaytar mənim çörəyimi! – qışqırır uşaq uzaqdan ağlaya-ağlaya.

– Get özünə başqa tikə tap. Mən də uşaq olanda əlimdən çox çörək alıblar, – dedi kişi.Və yatdı. Ancaq yuxunu onun yerinə bulaq suyu gördü.

Gördü ki, yer üzünə yerin altından tamam başqa yerdə çıxıb. Durna gözü kimi axır. Gözəl, utancaq bir gəlin onu səhəngə doldurub, çiyninə qoyur. Yam-yaşıl otların, min rənglə qoxuyan çiçəklərin arasında salınmış cığırla gedə-gedə nəğmə oxuyur. Və gəlin nəğmənin son bəndini demək istəyəndə büdrəyir, səhəngi əlindən yerə salır...

Bulaq suyu o an yuxudan oyandı. Gördü ki, bayaq uşaq əlindən çörək alan kişi indi onun içində ayaqlarını yuyur. Su küsüb təzədən yerin altına qaçdı. Və o yer altının qaranlığında fikrə getdi. Elə fikirləşdiyi yerdə onu yuxu apardı. Amma yuxu görmədi.

Su əsr, il, ay, gün haqq-hesabı bilmirdi. Odur, oyananda bilmədi nə qədər yatıb. Hiss elədi ki, yenə də laya yığılıb. Gördü ki, quyu qazıb onu üzə çıxaran yoxdu.

– Ağlamayan bəbəyə çörək verməzlər, – dedi. Və üzə çıxdı. Bulaq oldu. Və "ya Allah!" deyib, bulaq gözü ilə dünyaya baxdı. Gördü ki, bir qız uşağı əlində çörək tutub, ağlaya-ağlaya hara isə qaçır. Onun dalınca "dayan, dayan!" qışqıra-qışqıra bir iri qadın düşüb. Uşaq birdən büdrəyib yerə yıxılan kimi qadın yetib, onun əlindən düşən çörəyi qaldırıb yeyir. Sonra gəlib bulağın suyundan doyunca içəndən

sonra yatır. Ancaq qadının da yerinə yuxunu bulaq suyu gördü.

Gördü ki, yer üzünə dünyanın lap başqa bir yerində çıxıb, mışıl-mışıl axır. Gördü ki, dağ boyda bir kişi gəlib, özünü kotana qoşdu, yeri şumladı. Sonra torpağa dən səpib, ora-bura baxdı. Bulağı görüb onun suyunu əkin yerinə verdi. Sonra qıraqda dayanıb gözləməyə başladı. Dənlər əvvəlcə cücərib torpağı səməni kimi başdan-başa örtdülər. Taxılın göy vaxtı uzun çəkmədi. Bulaq suyu gördü ki, gözünün qabağında sap-sarı sünbül zəmisi açılıb. Oğlan da taxılın yetişdiyini görüb zəminin qırağına gəldi. Böyründə sallanan qılıncı qınından çıxarıb, taxılı biçməyə başladı.

– Dayan! – qışqırdı bulaq suyu.

– Niyə? – soruşdu oğlan.

– Taxılı qılıncla biçməzlər, – dedi bulaq suyu.

– Niyə? – soruşdu oğlan.

– Qılınc adam öldürüb, – dedi bulaq suyu.

– Bəs nəylə biçərlər? – soruşdu oğlan.

– Oraqla, – dedi bulaq suyu.

– Oraqla olmaya adam öldürməyiblər? – soruşdu oğlan. Və yenə də qılıncla taxılı biçməyə başladı.

– Dayan! – dedi bulaq suyu.

Oğlan yerdən daş götürüb bulağın gözünü tutdu. Bulaq yuxudan oyandı. Gördü ki, bayaq böyründə yatan qadın yuxudan qalxıb indi onun içində

ayaqlarını yuyur. Bulaq küsüb yerin altına qaçdı. Yenə yer altında fikrə daldı. Fikirləşə-fikirləşə yuxuya getdi. Və hiss elədi ki, yuxusuna nə isə girib. Ancaq su nə qədər baxıb özünü yorsa da, yuxusuna girənin kim olduğunu yer altının zil qaranlığında görə bilmədi.

# Cehiz

Qızın atası toydan iki gün qabaq bir tay ot yüklədiyi eşşəyinin yedəyində xeyli gedib, Ayıdağın ətəyindəki kəndin içinə girdi və lap evin darvazası qabağında ayaq saxladı.

– Gəl şərti şumda kəsək, – dedi eşiyə çıxan kürəkəninə.

– Kəsək, – dedi kürəkən.

– Mənim nə mal-qaram, nə qoyun-quzum, nə əkinim, nə otlağım var. Allahın bircə dəst yorğan-döşəyi də yoxdu ki, qızıma qoşub sənin evinə yola salım, – dedi qız atası.

– Bəs qızına cehiz nə verəcəksən? – soruşdu kürəkən.

– Heç nə. Özünü. Onun qarnı düz qarındı, – dedi qız atası.

– Necə yəni? Xırdalasana, qaynata? – soruşdu kürəkən.

– Qızlar ərə gedib, arvad olub nə doğur? – soruşdu qız atası.

– Uşaq, – dedi kürəkən.

– Ananın yenicə doğub, əmizdirdiyi körpəsinə baxıb, deyə bilərsənmi bu uşaq böyüyüb peyğəmbər olacaq, ya indicə əmdiyi ananın əmcəyini kəsəcək? – soruşdu qız atası.

– Onu əvvəldən bilmək olmaz, – dedi kürəkən.

– Mənim qızım nağd doğacaq sənə. O doğan kimi biləcəksən dünyaya sənin belindən gələn kimdi, – dedi qız atası.

İki gündən sonra toy çalındı. Qızı apardılar bəy evinə. Qız oldu arvad, oğlan ər.

Doqquz ay, doqquz gün, doqquz gecə keçdi.

– Məni endir zirzəmiyə. Özündə get mamaça çağır. Vaxtım yetib. Doğuram, – dedi arvad.

Ər kəndin o başına qaçıb mamaçayla geri döndü. Mamaça zirzəmiyə endi. Yarım saatdan sonra eşiyə çıxdı.

– Gözün aydın, – dedi ərə.

– Oğuldu, qız? – soruşdu ər.

– Get özün bax, – dedi mamaça. Sonra həyətdən bir toyuq tutub, getdi öz evinə. Ər çıraq yandırıb zirzəmiyə endi. Gördü arvadı sinəsinə bir totuq oğlan uşağını basıb əmizdirir. Və arvadın ayaqları altında bir kuzə, bir zindan, bir də bir kürək var.

– Gəl, ərim, dəmirçi oğlun olub, – dedi arvad.

Ər uşağı ondan alıb yuxarı qaldırdı. Atıb-tutdu. Uşaq nə ağladı, nə güldü. Və atası onu yerə qoyan kimi əlini çəkicə uzatdı.

Arvad qalxıb, ərinin biləyindən tutub çəkdi. Onlar eşiyə çıxan kimi zirzəmidən zindana dəyən kuzənin səsi ucaldı.

– Gedək kişi. Biz buna gərək deyilik. Bunun çörəyi var, – dedi arvad.

– Halal olsun belə cehiz, – dedi ər.

Onlar evə keçib çörək yeməyə başladılar. Və o gündən kəndin camaatı onların evinə "Dəmirçi ocağı" dedi.

Bir gün Ayıdağdan əsən yeldən yanağı üşüyəndə, arvad qarnının altında ağrı hiss elədi.Ərini səslədi.

– Məni endir zirzəmiyə. Özün də qaç mamaça dalınca. Vaxtım yetib. Doğuram, – dedi arvad.

Kişi yenə də kəndin o başına yüyürüb, mamaçayla geri döndü.

Yarım saatdan sonra zirzəmidən çıxan mamaçadan soruşdu:

– Oğlandı, qız?

– Get, özün bax, – dedi mamaça.

Ər həyətdə eşələnən toyuqlardan birini tutub qoltuğuna vurdu. Getdi evinə. Sonra çıraq yandırıb zirzəmiyə endi. Və gördü ki, arvadı yerdə oturub ağlayır. Qucağında uşaq yoxdur.

– Doğduğun hardadır, arvad? – soruşdu ər.

– Sənin səsini eşidib gizləndi. Deyəsən, o darı kisələrinin dalındadı, – dedi arvad.

Ər çırağı qaldırıb darı kisələrinə sarı getdi. Ora baxanda, kim isə vurub çırağı onun əlindən yerə saldı. Ər yanğın olmasın deyə əyilib çırağı yerdən qaldırmaq istəyəndə, onun belindən sallanan xancalı qınından çıxarıb kim isə zirzəmidən qaçdı.

– Bu, yolkəsən, quldur çıxdı. Gedək kişi. Biz buna da gərək deyilik. Bunun da çörəyi var, – dedi arvad.

– Haram olsun belə cehiz, – dedi ər.

Və o gündən kəndin camaatı onların evinə “Oğru ocağı” dedi.

Vaxt dünyanın hər bir yerində ötüb gedir. Ayıdağın ətəyindəki kənddə də. Və günlərin bir günündə ər qapının ağzında oturub, ayaqlarını arxda yuyanda arxadan arvadının hənirtisini eşitdi. Qanrılıb, gördü ki, arvadı iki əli ilə şiş qarnının altından tutub zirzəmiyə tərəf gedir. Ər tez yerindən qalxıb ayağıyalın kəndin o başına, mamaçanın evinə sarı qaçdı.

Mamaça yarımca saat zirzəmidə qalıb eşiyə çıxdı.

– Gözün aydın. Bir uşağın da oldu, – dedi.

– Oğlandı, qız? – soruşdu yenə də ər.

– Get özün bax, – dedi mamaça.

Ər həyətdən bir toyuq tutdu, qoltuğunun altına vurub öz evinə yollandı. Sonra çıraq yandırıb zirzəmiyə düşdü. Gördü ki, arvadı sinəsinə bir arıq qarayanız qız uşağı sıxıb, sevincindən ağlayır. Körpə ar-

xaya baxıb atasını gördü. Görən kimi anasının qucağından düşüb zirzəminin küncündəki un çuvalının üstünə qaçdı. Çuvaldan bir ovuc un götürüb anasına yanaşdı, anasının döşündən unun üstünə üç-dörd damcı süd damızdırdı. Unu yoğurub, xamır elədi. Sonra xamırı atasının tutduğu çırağın odunda bişirib, zindanda dəmir döyən qardaşına verdi.

Arvad əriylə zirzəmidən eşiyə çıxanda dedi:

– Gedək kişi. Biz buna da gərək deyilik. Bunun da çörəyi var.

– Halal olsun belə cehiz, – dedi ər.

Və o gündən kəndin camaatı onların evinə "Çörək ocağı" dedi.

Ayıdağın ətəyindən kənddə yaz taxılı yığıldı. Taxıl xırmanda kürəklənib qurtaran kimi torpağa yonca etdilər. Mal otladığını otladı, qalanını camaat biçib həyətinə ot daşıdı. Sonra həmin yerdə bostan salındı. Payızında nemətləri yığılandan sonra kəndin camaatı gördü ki, Səlim kişinin oğlu öküzünü bir araba oduna qoşub gəlir. Və Ayıdağın ətəyindəki kənddə bildilər ki, o arabadan sonra həmişə qar gəlir.

Qışın ortasında arvad yenidən qalxıb evin ortasında durdu.

– Son qarnım gəlib, kişi. Get mamaça gətir, – dedi.

Ər kəndin o başına verdi özünü. Mamaçayla geri dönüb, zirzəminin qabağında gözləməyə başladı. Yenə də yarım saatdan sonra mamaça eşiyə çıxdı.

– Gözün aydın. Bir uşağın da oldu, – dedi.

– Oğlandı, qız? – soruşdu ər.

– Get özün bax, – dedi mamaça.

Ər hindən bir toyuq götürüb öz evinə yollandı. Sonra çıraq yandırıb zirzəmiyə endi. Gördü ki, arvadı yerdə oturub başına döyə-döyə ağlayır. Onun da qabağında bir qız uşağı durub ki, daha nə deyim! Aya deyir sən çıxma, mən çıxacağam, günə deyir sən çıxma, mən çıxacağam. İpək kimi saçları dizlərinə kimi tökülüb, iri, qapqara gözləri adamın üzünə qırpılmayıb baxır. Ata gördü ki, uşaq nə atasını sayır, nə anasını. Totuq barmaqlarıyla elə hey telini oxşayır. Gülə-gülə.

Ər arvadına baxdı yenə. Və bu anda qız uşağı saçını başıyla qabağından arxasına atıb çılpaq bədəniylə düz atasının üstünə getdi. Yavaş-yavaş, utanmaz-utanmaz, gülə-gülə. Kişi zirzəminin qapısından çəkilib ona yol verdi.

Qız uşağı zirzəmidən çıxıb yox oldu.

– Gedək kişi. Biz buna da gərək deyilik. Bunun da çörəyi var, – dedi arvad.

– Tüpürüm belə cehizə, – dedi ər.

Və o gündən kəndin camaatı onların evinə "Qəhbə ocağı" dedi.

Ayıdağın ətəyindəki kənddə neçə qışın buz nəfəsini neçə bahar isitdi, neçə yayın odunu payızın yağışları söndürüb soyutdu. İllər kənddən adam apa-

rıb, adam gətirdilər. Camaatın sözü-söhbəti neçə kərə köhnəlib, neçə dəfə təzələndi.

Və günlərin bir sazaqlı qış günündə ixtiyar qarı bardaş qurub oturduğu yerdəcə üzünü əlvan, qurama mütəkkəyə tutub, xısın-xısın, lap içindən ağlamağa başladı.

– Niyə ağlayırsan, qarı? – soruşdu əlvan yorğan-döşəkdən qoca.

– Uşaqları görmək istəyirəm, – cavab verdi qarı.

– Düş zirzəmiyə. Biri dəmir döyür, o biri çörək yapır, qarı, – dedi qoca.

– Mən gedən qızla oğlanı görmək istəyirəm, qoca, – dedi qarı, ağlaya-ağlaya.

Qoca nə isə demək istədi. Amma deyə bilmədi. Çünkü yaman öskürək tutdu onu.

## Qərar

Əzrayıl əlində tutduğu dörd kitabı Onun qabağına qoyub ətrafda dayananlara dedi:

– Ayıdağın ətəyindəki kənddə doğulub dördü də. Bir atadan, bir anadan. Bir oğlan dəmirçidi, o biri oğlan başkəsən. Bir qız çörək yapandı, o biri qız fahişə. Mənə elə gəlir ki, hər şey aydındı.

– Heç nə hələ aydın deyil, – dedi O.

Və içəri dəmirçini gətirdilər.

– Özün seç. Ağ qapı cəhənnəmə açılır, qara qapı cənnətə, – dedi dəmirçiyə O.

– Harada od-alov var? – soruşdu dəmirçi.

– Qara qapının dalında, – dedilər ətrafdakılar.

Dəmirçi başını aşağı salıb sağ qapıya tərəf getdi. Onu açıb, yox oldu.

Və içəri çörək yapan qızı gətirdilər.

– Özün seç. Ağ qapı cəhənnəmə açılır, qara cənnətə, – dedi O.

– Qardaşımı hara yolladın? – soruşdu qız.

– Özü cəhənnəmi seçdi. Mən onu cənnətə göndərəcəkdim, – dedi O.

– Məni ondan ayırma, – dedi qız.

Və çörək yapan qız da cəhənnəmə getdi.

O, üzünü Əzrayıla tutdu:

– Gördün heç nə aydın deyil?

– Axı sən qızı da, oğlanı da qanunla cənnətə göndərməliydin! – dedi Əzrayıl.

– Hansı qanunla? – soruşdu O.

Əzrayıl cavab verə bilmədi. Ətrafdakılara baxdı O. Onlar da başlarını aşağı salıb dinmədilər. O, qızla oğlanın kitabını kənara qoydu.

İçəri başkəsəni gətirdilər. O, başkəsənə bircə dəfə baxıb, qələmlə onun kitabının üstünə "Cəhənnəm" sözü yazdı.

– Sənə min şükür! – bağırdı Əzrayıl.

Və bu an cənnətin qapısından içəri bir ixtiyar qarı atdı özünü.

– Onu mənə ver, sənə qurban olum! Balamdı, illər uzunu görməmişəm, laylay deməmişəm beşiyi üstə, – yalvardı ana.

– Al oğlunun kitabını, bax. Gör nə qədər qan töküb. Özün bax, – dedi O.

Və başkəsənin kitabını qarıya uzatdı. Arvad kitabı əlinə alıb açmadı. Sinəsinə sıxıb, lay-lay deyə-deyə yırğalamağa başladı. Və qarının arıq, quru döşləri yavaş-yavaş dolub şişdi. Bir azdan məmələrinin ucundan başkəsənin kitabına süd dammağa başladı.

– Lay-lay demə, aç kitabı, oxu. – dedi O.

– Özün oxu, – dedi ana.

– Oxumuşam.Bilirəm, – dedi O.

– Bir də oxu, yalvarıram, – dedi ana.

Və kitabı Onun qabağına qoyub geri çəkildi. Oğlunun böyründə durdu.

O, kitabı xeyli vərəqlədi. Ancaq oxuya bilmədi. Çünkü yazıların hamısını qarının südü yuyub aparmışdı.

– Apar, hara istəyirsən apar oğlunu, – dedi qarıya O.

Ana oğlunu əlindən tutub, özüylə cənnətə apardı.

– Onu niyə cənnətə göndərdin? – qışqırdı Əzrayıl.

– Mən göndərmədim.Anası apardı, – dedi O.

İçəri çılpaq, ipək kimi dalğalanan saçları bədəninə tökülmüş gözəl bir qız girdi. Qara gözlərini bir dəfə qırpmayıb, gülümsünə-gülümsünə Onun üzünə baxmağa başladı. O, əlinə qələm alıb, qızın kitabını qabağına çəkdi. Fikrə getdi.

Əzrayılın səbri tükəndi.

– Bunun üstündə də fikirləşirsən? Yoxsa fahişəni də cənnətə göndərmək istəyirsən? Bilirsən bu nə qədər ev yıxıb? Neçə uşağı atasız qoyub? Neçə kişinin malını, pulunu dağıdıb? – bağırdı Əzrayıl.

– Bilirəm, – dedi O.

Və gözlərini kitabdan qaldırıb utanmaz-utanmaz, təbəssümünü çeyniyə-çeyniyə qara gözləriylə ətraf-

da dayananları süzən qıza baxdı. Qız hamını gözdən keçirəndən sonra üzünü Ona tutdu. Başıyla sinəsinə tökülmüş saçlarını arxasına atdı. Əzrayılın da, Onun da üzünə qəribə bir şeh dəydi qızın saçlarından.

– Gördün? – soruşdu Əzrayıl.

– Gördüm, – cavab verdi O.

Və qızın kitabının üstünə "Cənnət" sözü yazdı.

– Sən neyniyirsən? Bunu cəhənnəmə göndərmək lazımdır! – qışqırdı Əzrayıl.

– Əzrayıl düz deyir, – dedilər ətrafdakılar.

O əlindəki qələmi yerə qoyub ayağa qalxmaq istədi. Ancaq qalxa bilmədi təzədən öz yerinə oturdu. Nəfəsini gərdi.Və astadan dedi:

– Mən cəhənnəm odunda belə gözəl saçları yandıra bilmərəm...

## Quru arx

*Bu çöldə gəzib, gəzib axırda su tapacağıq. Tapdığımız o suyun yaxınlığında kənd salacağıq. Yaşayıb, yavaş-yavaş ömür sürəcəyik. Və o kəndin qırağında ilk ölümüzün ilk məzarının baş daşını qoyan kimi üzümüzü qibləyə tutub, deyəcəyik: – Bu torpaq bizimdir. Burda ölməyə başladıq biz. Kəndimizin suyu var, qəbiristanlığı da. Biz varıq...*

Səlim kişi bir gün sağ olanda əlində tutduğu beli çəlik kimi oynada-oynada qalxdı kəndin üstündəki təpələrin belinə ki, oradan axan arxdan camaatın cəmi iki hektarlıq qarpızına, yemişinə su versin. Ancaq sulaya bilmədi insanın torpaqda əkib becərdiyi Allahın nemətini. Çünkü Səlim kişi sağ olanda kor deyildi. Və təpələrin üstünə qalxan kimi gördü ki, arxda bostan sulamağa nədi, allahın aftafasına doldurmağa da su yoxdur.

– Sənin yuxu görən gözlərini, arvad! – bağırdı Səlim kişi, arxın cadar-cadar olmuş içinə tüpürüb.

Arvadının da gözlərinə onunçun söydü ki, canciyəri bu gecə yuxusunda duzlu balıq görmüşdü və səhər Səlim kişiyə çay süzəndə yuxusunu danışmış-

dı. Odur, Səlim kişi hayı gedib, vayı qalmış arxın üstündən aşağı enib kəndə gəldi. Və sağ olduğu üçün birbaş öz evinə yollandı. Həyətdə çömbəlib toyuq yonan arvadına bir söz demiyib, evin içinə keçdi. Oğlunu çağırdı.

– Ay oğul, ermənilər, deyəsən, arxın suyunu kəsiblər. Qapının ağzındakı beli götür, get. Get arxın suyunu aç. Ermənilərə də de ki, dədəm deyir ki, müsəlmanı da allah yaradıb, ona da su lazım olur. Amma dava-dalaş salma, – dedi Səlim kişi oğluna.

– Baş üstə, dədə! – dedi oğul.

Və gəlib gördü ki, qapının ağzında bel zad yoxdur. Qapını açıb eşiyə çıxdı. Gördü ki, bel burdadı.

– Görəsən, qapının ağzı bu tərəfdi, ya içəri tərəf? – soruşdu özü-özündən.

Və arxın üstünə qalxıb, erməni kəndinə sarı gedəndə elə hey fikirləşirdi ki, görəsən, qapının ağzı hansı tərəfdədi. Xeyli gedib, yel dəyirmanına çatanda ayaq saxladı.

– Allah bilir hansı tərəfdədi qapının ağzı! Bel ki əlimdədi! – özünə hirslənib, dedi oğul.

Sonra ayaqlarının yüyənini buraxıb, arxın qırağı ilə erməni kəndinə üz tutdu. Xeyli gedəndən sonra gördü ki, erməni kəndinin camaatı uşaqlı-qocalı arxın üstünə toplaşıblar.

– Gör bir köpəkuşağı neyləyir! – bağırdı içində oğul.

Amma gəlib gördü ki, ermənilər baş-başa, saqqal-saqqala verib, quru arxa baxa-baxa ağlayırlar.

– Hara gedirsən, ay müsəlman balası? – soruşdu ermənilər.

– Arxın suyunu açmağa, – dedi oğul.

– Get, oğul, Allah sənə də, atan Səlim kişiyə də ömür versin. Suyun qabağını, güman olsun ki, gürcülər kəsib. Onlara de ki, ermənini də Allah yaradıb, ona da hərdən bir su lazım olur, – dedi ermənilər.

– Baş üstə, – dedi oğul.

Ermənilər Səlim kişinin oğlunun sağ çiyninə ayın-oyunla dolu bir xurcun qoydular, xeyir-dua verib yola saldılar.

Oğul xeyli getmişdi ki, qulağına qəribə səslər, burnuna tünd çaxır iyi dəydi. Və oğul gördü ki, gürcülər quru arxın üstündə məclis qurub çaxır içə-içə oxuyurlar, oxuya-oxuya da ağlayırlar.Gürcülər Səlim kişinin oğlunun sol çiyninə bir tuluq çaxır qoyub, qayda-qanunla yola saldılar.

Oğul yeddi gün, yeddi gecə arx boyu getdi. Arxın içi bomboş idi. Qırx gün, qırx gecə də getdi. Arx içi yenə də susuz idi. Dağ aşdı, arxı quru gördü, səhra keçdi, gözünə bir damcı su dəymədi yenə arxın içində.

Oğul at olsaydı, nal tökərdi bu getdiyi yolda, quş olsaydı, qanad salardı. Ancaq ata belindən gəlib,

ana bətnindən çıxmışdı. İnsan idi. Bir əlində bel vardı. Odur, dayanmadı, ayaq saxlamadı Səlim kişinin oğlu. Getdi, elə hey getdi. Getməyib neyləyəydi axı? Axır ki, günlərin bir günündə Səlim kişinin oğlunun yolunu öz sualı kəsdi.

– Nə qədər getmək olar? – soruşdu oğul.

– Gedim görüm suyun qabağı harda kəsilib, – cavab verdi oğul.

– Yetər, geri dön, – dedi oğul.

– Yox, əşşi, bu qədər gəlmişəm, qoy bir az da gedim, – dedi oğul.

Və təzədən ayaqlarına toxtaxtlıq verdi. Getdi, getdi, getdi. Görmədiyi dağları gördü, keçmədiyi düzləri keçdi, başının üstündən adını bilmədiyi quşlar uçdu, qulağına adını bilmədiyi heyvanların mələşməsi, ulaşmasının səsi dəydi.

Və bir gün Səlim kişinin oğlu yoruldu. Elə yoruldu ki, yerə oturmağa da taqəti qalmadı. Ancaq bildi ki, bu gün yerə otursa, ayağa qalxmağa daha sabahı olmayacaq. Odur, Səlim kişinin oğlu axır gücünü qan-tərə bulaşmış ayaqlarına toplayıb, belin köməkliyi ilə iyirmi addım da atdı. Təpəyə qalxdı. Təpədən gördü ki, təpənin altından bir kənd başlanır və bu kəndin iyi öz kəndinin iyidi.

– Aman Allah, – dedi Səlim kişinin oğlu.

Uzağa baxdı. Gördü ki, baxdığı yerdə bir yel dəyirmanı fırlanır, o dəyirmandan da uzaqda bir ermə-

ni kəndinin bacaları tüstülənir. Və Səlim kişinin oğlu başa düşdü ki, arx boyunca gedib-gedib, bütün yer kürəsini fırlanıb, gəlib çıxıb öz kəndinə.

– Aman Allah! – dedi Səlim kişinin oğlu.

– Ə, bu qoca rəhmətlik Səlim kişiyə oxşayır yaman, – dedi kimsə bir yandan.

Bu kimsənin sözlərini oğul eşitdi. O an yadına düşdü ki, kənddən çıxanda adı Səlim kişi olan atası sağ idi.

– Aman Allah! – dedi rəhmətlik Səlim kişinin oğlu. Və əlindəki beli öz qapılarının yanında yerə atdı.

Qapının qabağında yerə mıxlanıb durdu. İçəri keçə bilmədi. Çünkü heç cür yadına sala bilmədi ki, qapının ağzı hansı tərəfindədi və hara açılır qapı.

# Darvaza

Bu dağ kəndinin arana bircə yolu var idi. İki qaya arasından. Və o kəndin yeganə, amma hamının zəhləsi getdiyi dəlləyi günorta çağı dükanından çıxıb, hasar boyu çömbəlib oturmuş adamlara baxdı.

– Gördünüz? Bunlar da daş evə girən kimi ağzına qapı qoydular! – bağırdı.

Sonra qayçısını oynada-oynada, eşiyə odekolon ətri qoxuyan dükanına girdi.

Çömbəlib oturan adamlar ayağa qalxıb uzağa baxdılar. Və uzaqda gördülər ki, dəllək köpəkoğlu adam olsa da, düz deyir. Daş evin qapısı vardı. Sarı rəngdə.

– Dəllək həm düz deyir, həm də düz demir. Qapı qoysalar da, yaxşı rəngdə rəngləyiblər. Sünbül rəngindədi, – dedi hamı bir ağızdan.

Dəllək onların sözünü eşidib özünü bayıra atdı.

– Vallah, sizi hər üzünə qırxmaq halaldı!

– Ə, nə olsun qapı əvvəl ağ idi, indi sarı? Rənginə niyə baxırsız? Özünə baxın! Düz-əməlli adamlar-

dısa niyə özlərini bizdən, bu yekəlikdə kəndin camaatından qapıyla ayırırlar? – dedi dəllək.

Və ayaq üstə duran adamlar başa düşdülər ki, dəllək ana əmcəyi kəsən olsa da, düz deyir. Ancaq dəlləyin sözlərini yaxşı götür-qoy eləmək üçün özlərini çayxanaya verdilər. Gəlib gördülər ki, çayçı şagirdi ilə nərd oynayır.

– Bizə çay gətir, – dedilər dəlləyin dükanından gəlib çayxanada oturanlar.

– Ancaq qaynanmış su var, – dedi çayçı.

– Necə yəni, ə? – soruşdular onlar.

– Necə yəni?! Ay köpəkuşağı, özünüz Acı yazğanın üstündəki çay kollarını buldozerin ağzına verib, çay yerinə süpürgə toxumları səpmədiniz ki, süpürgəliyə dəyəndən sonra toyuq-cücə buraxacağıq, toyuq-cücə torpağı gübrələyəcək, şoran yer dönüb olacaq qara torpaq, qara torpaqda da nə istəsən əkib becərmək olar? – dedi çayçı birağıza.

Və çayxanada oturanların yadına düşdü ki, doğrudan da, daş evdə olanlar bunlara başa salmışdılar ki, süpürgəlik çaydan qat-qat sərfəlidir bu kəndin camaatı üçün. Aşıq Saleh də bir gəraylı yazmışdı bu haqda. Bazar günləri daş evin qabağında dayanıb, orta Sarıtel üstündə oxuyurdu həmin gəraylını.

– Neyləyək? – soruşdu camaat elə camaatdan. Camaat camaata nə cavab verə bilərdi? Heç nə.

– Gəlin daş evdə oturanları qovub, ora dəlləyi qoyaq. Köpəkoğlu olsa da, camaatın dərdini-sirrini bilir, – dedi biri.

– Bəs üzümüzü, başımızı kim qırxacaq? – soruşdu o birisi.

Və qərara gəldilər ki, kənddə bir çimdik çay yoxdur, çayçı da bikardır. Daş ev çayçının yeridir. Gedib daş evin sarı qapısını yerindən çıxarıb kənara atdılar. Orda olanları iki yerə böldülər. Bir hissəsini kənddən qovub, o biri hissəsini dəllək dükanının dalında öz-özünə bitmiş kəndəlaşdan asdılar.

Hər kəs getdi öz işinə-gücünə.

Çayçı öz şagirdi ilə daş evdə oturub fikirləşməyə başladı. Xeyli fikirləşəndən sonra bir qoşma yazıb, Aşıq Salehi çağırdılar.

– Aşıq, sözü bizim, havası elin. Çaydan bir qoşma yazmışıq. Bunu evin qabağına çıxıb bir şux, nikbin hava üstündə oxu! – dedi çayçı.

– Sarıtelə yaxşı yatır, – dedi Aşıq Saleh qoşmanı oxuyub.

– Sarıteli unut, hələ ki sazın əlindən çıxıb, dalına girməyib! – bağırdı çayçının şagirdi.

Və kəndin camaatı gördü ki, Aşıq Saleh daş evin qabağında durub, sədəfli sazını sıxıb odlu sinəsinə dübeyti üstə, deyir, nə deyir.

– Ölmə, aşıq, hayıfsan! – bağırdı camaat və gözünün yaşını sildi.

Ancaq köpəkoğlu dəllək havanın sözlərinə diqqətlə qulaq asıb bildi ki, indən belə kəndin su gələn torpağında da, dəmyəsində də çay kolları əkiləcək.

Dəllək eşidən kimi də çıxdı. Ətraf yamyaşıl çay kollarına büründü. Civizliyi də baltalayıb, yerdə qalan kötükləri zülmlə dartıb çıxardılar. Orada da çay əkdilər.

Üstündən xeyli keçən kimi dəllək dükanından çıxıb, qayçısını oynada-oynada hasar boyu çömbəlib oturmuş adamlara tutdu üzünü:

– Ə, gördünüz? Bu da daş evə darvaza qoydu!

Camaat ayağa qalxdı. Ayağa qalxan kimi də hamı gördü ki, dəllək köpəkoğlu düz deyir. Evin qırmızıya çalan pürrəngi çay rəngində darvazası var.

– Yox, bu qapı qoysa da, qapını yaxşı rəngləyib. Pürrəngi çay rəngindədi, – dedi camaat.

– Ay əvvəm müsəlman! Nə fərqi var qapı nə rəngindədi? Qapı niyə qoyur axı, düz-əməlli adamdısa? Niyə özünü xalqdan ayırır? – bağırdı dəllək.

Camaat fikirləşməyə başlasa da, heç kəs fikirləşib bir şey tapa bilmədi.

– Müsəlmanın qarnı boş olanda, ağlı bir şey kəsməz, – dedi bir kişi.

Və bütün kişilər dükanın qabağından dağılışıb öz evlərinə gəldilər.

– Arvad, çörək gətir! – qışqırdı kişilər.

Və arvadları gətirib kişilərinin qabağına hərəsi bir kasa təzə dəmlənmiş çay qoydular.

– Bundan savayı heç zay yoxdu evdə, – dedilər arvadlar. Deyib, bir ağızdan ağlamağa başladılar. Diz döyə-döyə, başa vura-vura.

Və kişilər arvadlarını sinə döyən görüb, barmaqlarını dişlədilər. Barmaqlarını ağızlarından çıxarmayıb elə beləcə kəndin ortasına yığıldılar. Sonra gedib daş evin darvazasını qoparıb, yerə atdılar. Çayçını kənddən qovub, şagirdini körpüdən çaya atdılar. Boğazına daş bağlayıb.

– Başqa götür-qoyumuz yoxdur! Üzümüzü-gözümüzü tük bassa da, daş evə dəlləyi gətirib qoymalıyıq. Köpəkoğlu adam olsa da, bizim öz içimizdən çıxıb! – dedilər.

Camaat dəlləyi dükanında tapa bilmədi. Gəzib həyətdə də tapa bilmədilər. Zalım oğlu elə bil yoxa çıxmışdı. Ancaq dükanın qabağında başının yarısı qırxılmış bir uşaq ağlayırdı.

– Dəllək mənim başımın yarısını qırxıb harasa qaçdı. Böyüyəndə mənə bir qız gəlməyəcək, – deyirdi yanıq-yanıq uşaq.

– Hara qaçdı, ay uşaq? – soruşdu camaat.

Ancaq uşaq cavab vermədi. Cavab verməyə macal tapa bilmədi daha doğrusu. Çünkü uzaqdan Aşıq Salehin zili havalandı.

– Ölmə, aşıq, hayıfsan! – dedi camaat.

– Hələ belə oxumamışdı! – dedi camaat.

Və hamı Aşıq Salehin səsinə getdi. Xeyli yol ölçüb, axır ki, sədəfli sazın parıltısını gördülər. Gördülər ki, Aşıq Saleh kəndin arana aparan yeganə yolunun qabağını kəsib oxuyur. İki qayanın arasına da daş evin polad rənginə boyanmış darvazası qoyulub. Darvazanın da dalından Qaçhaqaçla qayçı səsi gəlir.

## Kaş ki, o gün olaydı...

Çiğatay iki yaşına yaxın ayaq açmağa başlayanda yıxılmışdı. Və bu yıxılmağı yadından çıxmışdı, böyüyüb polkovnik əfəndi Çiğatay Şirvan olandan sonra.

Dörd yaşı tamam olan günü atasının aldığı velosipeddən yerə dəyməyini unutmamışdı. Və yeddi yaşında, atasıyla anası səfərdə olanda Çiğatayın ayağının altından qara tutun nazik, quru budağı gedəndə və Çiğatay üç adam boyu hündürlüyündən aşağı gələndə velosipeddən yıxılmağı yadına düşmüşdü.

– Kaş ki, o gün olaydı... – demişdi Çiğatay.

Çünkü o vaxt velosipeddən yıxılanda yanında anası var idi. Və anası onu qucağına götürüb könlünü almışdı. O gecəni də yanında yatırmışdı. Və anasından dünyanın ən gözəl ətri gəlirdi. İndi isə anası səfərdə idi. Bağda isə bircə nənəsi qalırdı, bir də dayısı oğlu. Çiğatayın da onların ikisindən də zəhləsi gedirdi. Çünkü onların ikisindən də iy gəlirdi. Dayısı oğlu papiros qoxuyurdu, nənəsi sidik.

Sonra, illər ötəndən sonra Çiğatayı Bakının Bayıl həbsxanasından birbaşa almanlarla döyüşə apar-

mışdılar. Və Çiğatay cərimə rotasının əsgəri kimi ilk dəfə alman əsgərləriylə üz-üzə gələndə İçərişəhərdəki bıçaq davası, bıçaqladığı iki oğlan və özünün yaralanıb sonra tutulmağı yadına düşmüşdü.

– Kaş ki, o gün olaydı... – demişdi Çiğatay və birdən başına nə isə olmuşdu.

Gözlərini əsirlikdə açıb özünə gəlmişdi. Və alman konslaqerində bir dəri, bir sümüyə dönüb yadına Bakının Bayıl türməsini salmışdı.

– Kaş ki, o gün olaydı... – demişdi Çiğatay və ölümünü gözləməyə başlamışdı.

Ancaq ölüm gəlməmişdi. Ölüm yerinə alman konslaqerinə Türkiyə diplomatları gəlib, Azərbaycan oğullarına Türkiyə Cümhuriyyətinin pasportlarını və xeyli amerikan dolları təklif etmişdilər. Türklərin qabağına birinci Qubanın Krasnaya Sloboda kəndindən olan bir cuhud çıxmışdı, sünnətini göstərib və tərtəmiz azəri türkcəsində danışıb, Türkiyə Cümhuriyyətinin pasportunu və amerikan dollarlarını cibinə qoyub, İkinci Dünya Müharibəsiylə alverini qurtarmışdı. Cuhuddan sonra irəli Çiğatay çıxmışdı. Və 1947-ci ilə qədər İzmir hərbi Dəniz donanması məktəbində oxuyub, sonra günlərin bir günü, 1949-cu ildə kapral rütbəsində Koreyaya müharibəyə varmışdı. Savaşın ən qızğın günlərinin birində əsir düşmüşdü.

– Kaş ki, o gün olaydı... – demişdi Çiğatay və ölümünü gözləməyə başlamışdı.

Ancaq Amerika Birləşmiş Ştatlarının prezidenti Trumen, onun ulduzlu-zolaqlı bayrağı uğrunda döyüşüb kommunistlərə əsir düşən kapral Çiğatay Şirvanı ölməyə qoymamışdı. Beş Şimali Koreya əsiri verib, ayaqların sallamış türk zabitini geri almışdı.

Və lüt, anadangəlmə əsirin əyninə polkovnik libası geydirmişdilər. Və polkovnik Çiğatay Şirvan pəncərələri Bosforun mavi sularına açılan evində oturub, qazetləri oxuyarkən kommunistlərin və tred-yunionların Türkiyədə baş qaldırdıqlarını görmüşdü. Ancaq dinməmişdi. Baş qoşmaq istəməmişdi bu işə.

Və bir gün polkovnik Çiğatay Şirvanın evinə əsgərlər girib, onu polisə aparmışdılar. Və orada polkovnik Çiğatay Şirvan başa düşmüşdü ki, kommunistlərlə, tred-yunionların qalxan başı vurulanda o da gərək əlinə qılınc alaymış.

Ölüm cəzasına məhkum olunmuşdu polkovnik Çiğatay Şirvan üç general və on dörd polkovniklə birgə.

Və yazın əvvəlində, alçalar təzə-təzə çiçək açanda polkovnik Çiğatay Şirvan dar ağacından asılmışdı. Bursa həbsxanasının həyətində.

Və həmin günün gecəsi Bursa həbsxanasının morqunda polkovnik Çiğatay Şirvanın yadına həmin günün asıldığı səhəri və təzəcə çiçək açan alça ağacları və dar ağacı düşmüşdü.

– Kaş ki, o gün olaydı... – demişdi polkovnik əfəndi Çiğatay Şirvan və susub morqun meyitlərinə qoşulmuşdu...

# Öpüş

Dimdikburun Tapdığın oğlu Teymur gördü ki, dəstəylə pambıqdan gələn qızların içindən biri aralanıb çaya sarı getdi. Yarğana düşüb ayaqlarını Kürə soxdu. Qız başını yuxarı qaldırıb başının üstündən bağıra-bağıra o taya uçan alaquyruq saxsağana baxanda Tapdığın oğlu qızı tanıdı.

Tez Alıoğlunun boz, axta atının çılpaq belinə sıçrayıb, qızın yanına səyirtdi. Atdan düşüb qıza yanaşdı.

– Az, Sona, bir bəri gəl, sənə gürzə yumurtaları göstərəcəyəm, – dedi Teymur.

– Hardadı? – soruşdu Sona.

– Budu ha, yarğanın dibində, – dedi Teymur.

Qız ayağa qalxdı. Yarğanın dibinə çatan kimi Teymur badalaq vurub, qızı altına yıxdı. Möhkəmcə sıxıb, qımıldanmağa da qoymadı.

– Neynirsən, ə, köpəkoğlu! – dedi qız.

– Dodaqlarından öpmək istəyirəm, – dedi Teymur.

– Öpmə. Mənim dodaqlarım murdardı, – dedi Sona.

– Niyə, az? – soruşdu Teymur.

– Bu dodaqlarla kəndin bütün camaatına qarğımışam, – dedi Sona.

– Qarğıyanda nolar, az? Qoy öpüm! – dedi Teymur.

– Bu dodaqlarımla söyüş söymüşəm, – dedi Sona.

– Söyəndə nolar, az? Kiri, qoy bir dodaqlarından öpüm, – dedi Teymur.

– Bir dayan! Bu dodaqlarımla yalan demişəm, – dedi Sona.

– Az, yalan danışanda dünyamı dağılır? Qoy öpüm dodaqlarından, – dedi Teymur.

– Dayan. Bu dodaqlarımla keçən il adam tutdurmuşam, – dedi Sona.

– Az, tutulan elə tutulasıdı. Kiri, qoy öpüm dodaqlarını, – dedi Teymur.

– A Teymur, bu dodaqlarımla demişəm Allah yoxdur, – dedi Sona.

– Az, yoxdu, yoxdu! Mənə nə? Öpəcəyəm dodaqlarını, – dedi Teymur.

– Bir dayan, a Teymur! Keçən ay meşədə zoğal yığanda bu dodaqlarımdan Dəli Alının oğlu Kamal öpüb, – dedi Sona.

Və sözünü qurtarmamış qulağı şillədən cingildədi. Sonra Teymur ayağa qalxıb qızın döşlərindən təpik tutuzdurdu.

– Allah səni öldürsün! Qara günə qalasan! Anan oğul üstə ağlasın! – qarğıdı Sona.

Teymur qızın döşlərinə yenə də təpik vurdu.

– Köpəkoğlu! Oğraş köpəkoğlu! – söydü Sona.

Teymur qızın üzünə tutuzdurdu bir təpik. Sonanın burnundan qan açıldı.

– Ayə, yalan dedim! Öpməyib məni dəli Alının oğlu! Vallah öpməyib! – dedi yalandan Sona.

Teymur ayağına yumruqlarıyla da qüvvət verdi. Qızın üzü-gözü qana bulaşdı.

– Səni tutduracağam! Bandit köpəkoğlu! – hədələdi Sona.

Ancaq Teymur onu lap pis vurmağa başladı. Təpiyini qızın ağzının üstündən tutuzdurdu. Sonanın üst dodağı partladı.

– Ə, Allahın olsun! – bağırdı Sona.

Kara gəlmədi sözü. Teymur lap coşdu.

– Görərsən, elə bu axşam öz ayağımla gedib, Alının oğlu Kamala öpüş verəcəyəm! – qışqırdı Sona.

Teymurun bir anda əli-ayağı qurudu. Dizləri əsdi.

Və o, qızın üstünə yıxılıb ağzıyla onun dodaqlarından yapışdı. Sona gözlərini yumdu. Ala saxsağan o taydan Kürün üstüylə bağıra-bağıra bu taya uçanda da Sona gözlərini açıb quşa baxdı, ancaq dodaqlarını Teymurun dodaqlarından ayırmadı.

# Oğul məzarı

Ana oğlunun qəbri üstə ancaq balasının qırxı çıxandan sonra ayaq açdı. Əvvəlcə arvadlarla birgə gəlib, Ayıdağın ətəyindəki kəndin nə qədər dil deyən, diz döyən ağbirçəyi, gəlini varsa səsini onların səsinə qatdı. Başına kül qoydu, qəbir qumu səpdi, oğul məzarı üstə durub, Ayıdağa ağladı. Sonra tək gəldi oğul məzarına.

– Ölüm-ölüm, ay oğul! – dedi ana.

– Səsinə qurban olum, ana, – dedi məzardan oğul.

– Mən sənə qurban, a bala! – bağırdı ana.

– Yanıram, ana, yanıram, – dedi oğul.

– Niyə yanırsan, a bala? – soruşdu ana.

– Qanım yerdə qaldı, ana, – cavab verdi oğul.

– Tapammadılar səni vuran namərdi, bala! Tapammadılar, sənə qurban olum, – dedi ana.

– Məni Seyfəddinin oğlu Qulam vurdu, ana, o çaxmaqlı tüfəngiylə, – dedi oğul.

Ana ağlaya-ağlaya kəndə qayıtdı. Həyətdən üç toyuq tutub kəsdi, yonub ütüdü. Üstünə əlli-altmış

yuxa, bir qab qaymaq, bir vedrə də may gilası qoyub pay düzəltdi. Poçt yoluna çıxıb "Tbilisi-Bakı" avtobusunu əylədi.

Gəldi rayon mərkəzindəki milis idarəsinə. Ayınoyunu gəldiyi ocağa halal eləyib, sinəsini açdı.

– Mənim oğlumu Ovçu Qulam öldürüb, – dedi ana.

– Narahat olma, ana, yoxlayarıq. Qoymarıq oğlunun qanı yerdə qala. Biz də ana südü əmmişik, – dedilər anaya milis idarəsində.

Və Ovçu Qulamı çağırdılar. Ovçu Qulam milis idarəsinin qapısından içəri ayaq basan kimi tüfəngini ortalığa qoyub hər şeyi boynuna aldı.

– Arvadıma sataşmışdı, – dedi Ovçu Qulam.

Və məhkəmə Ovçu Qulama güllələnmə kəsdi. Adam öldürdüyünə görə.

Ovçu Qulamın evində ölüm kağızı oxunub, Ayıdağın ətəyindəki kəndə yenə ağlaşma düşəndə, ana oğlunun üstünə gəldi. Və ağladı.

– Ölüm-ölüm, ay oğul! – dedi ana.

– Sənə qurban olum, ana, – dedi oğul məzardan.

– Qoymadım qanın qara yerdə qalsın, bala. Ovçu Qulamı güllələdi hökümət, – dedi ana.

– Ana, sənə qurban olum, sataşmamışdım mən onun arvadına! Sataşmamışdım! – dedi oğul.

– Bəs nə olmuşdu aranızda, a bala? – soruşdu ana.

– Qızıl tapmışdıq, ana. Sınıq Qalanın altından. Bir küp qızıl onluq, ana! Məni Qulam öldürdü, Qulamı hökümət. Qızıllar dəli Alının oğlu Kamala qaldı, ana. Yanıram, ana, yanıram, – dedi oğul.

Ana ağlaya-ağlaya kəndə qayıtdı. Ayın-oyun düzəldib, bir xurcun payla poçt yoluna çıxdı. Avtobusu əyləyib, rayon mərkəzinə gəldi.

– Qızıl üstə öldürübmüş balamı Ovçu Qulam. Kamalın evindədi bir küp qızıl, – dedi ana milis idarəsində.

Milis işçiləri maşınlara minib kəndə şığıdılar. Dəli Alının oğlu Kamalın evini araya alıb, içəri soxuldular. Tövlədə yerə basdırılmış bir küp qızılı tapıb, Kamalı məhkəməyə verdilər. Məhkəmə ona dövlətə böyük zərər vurduğu üçün ölüm cəzası kəsdi.

Kamalın güllələnmə kağızı kəndə gəldi. Və onun da evində araya vay düşdü. Ana ağlaya-ağlaya oğlunun üstünə getdi...

Və neçə ildir əlində ayın-oyunla poçt yoluna çıxan ana "Tiflis-Bakı" avtobusuna əl qaldırır, əyləməyə macal tapmır. Çünkü şofer onu görən kimi özü avtobusu yolun qırağına verir. Və bu ağır avtobusun tormozunun ətkəsən səsi Ayıdağın qarışıq meşələrində də eşidilir.

# Muğamat konserti

Yataqdan poçt yoluna qədər var-yox ikicə kilometr ancaq olardı. Əhmədin də pavilyonu elə bu yolun o tərəfindəydi. Televizor da həmin yol qırağındakı Əhmədin pavilyonunun içində. Bu pavilyon alüminlə şüşədən tikilmişdi. Şüşələr qışda tərləyərdi, yayda tozlanardı. İlin bütün fəsillərində isə şüşələrdən tütün qoxusu gəlirdi. Elə həmin bu pavilyonda srağagün dimdikburun Tapdığa Əhməd demişdi:

– Ə, birigün axşam səkkizdə muğamat konsertidi. Gəl bax, gözün qoyundan savayı da başqa şey də görsün.

– Bu gün də elə Əhməd deyən həmin birigün idi. Saat da səkkizin yarısı idi. Muğamat konsertinə düz yarım saat qalırdı.

Və dimdikburun Tapdıq yataqdan eşiyə çıxıb şoran düzün üstəki qırmızımtul göyə baxdı, sonra arxasında qıpqırmızı qızarıb batan nəhəng günəşə qanrıldı, sonra da üzünü poçt yolundan keçən maşınların uzaq səsi gələn tərəfə tutub, burnuyla yovşan iyi çəkdi.

– Ya Allah! – dedi dimdikburun Tapdıq.

Sonra saatına baxdı. Səkkizin yarısı idi. Və dimdikburun Tapdıq yataqla televizor arasındakı yolu getməyə başladı. Gedə-gedə əvvəlcə Allaha dua elədi ki, işığı perekaçkada kaş kəsməsinlər. Pavilyonda elektriksiz neft lampasının işığında oturub yeyib-içmək olur, amma televizora baxmaq mümkün deyil. Sonra fikirləşdi ki, perekaçkada olan köpəkuşağı da hökmən muğamat konsertini gözləyirlər. Odur işıqdan xatircam olub, keçən il bu qışlağa gəlməklərini yadına saldı. Və yadına düşdü ki, bax elə o yastı təpənin üstündə ləzgi çobanlarıyla davaları düşmüşdü. Heç nəyin üstündə. Ləzgilərin bir neçə qoyunu onun sürüsünə qarışmışdı. Ləzgi çobanı Osman köpəkoğlu da at belində gəlib dava salmışdı, qoyunlarını qabağına salıb sakitcə getməkdənsə. Çünkü Dağıstanın qoyunları itquyruq merinos cinsiydi, bizimkilər xalis müsəlman qoyunları. Ayırmağa nə vardı ki? Ancaq Osman dava saldı. Çünkü ləzgi köpəkoğlu bütün Şorabat düzünə ağzından qıcqırmış araq qoxuyurdu. Bir yandan bizim çobanlar töküldü, bir yandan ləzgi çobanları. Vurhavur başlandı... Səhərisi gün ləzgilərin başından araq havası getdi, başları açıldı. Fikirləşdilər ki, yad yerdədilər, gəmidə oturub, gəmiçiylə dava eləmək olmaz. Odur, üç qoç kəsib, qonaqlıq verdilər. Barışdılar.

Elə bu barışıqda dediyi, ləzgilərin də, bizimkilərin də xoşuna gələn tostunun sözlərini xatırlamaq istə-

yirdi ki, dimdikburun Tapdığın ayağı nəyəsə ilişdi. Üzüqoylu yerə dəydi.

– Tfu, sənin ananı! – söydü yovşan qoxusunu dimdikburun Tapdıq.

Və ayağa qalxıb, gördü ki, ayaq üstədir. Əlində də bir stəkan araq tutub tost deyir. Böyründə də ləzgi çobanları və bizim çobanlar oturub. Günəş başının üstündədir. Vaxt da ki, keçən ildir.

– Aman Allah! – dedi dimdikburun Tapdıq.

Və əlində bir stəkan arağı tuta-tuta yastı təpəni aşdı. Qızmar günəş altda ilan mələdən Şarabat düzünün içiylə üz tutdu poçt yoluna tərəf. Saatına baxdı. Gördü ikinin yarısıdır. Və muğamat konsertinə düz bir il altı saat qalıb.

Xeyli ayaq döyəndən sonra dayandı. Əlindəki stəkana baxıb, arağı başına çəkdi. Sonra stəkanı yerə atdı ki, sındırsın. Ancaq stəkan sınmadı. Tapdıq çömbəlib, gözlərini şoran torpağın tozuna bulaşmış stəkana zillədi. Stəkan dümağ olmuşdu rəhmətlik anasının mirvari gəlmiş gözləri kimi. Və dimdikburun Tapdıq indinin özündə də bilmirdi ki, anasının gözlərinə mirvari haradan gəlib çıxdı. Ocaqdan közmü düşmüşdü, yoxsa kanalın suyuna pambıq dərmanı səpmişdilər təyyarələrdən? Tapdığa bir adam düz-əməlli cavab verməmişdi. Və üç il bundan qabaq, bir yaxşı cəmdəyi bir ağappaq bezə büküb, anasını da götürüb Bakıya, göz xəstəxanasına

gətirəndə də həkim payı alıb, arvada xəstəylə dolu xəstəxanada yer verib, demişdi:

– Operasiya eləmək lazımdı.

Amma arvadın operasiyadan sonra canı çıxmışdı. Və Tapdıq anasını kəndə gətirib basdırandan sonra bir gün təzədən Bakıya qayıtmışdı. Təzə ov tüfəngi almağı "Vosnoxotda" işləyən Qrişadan. Ancaq Qrişanın dükanı təmirdə olduğundan Tapdığın sövdası baş tutmamışdı.

Və Tapdıq restorana gedib tüfəngin pulunun başına kül qoymuşdu. Və elə həmin restoranda anasını operasiya eləyib öldürən həkimin anasını ağlatmışdı. Restoranın ayaqyolusunda üzbəüz gəlmişdi həmin həkimlə...

İndi də dimdikburun Tapdıq ayağa qalxıb gördü ki, həkim ayaqyolu qoxuyan ayaqyolunun yerinə sərilib, onu yumruqla vurub yerə salan və indi də üzgözünə siyən çobana baxa-baxa qışqırır:

– Помогите! Помогите!

Sonra gecə ikinin yarısında Tapdığın dörd yüz manat pulunu götürüb, özünü milisiyadan buraxdılar.

Və Tapdıq yuxuya getmiş şəhərin içiylə yeriyə-yeriyə saatına baxdı. Gördü ki, saat gecə ikinin yarısıdır. Və muğamat konsertinə düz dörd il, bir sutka vaxt qalıb. Xoşbaxtlıqdan Tapdıq bir yük maşınının şoferini dilə gətirə bildi. Şoferə pulsuz yük olub

poçt yolunun qırağındakı pavilyonun qabağında yerə düşdü.

O vaxt pavilyonun müdürü Əhməd deyildi. Bir cavan oğlan idi.

Və Tapdıq ondan bir stəkan araq alıb, başına çəkəndən sonra stəkanı beton döşəməyə vurub sındırdı...

Və Tapdıq şoran düzün tozuna bulaşmış stəkanı əlinə götürüb bir də yerə vurdu. Stəkan yovşan üstünə düşüb yenə sınmadı.

Və Tapdıq yarı yoldan geri döndü. Uzaqdan hürüb üstünə gələn, ancaq yaxınlaşan kimi onu tanıyıb geri çəkilən itlərin üzünə də baxmayıb, yatağa girdi. Özünü qara damın küncündəki palasın üstünə yıxıb gözlərini yumdu. Və birdən bir gün kimi anadan olub bu gün kimi yaşadığı günlər düşdü dimdikburun Tapdığın yadına. Sonra birdən yadına düşdü ki, pavilyonçu Əhməd onu televizorda muğamat konsertinə baxmağa çağırmışdı. Yerindən qalxmaq istədi. Qalxa bilmədi. Və ağlamağa başladı. Ancaq anası onu qucağına alan kimi səsini kəsdi.

– Ağıllı baladı, çiçi baladı. Ağlayan kimi kiriyən baladı, – dedi anası onu yırğalaya-yırğalaya.

Və Tapdıq balaca gözlərini yumub rahatca yuxuya getdi. Çünkü bilirdi ki, muğamat konsertinə hələ çox, yaman çox vaxt qalıb, aləmi yovşan iyinə bürümüş bu şoran düzdə...

## Qış yuxusu

– Qancıq, it qızı! Bu il də doğmasan, dədən evinə göndərəcəyəm! – bağırdı Teymur.

Sonra evin içində palazın üstünə sərilmiş arvadının qarnından bir təpik də tutuzdurub eşiyə çıxdı.

– Əlinə, ayağına qurban olum, oğul! – dedi Teymurun anası eyvanda oturub düyü arıtlaya-arıtlaya.

– A ciji , utandığımdan kəndə də çıxa bilmirəm, – dedi Teymur.

– Doğmayan arvad hürməyən it kimi şeydi, a bala. Yediyi də, içdiyi də haramdı, – dedi anası.

Gülzarın bu ocağa gəlin gəldiyi dörd il idi. Ancaq doğmamışdı. Odur, Teymurun evində gündüzün işığında da, gecənin qaranlığında da gileyin, narazılığın söyüşü eşidilirdi.

Teymur Gülzarı neçə həkimə göstərmişdi, nə qədər xərc çəkib, ayın-oyun dağıtmışdı, di gəl, oğul-qız sarıdan ötrü göynəyən burnu soyumamışdı. Uşağı olmurdu Gülzarın.

– Bunun qarnı qaraçı qəbridi! Üstündə nə daşı var, nə xaçı! Qaraçı qəbridi bunun qarnı! – bağırmışdı bir gün Teymur.

Və o gün kəndə xəbər yayılmışdı ki, İnnalı kəndinin böyründə qaraçı köçü yurd salıb.

Naxırçı Abbas da o gün bu kəndin mal-qarasını qabağına qatanda camaat onun çiynindən asılmış beşatılan görmüşdü. Qaraçılar da Abbasın tüfəngini görüb sürüyə gendən də baxmağa cürət eləməmişdilər. Odur, dağılmışdılar kəndlərə dilənməyə, fal açmağa, dəyiş-düyüş eləməyə.

Və bir qaraçı arvadı böyründə beş-altı uşaqla Teymurun qapısına gəlmişdi.

– A ciji, qov o it qızını! – bağırmışdı Teymur.

– Kiri, köpəkoğlu! Qoy bir fal açsın görüm, – demişdi anası.

Və bir dəmir manatlığı ovucunda bərk-bərk sıxıb, qaraçı nə qədər dil-ağız eləsə də, pulu ona əvvəlcədən verməyib, gəlinin falına baxdırmışdı.

– Arvad, sənin gəlinin gərək boğaz ayının piyini yesin. Onda doğacaq, – demişdi qaraçı arvad.

Və dəmir manatlığı Teymurun anasından zorla alandan sonra varıb getmişdi. Və qaraçı arvadın sözləri kənddə hamının yadından çıxmışdı. Bircə Gülzardan savayı. Və Gülzar bir gün məqam tapıb dədəsi evinə qaçmışdı. Həyətdə atasının ayaqlarına yıxılıb ağlamışdı.

– A dədə, qurbanın olum, mana əlli manat pul ver, – demişdi Gülzar.

Və atasından əlli manat alıb özünü Ovçu Muradın evinə salmışdı. Ovçu Muradın ayağı altına yıxılıb, gözündən sel kimi su axıtmışdı.

– A Ovçu Murad, ayaqlarına qurban olum, bir boğaz ayı vur, piyini mana gətir! – demişdi Gülzar.

Və Ovçu Murad əlli manatı cibinə qoyub demişdi:

– Bir aydan sonra qalxacağam meşəyə. İyulun ortasında. Ayılar hələ indi cütləşir.

Və Gülzar öz evinə gəlib, dizi üstə tavana çöküb üzünü qibləyə tutmuşdu.

– Ay Allah, sana qurban olum, nəzərin mənim ayımın üstündən əskik olmasın, sana qurban olum, qoru mənim ayımı! – ağlamışdı Gülzar Allaha dua eləyə-eləyə.

Və iyulun axır günlərinin birində Ovçu Murad iyirminci kalibr tulkasını çiyninə aşırıb üz tutmuşdu Ayıdağın meşələrinə. Ləzgi Sədrəddin kişiylə görüşüb ayı yeri manşırlamışdı. Öyrənmişdi ki, bir ayı Top palıdlıqla qara Qarasuyun arasındakı arpalığa dadanıb.Və Sədrəddin kişinin dediyi yerə gəlib, Ovçu Murad görmüşdü ki, burada bir ayı yox, düz üç ayı arpa sovurub hər gecə qarın doldururlar.Ovçu Murad ayıların saldığı cığırın böyründəki palıdlardan birinə dırmanıb, özünə oturaq qayırmışdı. Oturub axşamın düşməyini gözləmişdi. Və alaqaranlıq düşəndə Ovçu Murad gözlərini ayı cığırına zilləyib, tü-

fənginin çaxmaqlarını çəkmişdi. Ovçu Murad bilirdi ki, meşədə gəzən tısbağanın səsini eşitmək olar, ayının yerişini yox. Odur, bütün gücünü gözlərinə vermişdi.

Ovçu Muradın tüfəngi açılmışdı. Cəmi bircə də-fə. Və ayı cığırında ayı leşi qalmışdı. Və Ovçu Murad vurduğu ayının üstündə dayananda heyvanın dişi, özü də boğaz olduğunu görmüşdü.

– Şükür Allaha, İslamın sonsuz qızını aldadası ol-madım, – demişdi.

Və Gülzarın əlli manatını ancaq soyduğu ayının içindən bir-birinə yapışmış iki balanı çıxarıb kənara atanda özünə halal eləmişdi. Sonra ayının dərisinə bir az sarı, üfunətli piyindən qoyub kəndə dönmüş-dü.

Əl-üzün yuyub, çörəyini yeyəndən sonra, ayının piyini bir parça qəzetə büküb, özünü Teymurun evinə gətirmişdi. Salam verib, hal-əhval tutandan sonra oturmuşdu eyvanda Teymurla çay içə-içə rayona Bakıdan gəlmiş təzə prokuror haqqında da-nışmağa.

– Bizim köhnə prokuror tutulsa da, köpəkoğlu olsa da, camaatı dolanmağa qoyurdu. Təzəsi, Allah bilir, hansı yuvanın quşudu, – demişdi Teymur.

Və Gülzar prokurordan danışan ərinin qabağına çay qoyan anda Ovçu Murad ayı piyini ona ötür-müşdü. Və Gülzar ürəyi döyünə-döyünə, ayı piyini yaxasında gizlədib, ayaqyoluya qaçmışdı. Ayaqyo-

lunun qapısını içəridən cəftəylə bağlayıb, saysız-hesabsız göy milçəklərin vızıltısına qatmışdı duasını.

– Ay Allah, mana kömək elə, kömək elə mana! – demişdi Gülzar.

Və ayaqyolunun içindəcə Allaha dua eləyib, ağlaya-ağlaya ayı piyinin hamısını yemişdi.

Axşam Teymur çörək yeyəndə əlindəki tikəsini boşqaba qoyub geri çəkilmişdi.

– İştaham küsüb, ay ciji, – demişdi.

– Küsər dana, a bala, arvadı sonsuz olan kişinin boğazından tikə getməz. – demişdi anası.

Və Gülzar tez içəri keçib, bir şüşə araqla geri dönmüşdü.

– A Teymur, araq iç, iştahan açılsın, – demişdi.

– Gör bir ölmüş ərinin iştahasını nəylə açır! – bağırmışdı Teymurun anası.

Teymur araqdan vurub, yaxşıca yemişdi.

Və ərini içən görən Gülzar sevinmişdi. Çünkü bilirdi ki, Teymur sərxoş olanda onu döysə də, gecə hökmən yanına girəcək. Yuxusunu onunla bölüşdürəcək. Və yanılmamışdı.

Həmin gecəni Gülzar əriylə keçirmişdi.

Və o gecədən ay yarım keçəndən sonra bir səhər Gülzar yuxudan gec qalxıb eşiyə çıxanda, eyvanda dayanıb həyətdə təndirdə ocaq qalayan qaynanasına baxa-baxa şirin-şirin gərnəşmişdi.

– Az, nə gərnəşirsən orda! Gəl təndiri qala, qancıq! – bağırmışdı Teymurun anası.

– Qancıq özünsən, az! Qoca kaftar! – qışqırmışdı Gülzar.

Və Teymurun anası Gülzarın belə cavabından başa düşmüşdü ki, gəlinin boynunda uşaq var. Olmasa, səsini qaldırmazdı.

– Atam-anam sana qurban, a gəlin! – demişdi qaynana Gülzarın o üzündən, bu üzündən öpə-öpə.

– Get mana çay gətir, a ciji, – demişdi gəlin.

Və o günün gecəsini Teymur rayon mərkəzinin vıtrezvitelinin həyətində yatmışdı. Və doqquz ay, doqquz gün, doqquz gecə keçəndən sonra Teymur bir axşam rayon mərkəzindəki doğum evindən kəndə qayıdıb, anasına bir söz deməyib, həyətin düz ortasında naxırdan təzəcə gəlmiş bir tox qoçu kəsəndə anası soruşmuşdu:

– Oğuldumu, a Teymur?

– Oğuldu, a ciji! Oğul bala! – cavab vermişdi Teymur.

Və o gecə səhərə kimi Teymurun həyətində Aşıq Salehin səsi havalanmışdı, qoçun üzünə beş hinduşka da kəsilmişdi, evin yuxasına qonşu evlərin çörəyi də qatılmışdı. Düz üç yeşik araq içilmişdi.

On gündən sonra Gülzar xəstəxanadan gəlib, oğlunu əmizdirə-əmizdirə böyütməyə başlamışdı.

Uşaq dünyaya aprelin axırında, may qabağı gəlmişdi. Səhərdən axşama kimi anasını marçıltıyla əmə-əmə cana-başa gəlirdi. Özü də çox şux körpə idi. Atanın, ananın, nənənin bütün qohum-əqrəbanın sevinci yerə-göyə sığmırdı.

Yaz keçdi, yay keçdi. Ancaq payız gələndən uşağın səsi aləmi başına yığdı. Ana döşünü onun ağzından çəkən kimi körpə ağlamağa başlayırdı. Özü də necə, aman Allah.

Onsuz da kök, canlı uşaq olsa da, elə hey yemək istəyirdi. Gülzar lap əldən düşmüşdü. Belə getsəydi, yəqin ki, elə körpəsini əmizdirdiyi yerdəcə bir gün canı çıxacaqdı. Ancaq payızın axırında uşaq yavaş-yavaş süstləşməyə başladı. Ana döş verəndə əmsə də tənbəl əmirdi.

Və bir gün kəndə ilk qar yağanda uşaq yuxuya getdi. Ana nə qədər elədisə də körpəsini ayılda bilmədi. Həkimlər də bir çarə tapa bilmədilər.

Və Gülzarın yeganə oğlu bütün qışı yatdı. Yazın əvvəlində gözlərini açıb ağlamağa başladı ancaq.

Və o vaxtdan uşaq hər il qış yuxusuna getməyə başladı.

Neçə il keçəndən sonra kəndə yenə də xəbər yayıldı ki, İnnalı kəndinin böyründə qaraçı köçü özünə yurd salıb. Gülzar o saat evdən on manat pul götürüb, qaraçıların yanına qaçdı, onun falına baxan arvadı tapıb dərdini açdı.

– O uşağın damarlarında ayı qanı axır. O uşaq bir qış gərək meşənin içində yatsın, – dedi qaraçı arvad.

Və haqqını alıb, Gülzardan aralandı. Gülzar kəndə dönüb, qışın gəlməsini gözləməyə başladı. Çox gözlədi. Gözləri yol çəkə-çəkə.

Nəhayət, ilk qar yağanda oğlu yuxuya getdi. Rayon mərkəzində məhsul bayramı keçirilən gün, kəndin bütün camaatı orada veyillənəndə, kənd suyu qaçmış hovuz içi kimi boşalan bir gündə Gülzar yatan oğlunu qucağına alıb meşəyə sarı üz tutdu. Xeyli gedib meşədə bir sıx kolluq tapdı. Gördü ki, bir iri vələsi ildırım vurub böyrü üstə yıxıb. Gülzar oğlunu onun altına qoydu. Üz-gözü, əlləri didilib qana bulaşsa da, xeyli qaratikan qırıb uşağın üstünə yığdı. Sonra gəldiyi cığıra çıxıb, geri dönməyə başladı. Qaranlıq düşmüşdü. Top palıdlığının içindən keçib, üstü qarla örtülmüş arpa zəmisinə çıxanda Gülzar qəribə bir səs eşidib, başını yuxarı qaldırdı. Və gördü ki, Ovçu Murad bir palıd ağacında oturub onu nişan alır. Gülzar bağırmaq istədi. Ancaq bir isti işıq gördü. Tüfəngin səsini də eşitmədi.

Ovçu Muradı milis işçiləri elə gecəykən gəlib apardılar. Teymur camaatı başına yığıb, bütün gecəni səhərə kimi lopalar yandırıb meşəni ələk-vələk elədi. Uşağı tapa bilmədi. Raykom katibinin tapşırığı ilə soldatlar da iki gün uşağı axtardılar. Ancaq hədər yerə. Uşaq elə bil yoxa çıxmışdı.

Gülzarı basdırdılar. Ovçu Murada səkkiz il iş kəsildi. "За неумышленное убийство".

Və yaz gələndə uşaq gözlərini açıb ayağa qalxdı. Yavaş-yavaş kəndə gəlib, qapılarını tapdı. İçəri girib gördü ki, nənəsi təndirdə çörək yapır. Və əlini qarıya uzatdı.

– Ay nənə, oyanmışam, mənə çörək ver, – dedi uşaq.

# İz

Ovçu Murad özünə min dəfə söz verib, dədəsinin goruna and içsə də, yenə də sözündən dönüb, andından keçmişdi. Tər tökə-tökə, dünyaya gəldiyi günü söyə-söyə axşam vurduğu porsuğun dərisini soyurdu.

– A beli qırılmış, o murdar köpəkoğlunu yayda niyə vurursan axı? – deyinirdi ərinin əzabına yana-yana arvadı.

Doğrudan da, payızın axırında, qışda dərisi bədənindən ayaqdan köhnə corab kimi çıxan bu heyvanın yayda elə bil tərs damarı tuturdu. Dəri zalımın ılıq, sarımtıl, yumşaq piyindən zorla aralanırdı. Qışda porsuğun piyi elə Ovçu Muradın süksünü kimi – daş kimi olurdu, dəriyə yapışqana dönüb yapışmırdı. Ancaq porsuq dərisini "Oxotsoyuz" qırx beş manata alırdı. Ovçu Murad da yaxşı bilirdi ki, kəndlərinin ətrafındakı meşələrin ağaclarının dibində tapılsa-tapılsa, çoban, meşəbəyi nəcisi tapılar, təzə pulla qırx beş manat yox. Odur, porsuğun, yenotun, susların, pişiyin izinə düşən kimi cinssiz, amma yaxşı iy bilib, iy tutan tulasını buraxırdı. Dalı asan idi. Çünkü

ovu ələ keçirmək üçün Ovçu Murada heyvanın özünü yox, kölgəsini görmək, səsini eşitmək kifayyət idi. İyirmi kalibr qoşalülənin içindəki qarabarıtla doldurulmuş kilizin ağzındakı kartecdən allahın heyvanı canını qurtara bilməzdi.

– Ay Murad, sən dədəyin goru, əlini sabınla yu o andırın iyisi getsin, – dedi arvadı ərinin porsuğu soyub qurtardığını görüb.

– A Ceyran, bu andırın çörəyini yeyirik qırx ildi, – dedi Ovçu Murad.

Və əllərini sabınla yaxşıca yuya-yuya fikirləşdi ki, görəsən, neçə ildi evlidi? Heç cür yadına sala bilmədi evləndiyi ili, günü. Bircə ayı dəqiq bilirdi ki, toyu dekabr ayında olub, ceyranlar cütləşəndə olub. Arvadına da elə onunçun Ceyran deyirdi. Camaat da elə bilirdi Ovçu Muradın arvadına ad qoyanda şair təbi coşub. Daha demirdilər ki...

Ovçu Murad dörd dəfə əlini sabınla yuyandan sonra barmaqlarını iyləyib, sabını beşinci dəfə əlinə almalı oldu. Və elə bu vaxt uşaq izi, uşaq səsi həyətindən çoxdan çəkilmiş Ovçu Muradın çəpərindən qonşusu avtomexanik Seyfəddinin oğlu Qulamın başı göründü.

– Ay Murad baba, Murad baba, Ağ gölün qırağında bir heyvərə yalquzaq izi var! Yalan deyirəmsə, gözüm kor olsun! – bağırdı sarıyanız uşaq.

Canavara hökümət altmış manat pul verirdi. Əlli manat ölüsünə, on manat da dirisinə. Son üç ildə

də canavarlar xeyli artmışdı. Odur, Kənd Soveti də hər canavarın leşinə əllicə manat pul sayırdı. Boz qurdun meyit qiyməti qalxmışdı yüz on manata.

Odur, uşaq səsini kəsən kimi Ovçu Murad evə girdi. Tüfəngini götürüb eşiyə çıxdı. Tula yiyəsini əli tüfəngli görən kimi tez qaçıb Ovçu Muradın köhnə "kovroves" motosikletinin arabasına girdi. Ovçu Murad motosikleti işə salıb, doqqazdan çıxdı və qapının ağzında dayandı.

– Gəl, a köpəkoğlu, tərkinə min, – bağırdı.

Amma uşağı o saat motosikletə minməyə qoymadı.

– A Qulam, de görək eşşək ağıllıdı, ya dədən Seyfəddin? – soruşdu.

– Eşşək!Eşşək! – bağırdı uşaq və cəld motosiklетə mindi.

Ovçu Murad arxadan canavar izinə necə rast gəldiyini danışa-danışa, dil boğaza qoymayıb motorun səsini batıran Qulama qulaq asa-asa motosikleti Ağ gölün qırağına sürdü.

– Murad baba, poxlu yarpağın üstünə! – dedi uşaq, gölün dümağ sahili görünən kimi.

Ovçu Murad uşaq deyən yerdə motosikleti əylədi.

– Budu ha, budu! – bağırdı Qulam gölün ağappaq, duzlu sahilində qalıb, uzaqdakı qayalara sarı gedən izləri göstərib.

Ovçu Murad motosikletdən yerə enib izlərə baxdı. Və heç bir şey başa düşmədi. İz – heyvan izi idi. Özü də dörd dırnaqlı heyvan keçmişdi buradan. Ancaq it ləpirlərini yerə həmişə bir xətt boyu qoyur, canavar isə bir az yanpörtü. Bu sayaq heyvan yerişi Ovçu Murad görməmişdi. Bir də itdən də, canavardan da yerdə dörd dırnaqdan başqa ləpirin də izi qalır. Bu izlərdə ləpir yeri yox idi. Ancaq dörd dırnaq yeri var idi.

– Pah sənin dədənin gorunu... – dedi Ovçu Murad.

– Nədi, a Murad baba, yalquzaqdımı? – soruşdu Qulam.

– Kiri! – qışqırdı uşağın üstünə Ovçu Murad.

Yenə də gözlərini izlərə zillədi. Sonra gözlərini yumub, alt dodağını dişlədi. Və Ovçu Muradın canından üşütmə keçdi. Ovçu Murad birdən-birə dərk etdi ki, tulası iy götürməyib. Gözlərini açıb baxdı. Gördü ki, tulası izlərin böyründə uzanıb, ləhləyən diliylə canını soyudur.

– Nədi, a Murad baba? – soruşdu uşaq.

– Kiri görüm! – bağırdı Ovçu Murad. Sonra tulanı qaldırıb, burnunu izlərə dirədi.

– İşi, işi! – dedi.

Tula “işi” sözünü eşidib, özünü ora-bura vurdu, amma bir azdan yenə də yerə uzandı. Və Ovçu Muradın canından yenə də üşütmə keçdi. Bir də gördü ki, baş barmağıyla tüfəngin çaxmaqlarını çəkir.

– Lənət sənə! – deyib, tüfəngi ayaqdan çıxardı.

Sonra motoru işə saldı. Tula arabaya sıçradı, Qulam tərkinə.

Ovçu Murad motosikleti iz boyu yavaş-yavaş sürdü. İzlər qayalıqda itdi.

Bütün gecəni səhərə kimi yağış yağdı. Ovçu Murad da bütün gecəni eyvanda oturub, yalın ayaqlarını qaloşların içində oynada-oynada gördü ki, yay vaxtı gecə yağış yağanda kənddən payız meşəsinin iyi gəlir. Bir də Ovçu Murad fikirləşdi ki, yağış Qulamın tapdığı o qəribə heyvan izlərini yuyub aparacaq.

Səhərin gözü açılan kimi motosikletin yəhərinə oturub gölün sahilinə gələndə gördü ki, gecə düz fikirləşibmiş. İzləri yağış yuyub aparıb.

Və Ovçu Murad evə dönüb, qarnının altını möhkəmlədəndən sonra tüfəngini götürüb, Sarvan kəndinin üstündəki təpəliklərə verdi özünü. Kəklik atmağa yay olsa da, qanun-qayda qoymasa da, ovunu eləyib altı kəklik vurdu. Tulası ağla sığmayan yerdən kəklik qaldırırdı.

– Quşun, heyvanın kökünü ovçu istəsə də kəsə bilməz. Quşun, heyvanın düşməni Sovet hökümətidi! – deyirdi Ovçu Murad içəndən sonra. Ancaq ayıq olanda da, üstündən pambığa dərman səpməyə uçan təyyarə keçəndə, Ovçu Murad başını yuxarı qaldırıb göyə tüpürürdü.

– Sənin ananı! – bağırırdı.

Və heç kəs bilmirdi ki, Ovçu Murad kimin anasına söyür.

Ovçu Murad kəkliklərin dördünü raykomun birinci katibinin şoferinə verib, ikisini evə gətirdi.

– Düyü altına qoy, – dedi arvadına.

Sonra eyvanda çay içə-içə Allaha dua eləməyə başladı. Duası da ondan ibarət idi ki, kaş Seyfəddinin oğlu Qulam çəpərdən boylanıb deyə ki, yenə də həmin izə düşüb.

Və bu gün Allah Ovçu Muradın duasını eşitdi.

– Murad baba, Murad baba, yalquzağın izi sallaqxananın böyründədi! Dədəmin canı üçün! – bağırdı Qulam çəpərdən boylanıb.

Sallaqxanadan bir az o yanda, kəsilmiş heyvanların qarnı, qursağı, quyruqları atılmış yerdən, motosikletin səsi yaxınlaşanda beş-on quzğun və xeyli ala qarğa qalxdı göyə. Pişiklər, avara itlər Ovçu Murada fikir verməyib, yerlərindən tərpənmədilər. Ovçu Murad fikirləşdi ki, hökümət bunların dərisinə pul versəydi, bir ilə Qaz-24 almaq olardı.

– Bir az sola sür, Murad baba, – dedi arxadan Qulam.

Ovçu Murad uşaq deyən yerə sürüb, motosikleti saxladı. İzləri gördü. Və bu dəfə Ovçu Muradın canından üşütmə keçmədi, içalatı dondu. Ovçu Murad gördü ki, heyvan gəlib qıraqda dayanıb, mal tör-töküntüsü yeyib gəmirci itlərə, pişiklərə, quşlara baxıb,

ancaq onlara yaxın durmayıb. Gendən baxıb. Azı bir əlli dəfə yaralı qabanla, iki kərə qızmış maralla üz-üzə gələn Ovçu Muradın yadına nənəsinin danışdığı qorxulu nağıllar düşdü. Ovçu Murad tez evə qaçıb, qapını bağlayıb, yorğan-döşəyə girmək istədi.

– Yalquzaq, yəqin, o simpiliyə girib, Murad baba! – dedi Qulam.

Ovçu Murad birdən gördü ki, tulası üfunət içində vurnuxan itlərin arasından bir qancıq aralayıb kirləyir. Və fikirləşdi ki, görəsən, bu avara qancığın köpəkləri niyə tulanı didib, leşini yerə salmırlar? Ancaq ağlabatan cavab tapa bilmədi öz sualına. Motosikletin motorunu işə saldı. Tula qancıqdan əl çəkib tez geri döndü. Avara itlər ancaq gedən motosikletin dalınca bir-iki ağız hürdülər. Ovçu Murad kəndə gələnə qədər ağzını açıb bir söz demədi. Və ayağını həyətə basıb motosikletin benzinli isti dəmir qoxusundan aralanan kimi burnuna dəm alan düyü, bir də kəklik çığırtmasının iyi dəydi.

Evdə araq olmasaydı, Ovçu Muradın boğazından bir qaşıq belə plov getməyəcəkdi. Ovçu Murad araqdan vurub, plovdan yedi. Və həmişə arağı düyüyə qatanda köpdüyü kimi, yenə də köpüb evə keçdi. Ağır nəfəs ala-ala uzandı. Bütün gecəni gözünə yuxu gəlmədi. Gecədən xeyli keçmiş yenə də yağış yağanda Ovçu Murad fikirləşdi ki, su heyvanın bu izlərini də yuyub aparacaq. Və bu yağışın suyu elə bil onun çiynindəki yükü də yuyub apardı. Ovçu

Murad yuxuya getdi. Və səhər yuxudan qalxanda dədəsinin goruna and içdi ki, bir də araq üstündən düyü yeməyəcək. Səhər yeməyi ilə yarım stəkan araq içib, başının ağrısını sovuşdurdu. Sonra oturdu patron doldurmağa.

– A kişi, Seyfəddinin oğlu sabahdan çəpərdən boylanır, – dedi arvadı.

– Gör nə deyir? – dedi Ovçu Murad.

– Nə istəyirsən, a bala, a kor Fatmanın nəvəsi? – soruşdu arvad.

Ancaq cavab almadı.

– İt nəvəsi dillənmir. Elə bil lal olub, – dedi arvad.

Ovçu Murad evdən həyətə çıxdı. Gördü ki, uşaq çəpərdən boylanır.

– Nədi, a bala? – soruşdu Ovçu Murad.

Uşaq başıyla qapının ağzını göstərdi. Ovçu Murad eşiyə çıxdı. Və çəpərinin qırağında heyvanın izlərini gördü. Onun dizləri titrəyə-titrəyə büküldü. Neyləyəydi fağır kişi? Birtəhər həyətə keçib, özünü evin içinə saldı. Birbaş stolun üstündəki araq şüşəsinin üstünə gedib, bir stəkan ağzına kimi doldurub başına çəkdi. Ancaq araq boğazında qalıb içəri getmədi. Ovçu Murad dəmir çarpayının üstünə oturub, udquna-udquna arağı aşağı salmağa başladı. Araq aşağı düşən kimi Ovçu Murad bir stəkan da doldurdu. Bu rahat getdi.

– Ya Allah! – dedi Ovçu Murad.

Və tüfəngini götürüb həyətə düşdü. Bir neçə dəqiqədən sonra arvad motosikletin, bir də motosikletin səsini batıran ərinin bağırtısını eşitdi.

– Quşun, heyvanın kökünü ovçu istəsə də kəsə bilməz! Quşun, heyvanın düşməni sovet hökümətidi! – bağırırdı Ovçu Murad.

Arvad tez eyvana çıxıb qışqırdı:

– A qıvlasız, piyan-piyan haraya gedirsən? O zəhrimardan aşıb ölərsən! Evə keç!

– Sürük, sürük, dədənin goruna sənin...! Ova gedirəm, rayon mərkəzinə, katib ovuna! Gedim görüm bu hansı heyvandı salıblar Azərbaycana, izini görürük üzünü yox? Qoy köpəkoğlu mana, Ovçu Murada cavab versin! – dedi Ovçu Murad.

Və motosikletini həyətdən bayıra sürdü.

– Ay Murad baba, sən başın məni də apar! Katib ovuna heç aparmamısan məni! – qışqırdı Seyfəddinin Qulam oğlu.

– Uşaqsan, a bala! Get məni perevalın üstündə gözlə. Geri gələndə qırqovul atarıq! – dedi Ovçu Murad.

Və birbaş rayon mərkəzinə, Əhmədin pavilyonuna sürdü. Axşam beşə kimi orada onunla-bununla vurdu. Özü də hamını qonaq eləyirdi. Odur, pulu qurtaranda pavilyonçu Əhmədə dedi:

– Ayə, a Əhməd, bir alapaça dərisi versəm, ayağının altına salarsanmı?

– Dalını da öpərəm, a kişi! – dedi Əhməd.

– Onda mana konyak! Pulum qurtarıb. Dəri sabah tezdən burdadı, Muradın ölmüşü, – dedi Ovçu Murad.

– Ə, konyak nədi, ə? Sana canım da qurbandı! – dedi pavilyonçu Əhməd və iki şüşə "Şirvan" konyakı açıb Ovçu Muradın stoluna qoydu. Özü də oturub onunla içməyə başladı.

Seyfəddinin oğlu perevalın üstündə dayanıb, Ovçu Muradı gözləməkdən təngə gəlmişdi. Ayaqqabılarını çıxarıb, ayaqlarını yağış gölməçəsində yuyurdu, yavaş-yavaş qaralan havaya baxa-baxa. Və Allaha dua eləyirdi ki, Ovçu Murad işıqkən gəlib çıxsın, buraların böyürtkənliyində, itburnu kollarında qırqovul atsınlar...

Pavilyonçu Əhməd Ovçu Muradı kəndə buraxmaq istəmirdi:

– Ay Ovçu, piyansan, dağ yolunda motosiklet sürə bilməzsən. Aşarsan. Burda qal, səhər gedərsən.

– Ovçu Murad Allahdan da qorxmur! – bağırdı Ovçu Murad.

Və motosikletini sürdü. Dağın ətəyinə çatıb, perevalı qalxmağa başladı. Arabaya qoyduğu tüfəngin çaxmaqlarını da çəkdi ki, yoldan tülkü, dovşan keçsə atsın. Ancaq perevalın üstünə bir dolay qalmış Ovçu Muradın sərxoş olsa da sərraf, təcrübəli gözləri yolda heyvanın izlərini gördü. "Sənin ananı!" deyib, əlini ruldan buraxıb, tüfəngi götürmək istədi. Və

dağdan aşdı Ovçu Murad. Seyfəddinin oğlu Qulam ağlaya-ağlaya, qışqıra-qışqıra kəndə qaçıb əhvalatı camaata danışdı.

Axşamın qaranlığında dərənin dibində Ovçu Muradı tapdılar. Məscidə yumağa apardılar. Sonra kəfənə bükülüb, ayaqdan-başdan bağlanmış Ovçu Muradı evinə gətirib, qoydular arvadların ağlaşması qabağında.

Ertəsi gün günorta çağı kişilər Ovçu Muradı mafəyə qoyub, qurandan zəminxara üstə oxuyan mollanın dalınca qəbiristanlığa üz tutdular. Kişini basdırıb geri döndülər. Hələ kənddə belə bol ehsan payı görünməmişdi. Birinci katibin özü də iki erkək, bir kisə seçmə İran düyüsü göndərmişdi şoferiylə. Və şoferinə Ovçu Muradın dəfnində iştirak eləməyi tapşırmışdı. Odur, qəbiristanlıqdan kəndə qayıdanda hələ belə hörmət görməmiş kəndin mollası birinci katibin ağ pərdəli, qara "volqa"sında gedirdi. Ehsan bozbaşının, plovunun, halvasının verdiyi toxluqdan həyətdə qurulmuş mağara toplanmış camaatın söhbəti-sözü öləndən aralanıb, başqa səmtlərə döndü.

Bircə Seyfəddinin oğlu Qulam heç cür dünən gördüyündən özünə gələ bilmirdi. Ancaq məclisin, aranın qarışdığını görüb, uşaq kənddən çıxıb perevala sarı üz tutdu. O, Ovçu Muradın tüfəngini axtarmağa getdi. Çünkü motosikletlə Ovçu Muradla dərəyə birgə aşan tüfəngi öz gözüylə görmüşdü. Tüfəngi tapıb, Ovçu Muradın evinə gətirmək istəyirdi.

Və ürəyində fikirləşirdi ki, bəlkə, ovçunun qarısı tüfəngi ona bağışlayıb, halal eləyə...

Uşaq dağın ətəyinə yetib dolaylarla yuxarı qalxanda yerdən bir ağac götürdü və başının üstündən uçan qarğaları, sağsağanları, qumruları nişana aldı arabir. Gəlib Ovçu Muradın dərəyə aşdığı yerə çıxıb, aşağı baxdı. Motosikletdən qalan dəmir-dümürü gördü. Dağın sırtı yaman sərt idi. Və uşaq aşağı enməyə başladı. İki-üç addım atan kimi sürüşüb, dalı üstə xeyli getdi. Bir daşdan yapışıb özünü saxladı. Və bu an böyürdəki kolluqdan bir uzunquyruq xoruz qalxdı pırpırıltı ilə. Ayaqqabılarını çıxarıb, qaytanlarını düyünlədi, çiyninə atıb ayağıyalın enməyə başladı. Əzab-əziyyətlə aşağı düşüb əzik-əzik olmuş motosikletin böyründə dayandı. Sonra tüfəngi axtarıb kolların arasından tapdı. Açıb gördü ki, lülələr boş deyil, doludur. Patronları çıxarıb, çaxmaqları yerinə qaytardı, sonra lülələrin tozunu-torpağını üfürdü. Dəmir gilizləri tüfəngə qoyub, lüləni bağladı. Və tüfəng bağlanan anda bütün dərəni balaca Qulamın qışqırığı bürüdü. Uşaq qorxusundan titrəyə-titrəyə dərəyə düşdüyü yola zilləmişdi bərəlmiş gözlərini. O, təptəzə dörddırnaqlı izləri gördü. Sonra o yan bu yana baxıb, yavaş-yavaş yuxarı qalxdı. Ayaqqabılarını çıxardığı daşın yanında dayanıb nəfəsini gərdi. Gördü ki, izlər buradan başlanıb aşağı düşür. Və Seyfəddinin oğlu qanrılıb geri baxdı. İzlər onun dalınca yuxarı qalxıb, ayaqlarının altında yox olurdu.

Uşaq daşa söykənib ayağını geymək istəyəndə böyürtkənlikdən qırqovul pırıldadı. Üç-dörd metr yuxarı qalxıb, özünü düzəltdi, göydə qanad döyməyə başladı. Balaca Qulam tüfəngi aşırıb, qulağını sinəsinə basan kimi tətiyi çəkdi. Qırqovul ikicə metr də irəli uçub daş kimi yerə düşdü.

– Dəydim! – dedi uşaq. Və düz demədi. Çünkü Seyfəddinin oğlu Qulam hələ uşaq idi, qırqovulu uçanda vura bilməzdi. Və uşaq hələ Ovçu Qulam deyildi. Ancaq Ovçu Muradın iyirmisi hələ yan atmağa alışmamışdı...

# Dua

Aşıq Salehin oğlu bir gün səhər tezdən özünə gendən baxdı. Gördü ki, Ayıdağın ətəyindəki rayon mərkəzinin vıtrezvitelində, cırıltısından Dağıstan camaatının qulaqları tutulan bir dəmir çarpayının üstündə uzanıb. Gecədən qalıb qarnında, ağzının içində qıcqırmış arağın qoxusuyla Allaha dua eləyir.

Və Aşıq Salehin oğlu gendən gördü ki, Poylu Qasım, o serjant milisioner vıtrezvitelin qapısını açdı. Və bu qapının cırıltısından yerində dayana bilməyib, Ayıdağın ətəyindən bir duman qalxdı. Və bu dumanın üstündə anasını gördü Aşıq Salehin oğlu. Gördü ki, anası dumanın üstündə uşaq beşikdə yırğalanan təkin yırğalana-yırğalana ağlayır. Ağlaya-ağlaya da dua eləyir.

– A Qasım, sən mənim cijimi görmüşdünmü heç? – soruşdu serjantdan Aşıq Salehin oğlu.

– Bə nədi, Badı mama göyçək, xanım-xatın arvad idi, – dedi Poylu Qasım.

– Görəmmədim. Hayıf, – dedi Aşıq Salehin oğlu.

Və yenə də Ayıdağın ətəyi boyunca qalxan dumana baxdı. Gördü oğlu ölmüş anası elə hey dua eləyir.

Sonra üzünü Poylu Qasıma tutdu. Gördü ki, serjant da vıtrezvitelin bir küncündə çarpayıya uzanıb dodaqaltı dua eləyir.

– Kimə dua eləyirsən, a Qasım? – soruşdu Aşıq Salehin oğlu.

– Nə bilim, ayə... İçə bilmirəm araq zəhrimarı... Bircə dəfə kaş sərxoş olub, buraya düşəydim. Səsintək, – dedi Poylu Qasım.

– Niyə, a Qasım? – soruşdu Aşıq Salehin oğlu.

– Ayə, səni hər dəfə buraya gətirəndə deyirəm kaş mən də bunun kimi içib dəliyə dönəydim, – dedi Qasım.

Aşıq Salehin oğlu yenə də dumana baxdı. Gördü ki, dumanı kim isə çiyninə alıb aparır. Və çiynində dumanla dam boyu qalxır.

– A Qasım, bir aynadan Ayıdağa bax, gör ciji yatan dumanı çiyninə alıb aparan kimdi? – dedi Aşıq Salehin oğlu.

Serjant Poylu Qasım pəncərənin qabağına gəlib, eşiyə baxdı.

– Deyəsən, ləzgi Hüsüdü. Yadındamı ləzgi Hüsü? – dedi Poylu Qasım.

– Dəlləkmi?

– Hə.

– Görən haraya aparır cijimi? – soruşdu Aşıq Salehin oğlu.

– Get özündən soruş. Amma əvvəlcə get Əliqulunun pavilyonunda başını düzəlt, – dedi serjant Qasım və Aşıq Salehin oğluna pul verdi.

Aşıq Salehin oğlu Qasımdan üç manat alıb, vıtrezviteldən eşiyə çıxdı.

Və yenə özünə gendən baxıb gördü ki, Əliqulunun pavilyonunda araq içir. Sonra gördü ki, kəndlərinə gəlib evlərindəki dədəsinin sazını götürüb, dumanın dalınca gedir. Dumana çatıb ləzgi Hüsünü səslədi.

– Ayaq saxla, a Hüsü, – dedi Aşıq Salehin oğlu.

– Nədi, a bala? – soruşdu Hüsü.

– Cijimi haraya aparırsan?

– Aparmıram, a bala, özü dil-ağız elədi. Dedi apar məni buralardan, gözlərim oğlumu görməsin.

–Görməsin gözlərim vıtrezviteldə yatan ciyər paramı, – dedi ləzgi Hüsü.

Və üstündə Aşıq Salehin oğlunun anası yırğalanan dumanla uzaqlaşmağa başladı. Aşıq Salehin oğlu bir daş üstünə oturub ağladı, nə ağladı.

Və gendən göz yaşlarını iyləyib gördü ki, göz yaşından qoyun iyi gəlir.

Lap bərk ağladı.

Sonra dədəsinin sazını sinəsinə basıb mizrabı götürdü. Və mizrabı əlinə alan anda yadına düşdü

ki, saz çala bilmir. Kürün qırağına gəldi. Gördü ki, Hüsü dağı o taya aşır. Bir də onu gördü ki, Hüsü Ayıdağın zirvəsində ayaq saxlayıb Allaha dua eləməyə başladı.

– Görən, bunun duası nədi? – soruşdu Aşıq Salehin oğlu.

Və dədəsinin sazını Kürə atıb, sularda axan saza xeyli baxandan sonra poçt yoluna çıxdı. Poçt yoluna çıxan kimi gördü ki, Allah duasını eşidib. Gördü ki, avtobus dayanacağında neçə ayaq altda əzilmiş bir qırmızı onluğun ucu görünür.

– Sana qurban olum, a tanrı, – dedi Aşıq Salehin oğlu.

Pulu yerdən qaldırıb, Əliqulunun pavilyonuna sarı getdi. Gedə-gedə yenə də özünə gendən baxdı. Və gördü ki, günün günorta çağıdır, hava da yaman bürküdür.

## Menuet

Topal Hadı Ayıdağın ətəyindəki kəndə bu şənbə kino gətirəndə bilmədi divarına nə sayaq elan yazıb vursun. Dəmir qutuların içindəki lentdə nə dava var idi, nə də ağlabatan bir musiqi. Odur, Topal Hadı bir kağıza kinonun adını yazıb, adın altından "baxmayanın dədəsinə lənət" yazdı. Və kəndin camaatı şər qarışan kimi yığıldı kolxoz idarəsinin dal divarının təzəcə əhənglənmiş qabağına. Topal Hadı da aparatının işığını eləcə bu divara dirəyib kinonu göstərdi.

Camaat kinoya baxıb, Topal Hadının dədəsinin goruna söyə-söyə evə dağıldı. Hamı söydü kino mexaniki. Təkcə Aşıq Salehdən savayı. Aşıq Saleh Topal Hadını heç cürə söyə bilməzdi, çünkü ağzı məşğul idi. Kinoda eşitdiyi, özü də nədənsə ürəyinə yatdığı bir musiqini zümzümə eləyə-eləyə Aşıq Saleh kəndin qapı köpəklərini, avara itlərini hürdürə-hürdürə öz xarabasının qabağında var-gəl edirdi. Hey çalışırdı ki, ağzındakı melodiyanı bir sözə gətirsin, əmələ gəlmirdi. Nə müxəmməsə, nə təcnisə, nə gəraylıya yatırdı bu hava. Çünkü menuet idi. Kinoda da həmin menueti haranınsa dvoryanları oynayırdı arvadlı-kişili.

– Yox, kinonu çəkən köpəkoğlu düz çəkib. Bu hava sözə yatan şey deyil, eləcə oyun havasıdır, – dedi Aşıq Saleh.

Və evin içinə girib, sazını köynəkdən çıxardı. Saz özü qalxıb aşığın döşünə dirəndi. Gözlədi. Və Aşıq Saleh bir nəfəsə bir sim üstə həmin menueti sazda dınqıldatdı.

– Bircə il dözəmmədin! Bircə il! Qurana əl basıb, atanın qəbri üstə and içmişdin! Öldür məni, Allah, öldür! Kül sənin oğul başına! Yenə içdin o zəhrimarı! – bağırdı yan otaqdan Aşıq Salehin anası.

– İçməmişəm, az! Sənin meyidini görüm! – qışqırdı Aşıq Saleh.

– Bə o nə oyundu sazın başına açırsan? – soruşdu anası yan otaqdan gəlib.

Və oğlunun ağzını iyləyən kimi qarının sifətinin qırış dərisi dümağ ağardı.

Aşıq Saleh sazı çiyninə aşırıb evdən eşiyə çıxdı. Üz tutdu Kür qırağına. Sınıq yarğana yetib bir qayanın üstündə oturdu. Çaya düşmüş ay işığına, bir də o tayda ölüm kölgəsi tək qaralan meşəyə baxıb, sazı sinəsinə basdı. Və həmin menueti bir də çaldı. Havanın son mizrabını vurmaq istəyirdi ki, gördü arxasında aləm işıqlandı.

Qanrılanda gördü ki, kənd tökülüb böyüklü-kiçikli üstünə gəlir, məməyeyəndən pəpəyeyənə kimi hamının əlində lopa yanır.

Və Aşıq Saleh tez ayağa qalxıb Kürün içində qaralan adanın manşırına sarı yüyürdü, kirməni tapıb özünü suya verdi. Sazı başının üstünə qaldırıb, o an islanıb soyuqdan titrəyə-titrəyə o taya sarı getməyə başladı.

– Ayə, a Saleh, geri dön!

– Ay aşıq, hamının başına gələn işdi. Geri dön.

– Ay oğul, qurban olum, axarsan, aparar Kür səni!!! – yalvardı anası.

– Həkim var, dərman var!

Aşıq Saleh Kürü addayıb meşəyə girdi. Ordan baxıb gördü ki, lopalar yanır, nə yanır, elə bil Kürün üstünə yerin altından gün şüası düşüb. Və anası dil deyə-deyə, dəli olmuş balasına ağlayır.

– Az, vallah, dəli olmamışam, ay ciji! – bağırdı Aşıq Saleh meşənin içindən.

– A bala gəl, səhər özüm gedib sana selmaqdan araq alaram! – bağırdı ana.

Və ananın bu sözləri sahildə dayanan milləti birə-bir ağlatdı. Zarıdı millət.

Aşıq Saleh gördü ki, lopalar bir-bir sönə-sönə kəndə sarı qayıdır. Və kəndin qaranlığı meşənin qaranlığı ilə tən gələndə Aşıq Saleh sırtını bir palıda dayayıb sazı sinəsinə basdı. Ancaq bu dəfə pəsdən çalıb qəsdən də zümzümə eləməyə başladı. Di gəl, bu menuetə yata biləcək bir söz də tapa bilmədi Yunus İmrədən tutmuş ta Ələsgərə kimi. Bildiyi

beş-on erməni sözlərini də dedi menuet üstünə. Gördü ki, erməni dili də biçilmir bu havaya.

– Yox, o kinonu çəkən köpəkoğlu yaman adamdı. Bu hava eləcə oyun havasıdı, – dedi Aşıq Saleh.

Və sazı sinəsinə basıb menueti çala-çala oynamağa başladı Qarayazı meşəsində Aşıq Saleh. Gördü ayaqları özü havanın xallarını tutur yerdə. Aşıq Saleh meşənin zil qaranlığında da gördü ki, ayrım gəlini “ruhanidə” süzən təkin süzür bu havada. Və havanı oynayıb, Aşıq Saleh sazı təzədən çiyninə aşırdı. Və sazı çiyninə aşıran anda gördü ki, palıd kömürü tək közərən bir cüt yalquzaq gözü zillənib üstünə.

– Ayə, bu nə idi gəldi mənim başıma... – pıçıldadı dodaqları əsə-əsə Aşıq Saleh.

Və yavaş-yavaş, daldala Kürə sarı getməyə başladı. Sazı da çiynindən aşırıb əlində tutdu ki, canavarla çarpışmağa bir yasağı olsun. Ayaqları suya dəyən anda yalquzaq onun üstünə şığıdı. Aşıq Saleh sazı heyvanın təpəsinə vurub özünü çayın içinə atdı.

Və o an axdı. Əl-qol ata-ata bir az getmişdi ki, yadına uşaqlıqda anasından eşitdiyi bir tapmacanın sözləri düşdü. Aşıq Saleh gördü ki, tapmacanın sözləri, deyəsən, həmin havaya yatır. Həmin sözləri menuet üstə oxumaq istədi, ancaq ağzını açan kimi qarnına, ciyərlərinə Kürün suyu doldu...

# Ayaqyolu

Gürzəçöl düzü uzununa da, eninə də düzdür. Və il on iki ay bu düzün otu yağışdan yağışa təzələnsə də, yovşanı həmişə var. Şor da olsa, suyu da var. Qoyunlarının yovşan yeyib, şor su içməkdən ciyərləri yara-yara vərəm olsa da, Gürzəçöl neçə yurdun malının , qoyun-quzusunun qışlağıdır...

Və bir gün Ayıdağın qoyun sürülərinə sarı gələn Qaz-69 maşınının tozu uzaqdan görünəndə Gürzəçöl neçə min quşunun, milçəyinin vızıltısı ilə bu elin istisinə züy tutmuşdu. Allahsız-imansız bir günorta bürküsü idi.

Çobanlar bir-bir seyrək yulğun kölgələrindən çıxıb, Qaz-69-u dövrəyə alıb istiyə hürən köpəkləri qova-qova maşına yanaşdılar. Və məlum oldu ki, indən belə çobanlar simpilliyə girib, yarğan enib, kol dalında gizlənib bellərinin kəmərini aça bilməzlər. Gürzəçöl düzünün tən ortasında ayaqyolu tikmək lazımdı.

– Ay Allah dədənizə rəhmət eləsin, ata-babamız bu düzdə ayaqyolu qayırmayıb, bizim nəyimizə gərəkdi o? – soruşdu çobanlar.

– Ata-babanızın vaxtında turist olub, a köpəkuşağı? Gürzəçölün böyründəki poçt yolu genişləndirilib Azərbaycanın ən mühüm turist yollarından biri olacaq. Bura Amerikadan, Bolqarıstandan qonaqlar gələcək, – dedilər rayon mərkəzindən gələn maşında oturanlar.

Qaz-69 sözünü deyib, tapşırığını verib, tozunu qaldırdı. Çıxıb getdi.

– Qələt eləyir Amerika da, Bolqarıstan da. – dedi Alı.

– Amerikan bura gəlsə, Sovet hökümətinin qoyununu saymağa gələcək, yarğanda çömbələn Tapdığın dalına baxmağa yox, – dedi İmran.

– Ə, olmaya onların çobanları qışlaqda ayaqyoluya gedirlər yüngülləşməyə? – soruşdu Tapdıq.

– Yox, ə, nə ayaqyolu! Ancaq onların nəcisi bizimki təkin çıxmır dallarından. Neylon paketlərdə çıxır. Dədənin goru haqqı, a Tapdıq, – dedi Alı.

– Öz dədənin goru haqqı! – bağırdı Tapdıq.

Və çobanların hamısı gülüşdü. Qara Moşudan başqa. Çobanlar Qaz-69 maşının gəlməyini də, sözünü də, toz qaldırıb getməyini də zarafata saldılar. Qara Moşudan savayı. Çünkü Qara Moşu yaşda bütün çobanlardan böyük idi.

– Ay uşaqlar, mən yaşda sizin hamınızdan böyüyəm, mana qulaq asın, –dedi Qara Moşu.

– Nədi, a qağa? – soruşdu çobanlar.

– Ayaqyolunu tikmək lazımdır. Hökümətlə zarafat eləmək olmaz. Mənim babamı bir alaqoyun inəyi üstündə özünün əkdiyi tut ağacından asıb bu hökümət, dədəmi də bir qoşma üstündə Sibirdə çürüdüb. Ayaqyolunu tikmək lazımdır, – dedi Qara Moşu.

– A Moşu qağa, səni olmaya isti təntidib? Düzün ortasında ayaqyolu kimə gərəkdir? – dedi Tapdıq.

– Heç kimə. Amma ayaqyolunu tikmək lazımdır. – dedi Moşu.

– A Moşu qağa, bizim qoyun iki yüz-üç yüz hektar yerdə otlayır. İndi tutaq ki, ayaqyolunu burda tikdin, qarnın sarı yarğanın üstündə ağrıdı. Buramı qaçıb gələcəksən iyirmi kilometr yolu? – soruşdu Alı.

Qara Moşu susdu.

– Dillənsənə, a Moşu qağa? – dedi Tapdıq.

– Ayaqyolunu tikmək lazımdır, – dedi Qara Moşu.

Və başını aşağı salıb yatağa sarı getdi yavaş-yavaş. Və bir neçə saatdan sonra bellə, baltayla geri döndü.

Qara Moşu düzün ortasında üç metrlik quyu qazdı, sonra gedib yulğun, saqsaul baltaladı. İkicə günə ayaqyolu hazır oldu. Və Qara Moşu bir qotur yulğun kölgəsi tapıb oturdu. Alnının tərini silib, tikdiyi ayaqyoluya baxa-baxa olanından yedi. Sonra ayağa qalxıb, öz sürüsünə sarı getdi. Həmin günün

ərzində Qara Moşu tikdiyi ayaqyoluya bircə dəfə baş çəkib siftə elədi. Və bir həftədən sonra Qara Moşu gördü ki, ayaqyolunun böyründəki otları qoyunlar yeyib qurtarıb. Yağış da yağmır ki, ot təzələnsin. Sürü də otun dalıncan düşüb, ayaqyoludan uzaqlaşır.

Və elə bir gün gəldi ki, Qara Moşu özünü qan-tər içində yetirə bildi ayaqyoluya. Və ayaqyoluda oturub, o biri çobanların taleyi haqda düşünməyə başladı.

– Allah uzaq eləsin, cavandırlar, tutulub zad eləməsinlər, – dedi Qara Moşu yana-yana.

Və ayaqyoludan çıxıb gördü ki, sürüsü xeyli uzaqlaşıb. Saat yarımdan çox ayaq döyməli oldu qoyunlara yetənə qədər.

Sonra göyə baxıb gördü ki, yağışın heç iyi də gəlmir bulutlardan. Uzaqda bir kiçik vergül kimi qaralan ayaqyoluya baxdı.

O biri çobanlar Gürzəçöl düzünə dağılmışdılar öz sürüləriylə. Hərə bir yana.

Qara Moşu onlardan da, özündən də nigaran idi. Və Qara Moşu öz nigarançılığını ürəyindən çıxarmaq üçün əlinə yenə də baltı aldı. Beş gün, beş gecə yulğun baltalayıb paya qayırdı. Və ayaqyolunun ətrafına beş-altı yüz metrlik çəpər çəkdi. Qoyunu qabağına salıb çəpərin içinə saldı. Və ürəyi rahat ayaqyoluna getdi. Çıxıb gördü ki, sürü otlayır, amma...

– Ay Allah, sana qurban olum, yağış göndər. Heyvanı çəpərdən o yana, uzağa buraxa bilmərəm. Bu ayaqyolundan çox uzaqlaşmaq olmaz mana, ay Allah, – dedi Qara Moşu dua eləyə-eləyə.

Ancaq Gürzəçölün bu imansız istisində Allahın da tərs damarı tutmuşdu.Yağış yağmırdı.

Və günlərin bir günü bir qoyun böyrü üstə düşdü. O biri gün onu murdar oldu.

Qoyunlar bir gün çəpərin boş yerini tapıb payaları araladılar. Qara Moşu zorla, güc-bəla ilə heyvanların başını bəri eləyə bildi. Olan qalan yulğunları baltalayıb, çəpəri möhkəmlətdi. Ancaq özü kölgəsiz qaldı Gürzəçöl düzünü yandıran qızmar günəşin altında.

Və Qara Moşu birdəfəlik ayaqyoluya köçdü. Köçdü ki, günün altında qalıb ayaq üstə yanmasın.

Bir neçə gün çömbəldiyi yerdən düzə baxdı. Gördü bir neçə qoyun da murdar olub. Sonra Qara Moşu gözlərini yumub yatdı. Və yuxuda gördü ki, yağış yağır. Elə bu yağışın səsindən də oyandı. Gördü yağış yağmır. Gördü ki, sürü çəpəri qırıb, düzə dağılıb. Gözgörəndə qırx-əlli qoyunun leşi qalıb. Və Qara Moşu ayağa qalxıb sürünü qaytarmaq istədi. Ancaq ayağa qalxıb ayaqyolundan çıxa bilmədi. Gözlərini təzədən yumub, başını dizlərinin üstünə qoydu. Neçə min cücünün, milçəyinin ağzıyla istini oxutduran Gürzəçölün səsinə qulaq asdı...

***

Çalış, doyma yaşamaqdan. Dərd də sevinc kimi gəldi-gedərdi. Həyatı sev. Nə sevincə bel bağla, nə dərdə. Bir insana da bənzəməyə çalışma. Bax hardasan. Dənizdə balığa, göydə quşa oxşa. Qaçanda ceyrana dön, qovanda canavara. İnsan oğlu olmağına çox uyma, təbiət səni öz övladı görmək istəyir. Onun övladlığından çıxsan batacaqsan. Ata-anadan yetim qalanlar ölmürlər. Təbiətdən yetim qalanların kitabı bağlanır.

***

Ötən günlərin çoxuna soyuq dəymişdi. Arxadan elə hey öskürək səsi gəlirdi. Nənəmin qızdırması hələ də düşməmişdi, otuz altı il bundan əvvəl ölüb, aşağı qəbiristanlıqda basdırılsa da. Hər dəfə yolumu ora salanda əlimi başdaşına tuturdum. İstisi çəkilmirdi ki, çəkilmirdi. Tək nənəm yox. Məzarların çoxu azarlıydı. Məzar nədi, asfalt yoldan Hacı Salehin türbəsinə gedən daşlı-çınqıllı cığır da yay-qış ya qızdırıb pörtürdü, ya da soyuq tər basırdı onu. Məni də ki, bu kürək ağrısı tamam işdən-gücdən eləmişdi. İki ildən çox olardı ki, nə bir adama gözüm dəyirdi, nə bir kəsi qarğışım tuturdu. (“Azar”)

atv kitab

İmzalar
Parlaq

# Bartlbi və çevrəsi

ENRİKE VİLA-MATAS




"Bartlbi və çevrəsi" həm roman, həm də yaxşı sənədli essedir. Əsərdə müxtəlif səbəblərə görə yazmağı atmış yazıçılardan bəhs edilir. Vila-Matasın çevrəsinə həm real (Servantes, Moppassan, Rembo, Selincer, Pinçon və b.), həm də səksəndən artıq uydurma müəllif daxildir. Qeydlər formasında yazılmış romanda Bartlbi "niyə yazırıq, niyə mövcuduq?" kimi suallara cavab axtarır. Cavablar isə elə əsərin özündədir: bu cavablar qadınlar barədə bəxti gətirməyən, yazmağı bacarmayan qozbel Bartlbinin dilindən söylənilir.

# Dədə Qorqud dastanları




Təxminən min il bundan əvvəl naməlum bir şəxs tərəfindən qələmə alınmış "Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim və möhtəşəm abidələrindən biridir. İlk vərəqindəki bir yazıya görə şərti olaraq "Kitabi-Dədə Qorqud" adlanan bu misilsiz sənət nümunəsi XVIII əsrin ortalarına qədər elm aləminə məlum olmayıb.

Xalqımızın qədim tarixini, mübarizəsini, məişətini heyrətamiz bir dillə əks etdirən bu ölməz sənət incisi Azərbaycanda ilk dəfə 1939-cu ildə nəşr olunmuşdur.

# Tənha




AVQUST YUHAN STRİNDBERQ

"Tənha" romanı Strindberqin mənəvi axtarışlarının nəticəsidir. Yazıçının özü bu əsəri avtobioqrafik romanları sırasına aid edir. Əsərdə müəllifin həyatının bir dövrü, özü də onun həyatında tez-tez rast gəlinməyən harmonik bir dövrü əks olunub. Yazıçı elə bir reallıq və adamların dövrəsindədir ki, ruhi-mənəvi böhrandan xilas olur, onu zəncirləyən problemlərdən uzaqda dayana bilir. Tənhalıq burada adamlardan zahiri təcrid kimi anlaşılmır, əksinə, varlığın mənası ilə bağlı axtarışların tarıma çəkdiyi şüurun dərin qatlarına başvurmanı ehtiva edir.

# Səsindən tanıdılar payızı




Bu kitab klassik yapon poeziyası ilə tanışlıq imkanı verən fərqli bir nəşrdir. Klassik yapon poeziyasının zirvələri sayılan Başo, Buson və İssanın ölməz üçlükləri – seçmə haykuları ilə yanaşı, həmin şairlərin özlərinə ustad saydıqları böyük yapon şairi Saygyonun qələmindən çıxan tankalar – beşliklər də ilk dəfə olaraq oxucularımıza məhz bu toplu ilə təklif edilir.

Siz bu topluda böyük şairlərin şeirləri ilə yanaşı, onların həyat və yaradıcılığına işıq salan, ara-sıra yapon poeziyası tarixinə də toxunan məqalələri oxuya biləcəksiz.

# Azəristan ölkəsi

VİNTSAS KREVE




Azərbaycanın milli-mənəvi dəyərlərinin, Azərbaycan xalqının, onun mədəniyyətinin böyük və səmimi dostu Vintsas Krevenin Şərq mifləri əsasında yazdığı, xüsusilə Azərbaycan tarixi və milli-mənəvi dəyərləri, məişəti, dini adət-ənənələri və təbiətini ustalıqla təsvir etdiyi "Azəristan ölkəsi" yüksək ədəbi məziyyətləri, dərin dini-fəlsəfi müddəaları və milli varlığın yaşadılması ilə bağlı vacib, həyati şərtləri özündə ehtiva edən çox əhəmiyyətli bir əsərdir.

# Alman malı

MİRMEHDİ AĞAOĞLU




"Alman malı" hekayələr toplusu Azərbaycan cəmiyyəti və insanının günümüz üçün aktual olan problemlərinə, şəxsiyyət kimi formalaşmasında maneələr yaradan faktorlara ironik yanaşması ilə səciyyələnir. Kitabda yer alan hekayələr əsasən son zamanlarda baş verən hadisələrlə bağlı olub gündəmdəki, məişət həyatımızdakı, ailədaxili münasibətlərimizdəki çatışmazlıqları gerçəkliyiylə göstərir. Bu rakursdan müəllifin hekayələri özünəməxsusluğu ilə seçilir.




«Tuna» Mətbəəsində çap olunmuşdur.
Çapa imzalanmışdır: 18.04.2016
Nəşrin ölçüsü: 60x84 1/16
Fiziki çap vərəqi: 13,5
Sifariş: 40/2016